**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNƏ NAİL OLUNMASI YOLUNDA AZƏRBAYCAN MÜƏSSİSƏLƏRİNİN STRATEJİ İNKİŞAF PERSPEKTİVLƏRİ” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Ələsgərov Vüsal Ziyad**

**BAKI - 2020**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**__________________________ imza**

**"____" _______________ 20__-ci il**

**"DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNƏ NAİL OLUNMASI YOLUNDA AZƏRBAYCAN MÜƏSSİSƏLƏRİNİN STRATEJİ İNKİŞAF PERSPEKTİVLƏRİ" mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060407 - Menecment
**İxtisaslaşma:** "Strateji idarəetmə"
**Qrup:** 214

**Magistrant:**
**Ələsgərov Vüsal Ziyad oğlu**
**___________________imza**

**Elmi rəhbər:**
**i.e.n., dos. Ələsgərova Aygün Ağasəlim qızı**
**______________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Şamxalova Samirə Oqtay qızı**
**_______________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**______________________imza**

**BAKI - 2020**

## Elmi andı

Mən, Vüsal Ələsgərov Ziyad oğlu and içirəm ki, “Dayanıqlı inkişaf məqsədlərinə nail olunması yolunda Azərbaycan müəssisələrinin strateji inkişaf perspektivləri” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNƏ NAİL OLUNMASI YOLUNDA AZƏRBAYCAN MÜƏSSİSƏLƏRİNİN STRATEJİ İNKİŞAF PERSPEKTİVLƏRİ

## XÜLASƏ


**Tədqiqatın aktuallığı: Ən aktual məsələlərdən biri davamlı inkişaf fəaliyyətinin öyrənilməsi, rəqabətin aspektlərinin öyrənilməsidir.**

**"Dayanıqlı inkişaf" konsepsiyası dedikdə, iqtisadi inkişaf, sosial rifah və ekoloji tarazlığın vahid vəhdətdə formalaşması, hər bir ölkənin ətraf mühit problemlərinin həll olunması istiqamətləri və eləcə də gələcək nəsillərin imkan və potensiallarına heç bir məhdudiyyət qoymadan həmin ölkələrin gələcək nəsilləri üçün rifah halının yaxşılaşdırılmasını təmin etmək başa düşülür. "Dayanıqlı inkişaf" konsepsiyasının uğurla həyata keçirilməsində əsas vəzifə hər bir ölkənin iqtisadiyyatında səmərəliliyin və rəqabətqabiliyyətliliyinin artırılmasını təmin etmək və həmçinin də ekoloji və ətraf mühit problemlərini aradan qaldırmaqdır.**

**Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədi davamlı iqtisadi inkişafa kömək edən amillərin müəyyənləşdirilməsidir.**

**Tədqiqat metodları: Dissertasiya yazarkən təhlil və sintez, həmçinin induksiya və deduksiya metodlarından istifadə edilmişdir. Beləliklə, təhlil metodu olaraq mövzu bütövlükdə götürüldü və sonra bölümlərə bölünərək ayrıca təhlil edildi.**

**Tədqiqat informasiya bazası: Avropa İttifaqı Statistika İdarəsinin (Eurostat) rəsmi saytı, tədqiqat bazası, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin statistik məlumatları, həm də Azərbaycanda davamlı iqtisadi inkişafın təmin edilməsini təmin edən dövlət proqramlarıdır.**

**Tədqiqatın məhdudiyyətləri. Tədqiqat üçün əsas maneə nəzəri məlumatların olmamasıdır, çünki davamlı inkişafın təmin edilməsində vergi və gömrük tariflərinin rolu demək olar ki, mövcud deyil.**

**Nəticələrin elmi-praktiki əhəmiyyəti: Dissertasiyanın nəticələri və tövsiyələrindən Azərbaycan Respublikasında bazar münasibətlərinin formalaşması və inkişafında iqtisadi əlaqələrin formalaşması və inkişafında, həmçinin yeni iş yerlərinin ayrı-ayrı hissələrinin tədrisində istifadə edilə bilər.**

**Nəticələrin istafadə oluna biləcəyi sahələr: Yalnız birtərəfli deyil, həm də milli iqtisadiyyatın çoxşaxəli inkişafına nail olmaq, neft sektoru ilə yanaşı qeyri-neft sektorunu inkişaf etdirmək, müvafiq iş yerlərinin yaradılması, yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün şərait yaradacaqdır ölkə əhalisi.**



***Açar sözlər: Davamlı inkişaf, valyuta sistemi, kənd təsərrüfatı, sənaye müəssisələri, yüksək texnologiyalar, yaşıl iqtisadiyyat***

**STRATEGIC DEVELOPMENT PROSPECTS OF AZERBAIJANI ENTERPRISES TOWARDS ACHIEVING SUSTAINABLE DEVELOPMENT GOALS**


**SUMMARY**

**The actuality of the subject: One of the most pressing issues is the study of sustainable development activities, the study of aspects of competition.**

**Purpose and tasks of the research: he main purpose of the study is to identify the factors that contribute to sustainable economic development. The main task of the study is a comprehensive study of the role and current status of industrial enterprises in the development of inclusive and sustainable industrialization. The subject of the research is the study of the essence of the concept of "Sustainable Economic Development". The object of the study was the analysis of the current state of sustainable economic development in Azerbaijan.**

**Used research methods: Analysis and synthesis, as well as induction and deduction methods were used in writing the dissertation. Thus, as a method of analysis, the topic was taken in its entirety and then divided into chapters and analyzed separately.**

**The information base of the research: The official website of the Statistical Office of the European Union (Eurostat) is the basis of the research database, as well as government programs that ensure sustainable economic development in Azerbaijan.**

**Restrictions of research: The limited availability of resources and the inability to obtain sufficient new information during the study created a number of limitations.**

**Scientific novelty and practical results of the research: The results and recommendations of the dissertation can be used in the formation and development of economic relations in the formation and development of market relations in the Republic of Azerbaijan, as well as in teaching individual parts of the new economic system in higher education.**

**The results of the research: Achieving not only one-way, but also multifaceted development of the national economy, as well as improving the non-oil sector along with the oil sector, creating relevant jobs will create an environment for improving the living standards of the country's population.**



***Key words: Sustainable development, currency system, agriculture, industrial enterprises, high technology, green economy***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **AİM** | Aqrar İnkişaf Mərkəzlərinə |
| **AR** | Azərbaycan Respublikası |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **CEDAW** | Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi |
| **CRC** | Uşaq hüquqları haqqında Konvensiya |
| **CRPD** | Əlilliyi olan insanların hüquqları haqqında Konvensiya Çərçivəsi |
| **DİM** | Dayanıqlı İnkişaf Məqsədləri |
| **EKTİS** | Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi haqqında Konvensiya |
| **ICPD** | Əhali və İnkişaf üzrə Beynəlxalq Konfrans |
| **KÖƏ** | Körpə Ölüm Əmsalı |
| **KTN** | Kənd Təsərrüfatı Nazirliyi |
| **MİM** | Minilliyin İnkişaf Məqsədləri |
| **OECD** | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı |
| **SİS** | Subsidiya İnformasiya Sistemi |
| **UNAPF** | Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq |
| **ÜDİ** | Ümumi Dövri İcmal |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

MÜNDƏRİCAT

**GİRİŞ** ........ 8

**I FƏSİL. DAYANIQLI İNKİŞAF PARADİQMASI VƏ AZƏRBAYCAN** .... 11

1.1. Dayanıqlı iqtisadi inkişafın mahiyyəti, onun əsas prinsipləri ........ 11

1.2. Azərbaycan və qlobal iqtisadi çağırışlar: Minilliyin İnkişaf Məqsədlərindən Dayanıqlı İnkişaf Məqsədlərinə doğru ........ 15

1.3. Məqsədlər üzrə görülmüş işlər və əldə olunmuş nailiyyətlər ........ 27

**II FƏSİL. DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNƏ NAİL OLUNMASI YOLUNDA AZƏRBAYCAN MÜƏSSİSƏLƏRİNİN ROLU VƏ CARI VƏZİYYƏTİ** ........ 34

2.1. Ərzaq təhlükəsizliyinə nail olmaq yolunda kənd təsərrüfatı müəssisələrinin rolu və cari durumu. ........ 34

2.2. İnklüziv və dayanıqlı sənayeləşdirmənin inkişafında sənaye müəssisələrinin rolu və cari durumu ........ 44

2.3. Dayanıqlı inkişaf məqsədlərinə nail olunması yolunda tam və səmərəli məşğulluğun və hamı üçün layiqli əmək imkanlarının təşviqi ........ 55

**III FƏSİL. AZƏRBAYCAN MÜƏSSİSƏLƏRİNİN STRATEJİ İNKİŞAF PERSPEKTİVLƏRİ** ........ 62

3.1. Dayanıqlı inkişaf məqsədlərinə nail olunmaq vasitəsi kimi Azərbaycan müəssisələrinin strateji inkişaf perspektivlərinin yüksəldilməsi ........ 62

3.2. Dayanıqlı inkişafın sosial və ekoloji aspektlərinin təkmilləşdirilməsi məsələləri ........ 67

**NƏTİCƏ VƏ TƏKLİFLƏR ........ 75**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI ........ 79**

Cədvəllərin siyahısı ........ 84

Sxemlərin siyahısı ........ 84

Şəkillər Siyahısı ........ 84

# GİRİŞ

**Mövzunun aktuallığı:** "Dayanıqlı inkişaf" konsepsiyası dedikdə, iqtisadi inkişaf, sosial rifah və ekoloji tarazlığın vahid vəhdətdə formalaşması, hər bir ölkənin ətraf mühit problemlərinin həll olunması istiqamətləri və eləcə də gələcək nəsillərin imkan və potensiallarına heç bir məhdudiyyət qoymadan həmin ölkələrin gələcək nəsilləri üçün rifah halının yaxşılaşdırılımasını təmin etmək başa düşülür. "Dayanıqlı inkişaf" konsepsiyasının uğurla həyata keçirilməsində əsas vəzifə hər bir ölkənin iqtisadiyyatında səmərəliliyin və rəqabətqabiliyyətliliyinin artırılmasını təmin etmək və həmçinin də ekoloji və ətraf mühit problemlərini aradan qaldırmaqdır.

Respublikamızda da son illər istər iqtisadi, istərsə də sosial sahələrdə nailiyyətlər aşkar şəkildə müşahidə olunmaqdadır. Bu da nəticə etibarilə özünü beynəlxalq sənədlərdə bir daha göstərmiş olur. Belə ki, artıq BMT və digər beynəlxalq təşkilatların rəsmi sənədlərində Azərbaycan Respublikasının "Dayanıqlı iqtisadi inkişaf" konsepsiyasını uğurla həyata keçirilməsi statistik rəqəmlərlə qeyd olunur. Belə ki, dayanıqlı iqtisadi inkişafın əsas göstəriciləri hesab olunan əsas makroiqtisadi göstəricilərin, o cümlədən adambaşına düşən ÜDM, xalis gəlir və digər bu kimi göstəricilərin son illərlə müqayisəli təhlilindən məlum olur ki, respublikamızda bu konsepsiya uğurla icra olunmaqdadır.

Yuxarıda qeyd olunanlar əsasında deyə bilərik ki, tədqiqat işinin mövzusu kifayət qədər aktual və bu sahənin tədqiqi məsələyə kompleks yanaşmanın olmasını tələb edir.

**Problemin qoyuluşu ilə öyrənilmə səviyyəsi:** Azərbaycan müstəqilliyini əldə edəndən sonra tərəfdaş çıxdığı sosial, iqtisadi və ekoloji balansın qorunması ilə əlaqədar prinsiplər yolu ilə dayanıqlıq anlayışını inkişaf strategiyasına daxil etmişdir. Bu metodların qəbul edilməsindən sonra dövlətin reallaşdırdığı iqtisadi inkişaf strategiyasının dayanıqlı siyasət əsasında qurulmasına başlanılıb, bununla da mövzunun öyrənilməsi geniş vüsət alıb. Mövzunun öyrənilməsi ilə əlaqədar son

aktual yanaşma Azərbaycanın inkişaf proqramları və milli iqtisadiyyatın inkişfı ilə əlaqədar qəbul edilən strateji yol xəritələrində özünə yer tapmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqat işinin əsas məqsədi davamlı iqtisadi inkişaf vasitəsilə ərzaq təhlükəsizliyinin təmin olunması məsələsinin öyrənilməsidir. Bu məqsədə çatmaq üçün isə aşağıdakı əsas vəzifələrin icra olunması məqsədəmüvafiqdir:

- Dayanıqlı iqtisadi inkişafın mahiyyəti, onun əsas prinsipləri əhatəli təhlil olunmalı;
- Məqsədlər üzrə görülmüş işlər və əldə olunmuş nailiyyətlər hərtərəfli araşdırılmalı;
- Ərzaq təhlükəsizliyinə nail olmaq yolunda kənd təsərrüfatı müəssisələrinin rolu və cari durumu təhlil olunmalı;
- İnklüziv və dayanıqlı sənayeləşdirmənin inkişafında sənaye müəssisələrinin rolu və cari durumu hərtərəfli araşdırılmalı;
- Dayanıqlı inkişaf məqsədlərinə nail olunması yolunda tam və səmərəli məşğulluğun və hamı üçün layiqli əmək imkanlarının təşviqi müəyyən olunmalı.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqat işinin predmetinin əsasında "Dayanıqlı iqtisadi inkişaf" konsepsiyasının mahiyyətinin öyrənilməsi dayanır. Tədqiqatın obyekti olaraq isə Azərbaycanda fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri və "SOCAR Polymer"-in timsalında sənaye müəssisələrinin təhlili seçilmişdir.

**Tədqiqatın metodları:** Dissertasiya işinin yazılmasında analiz və sintez, eyni zamanda da induksiya və deduksiya metodlarından istifadə edilmişdir. Belə ki, analiz metodu kimi dayanıqlı inkişaf tam şəkildə və daha sonra dayanıqlı inkişafa çatma yolunda həyata keçirilən tədbirlər ayrı-ayrılıqda təhlil olunmuşdur. Daha sonra isə sintez metodu vasitəsilə bu fəsillər iqtisadi sistemdə birləşdirilmişdir. İnduksiya metodu vasitəsilə dissertasiya işi haqqında iqtisadi faktlar toplanmış, sistemləşdirilmiş və araşdırılmışdır. Sonra isə deduksiya metodu vasitəsilə isə həmin

toplanmış faktlar əsasında nəzəri nəticələr, ümumi prinsiplər, başqa sözlə desək, əməli fəaliyyət üçün lazım olan zəruri tövsiyyələr müəyyən edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Avropa İttifaqı Statistika İdarəsinin (Eurostat) rəsmi saytı, tədqiqat bazası, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin statistik məlumatları, həm də Azərbaycanda davamlı iqtisadi inkişafın təmin edilməsini təmin edən dövlət proqramlarıdır.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqatın aparılması prosesinə əngəl ola biləcək nəzəri-metodoliji çatışmazlıqlarla birlikdə, müəssisələrin statistik məlumatlarının yetərli səviyyədə açıqlanmaması və s.

**Tədqiqat işinin elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyinə aşağıdakıları aid etmək olar:

- Dayanıqlı inkişafın sənayeləşmə üzrə aspektlərinin təkmilləşdirilməsi istiqamətləri müəyyən olunmuşdur;
- Dayanıqlı inkişaf məqsədlərinə nail olunmaq vasitəsi kimi Azərbaycan müəssisələrinin ərzaq təhlükəsizliyi baxımından strateji inkişaf perspektivlərinin yüksəldilməsi istiqamətləri aşkar edilmişdir;
- Dayanıqlı inkişaf məqsədlərinə nail olunması yolunda tam və səmərəli məşğulluğun təmin olunması istiqamətləri müəyyən olunmuşdur.

**Nəticələrin elmi-praktiki əhəmiyyəti:** Dissertasiya işinin nəticələri və tövsiyələr Azərbaycan Respublikasında bazar münasibətlərinin formalaşdırılmasında və inkişafında iqtisadi siyasət məsələlərinin inkişaf etdirilməsində, habelə ali təhsil müəssisələrində yeni iqtisadi sistemin öyrədilməsi zamanı fərdi hissələrin tədrisində istifadə edilə bilər. Problemlər: keçid iqtisadiyyatı, dövlət sferası iqtisadiyyatı, rəqabət və qeyri-neft sektoru.

# I FƏSİL. DAYANIQLI İNKİŞAF PARADİQMASI VƏ AZƏRBAYCAN

## 1.1. Dayanıqlı iqtisadi inkişafın mahiyyəti, onun əsas prinsipləri

Dayanıqlı inkişaf - gələcək nəsillərin istifadə edəcəyi resursları təhlükə altına qoymadan hazırki nəsillərin həyat şəraitini yaxşılaşdıran bir inkişafdır. Dayanıqlı inkişaf anlayışı ilk dəfə Ətraf Mühit və İnkişaf üzrə Dünya Komissiyası (WCED) tərəfindən 1987-ci ildə yayınlanan "Brundtland" hesabatı vasitəsilə cəmiyyətə tanıdılmışdır.

Əgər biz gələcək nəsillərə heç nə saxlamadan bütün resurslarımızı israf və ya istifadə ediriksə, bu zaman inkişaf dayanıqlı olmur. Dayanıqlı inkişaf - bu, insanların düşüncə tərzinin yaxşılaşması (dəyişməsi) və ətraf mühitə hörmətlə yanaşmanın birlikdə inkişafıdır.

Dayanıqlı inkişafı təmin etmək üçün biz dünyanı daha ədalətli və bərabərhüquqlu cəmiyyətə çevirən ciddi dəyişikliklərin həyata keçirilməsi üzərində birgə işləməliyik. Buna nail olmaq üçün isə rəhbərlərimizdən bu dəyişikliklərin tərəfdarı olmalarını bəyan etmək tələb olunur, lakin biz də həmçinin öz işimizin bizə düşən hissəsini yerinə yetirməliyik. Biz həmçinin digər insanlara və planetimizə hörmətlə yanaşaraq, şəxsi həyatımızda pozitiv hərəkətlərə təşəbbüs etməklə dayanıqlı inkişafa töhfəmizi verməliyik. Məsələn, biz uşaqlara, gənclərə aid olan məsələləri təhlil və müzakirə edərək özümüzün gələcək nəsillər üçün necə dünya arzuladığımızı bildirməliyik.

Dayanıqlı iqtisadi inkişafı xarakterizə edən bir sıra göstəricilər mövcuddur. Həmin göstəricilər Avropa ittifaqının Statistika bürosu tərəfindən hazırlanmışdır. Bü göstəricilərin hər biri 10 mövzu üzrə aşağıdakı altbölmələrdən ibarətdir ("Dayanıqlı inkişafı xarakterizə edən göstəricilər", 2018):

- Sosial-iqtisadi inkişaf;
- Sosial tendensiyalar;
- Dayanıqlı istehsal və istehlak;
- Səhiyyə;

- İqlim dəyişkənliyi və enerji;
- Qlobal tərəfdaşlıq;
- Səmərəli idarəetmə mexanizmi;
- Nəqliyyatın dayanıqlı və uzunmüddətli inkişafı;
- Təbii resurslardan səmərəli istifadə olunması;
- Demoqrafik-əhalinin sayında baş verən dəyişikliklər.

Yuxarıda qeyd olunan göstəricilər üzrə məlumatlar Statistika Komitəsinin və digər dövlət orqanlarının məlumatları əsasında toplanmaqla təşkil olunur.

Dayanıqlı iqtisadi inkişafı təmin edən əsas göstəricilərdən biri də əhalinin bir nəfərinə düşən real Ümumi Daxili Məhsul həcmi və ÜDM-in artım tempinin müəyyən olunmasıdır. Bu göstəricinin hesablanması müxtəlif meyarlar əsasında həyata keçirilir. Bunlara misal olaraq, ölkə regionlarında yaşayan əhalinin hər bir nəfərinə düşən ÜDM-in bölüşdürülməsi, yəni dispersiyası, xalis milli gəlir, ev təsərrüfatlarında qənaətin artım sürəti, real effektiv valyuta məzənnəsi, tədqiqatlara çəkilən ümumi xərclər, iqtisadiyyatın enerji tutumunun həcmi, innovasiyaların dövriyyəsi, ümumi və cinslər üzrə məşğulluq səviyyəsi, işsizliyin mövcud səviyyəsi və digər iqtisadi amilləri qeyd etmək olar.

Dayanıqlı iqtisadi inkişafı xarakterizə edən əsas amillərdən biri də insanların həyat səviyyəsidir. Əhalinin həyat səviyyəsi dedikdə, insanların və yaxud da ayrı-ayrı əhali qruplarının sosial, maddi və mənəvi ehtiyaclarının, tələbatlarının ödənilməsində maddi və qeyri-maddi nemətlərdən, xidmətlərdən istifadə etmə səviyyəsi başa düşülür. Əhalinin həyat səviyyəsi hər bir insanın əldə etdiyi gəlirlərlə onların ehtiyaclarının ödənilməsi səviyyəsi ilə ölçülür. Başqa sözlə desək, əhalinin həyat səviyyəsinin yüksək olmasının əsasında yüksək əmək haqqı və yaxud da yüksək gəlirlərin olması dayanır. Təbiidir ki, əhali gəlirlərinin səviyyəsinin artması onların ehtiyaclarının da həcminin artmasına səbəb olur. Belə ki, əhali qrupları daha az gəlirlərə malik olduqları təqdirdə özləri üçün lazım olan zəruri ehtiyaclarının ödənilməsinə səy göstərirlərsə, gəlirlərin yüksək səviyyəsində artıq onlar istirahət və

digər xərclərini də qarşılamalı olurlar ki, bu da həyat səviyyəsinin daha da yüksəldiyini sübut etmiş olur.

Həyat səviyyəsi özünün göstəricilər sisteminin vasitəsilə əks olunur. Birləşmiş Millətlər Təşkilatının təklifinə əsasən, həyat səviyyəsinin əsas göstəriciləri aşağıdakı sxem vasitəsilə əhatəli təhlil olunur (Julian Barnes, 2015: s.9):

**Sxem 1: Həyat səviyyəsinin göstəricilər sistemi**

- Həyat səviyyəsinin geniş göstəricilər sistemi:
- Səhiyyənin vəziyyəti
- Təhsilin səviyyəsi
- Orta ömür müddəti
- Əhalinin məşğulluq səviyyəsi
- Əhalinin alıcılıq qabiliyyəti
- Siyasi həyata daxil olma

**Mənbə:** Julian Barnes. “Level of life”. 9th Edition. 2015, p.41

Hal-hazırda həyat səviyyəsini xarakterizə edən vahid ümumiləşdirilmiş bir göstəricilər sistemi yoxdur. Lakin 1990-cı ildən etibarən beynəlxalq miqyasda həyat səviyyəsinin müqayisə edilmə qabiliyyətinin formalaşdırılması məqsədilə Birləşmiş Millətlər Təşkilatlarında yeni, lakin xüsusi bir göstəricidən istifadə edirlər. Sözügedən göstərici “insanın inkişaf indeksi” kimi qəbul etdiyimiz “insan potensialının inkişaf indeksi”dir.

“İnsanın İnkişaf İndeksi” əhalinin maddi və sosial rifahını ümumi daxili məhsuldan daha geniş şəkildə özündə əks etdirir. “İnsanın İnkişaf İndeksi” insanın

inkişafının üç əsas xarakterik xüsusiyyətinə görə fərqləndirilir. Həmin xarakterik xüsusiyyətlər aşağıdakılardan təşkil olunmuşdur:

✓ orta ömür uzunluğu əsasında müəyyənləşən uzun və sağlam ömür;

✓ böyüklər arasında təhsillilik, eləcə də ibtidai, orta və ali məktəblərdə, habelə orta-ixtisas məktəblərində təhsil alanların ümumi sayı əsasında müəyyən olunan təhsil səviyyəsi;

✓ əhalinin gəlirləri və alıcılıq qabiliyyəti əsasında formalaşan layiqli yaşayış standartları.

"İnsan inkişaf indeksi" kifayət qədər müfəssəl, hərtərəfli ölçü vahidi deyildir. Belə ki, bu indeksə bəzi göstəricilər daxil edilmir. Həmin göstəricilər aşağıda verilmişdir:

✓ gender bərabərliyi;

✓ gəlir bərabərsizliyi;

✓ insan hüquqları və eləcə də siyasi azadlıqların təmin olunması

2009-cu ilə kimi "İnsanın inkişaf indeksi" göstəricilərinə əsasən dünya ölkələri 3 əsas kateqoriyaya bölünürdü. Belə ki, "İnsan inkişaf indeksi" göstəricisi reytinqində ilk 64 yeri tutan ölkələrdə həyat səviyyəsi yüksək, 64-cü sıradan 149-cu pilləyə qədər olan ölkələrdə orta, 150-dən aşağı yerləri tutan ölkələrdə isə həyat səviyyəsi aşağı olaraq dəyərləndirilirdi. Lakin 2009-cu ildən başlayaraq bu kateqoriya dünya ölkələrini dörd əsas qrupa böldü və birinci kateqoriyaya həyat səviyyəsi çox yüksək olan ölkələr qrupu əlavə olundu. Qeyd edək ki, Azərbaycan Respublikası 2019-cu ilin "İnsan inkişafı indeksi" göstəricisində 0.754 bal göstəricisi ilə Çin Xalq Respublikası və Ekvadordan sonra 87-ci pillədə qərarlaşmaqla həyat səviyyəsinin orta olduğu ölkələr reytinqindədir. Qeyd edək ki, Azərbaycanın 2000-ci ildə HDI göstəricisi 0.641 səviyyəsində olub (http://hdr.undp.org/en/2019-report).

"İnsan inkişaf indeksinin" göstəricisinə əsasən, dünya ölkələri arasında həyat səviyyəsinin çox yüksək, yüksək, orta və zəif olduğu ölkələrin xəritəsi aşağıdakı şəkil vasitəsilə əhatəli şəkildə təhlil olunmuşdur. Qeyd edək ki, aşağıda verilmiş

şəkil 2019-cu ilin “İnsan İnkişaf İndeksi” göstəricisi əsasında müəyyən olunmuş siyahıya əsaslanır.

**Şəkil 1: “İnsanın inkişaf indeksi”nin dünya ölkələri üzrə bölgüsü**




Çox yüksək
Yüksək
Orta
Aşağı
Məlumat yoxdur

**Mənbə:** Human Development Report 2019, http://hdr.undp.org/sites/default/files/hdr2019.pdf

## 1.2. Azərbaycan və qlobal iqtisadi çağırışlar: Minilliyin İnkişaf Məqsədlərindən Dayanıqlı İnkişaf Məqsədlərinə doğru

Ölkə səviyyəsində strateji planlaşdırma çərçivəsi kimi, Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) əməkdaşlığın genişləndirilməsi, Birləşmiş Millətlər Təşkilatı sistemi layihələrinin və dəstəyinin uzlaşdırılması və effektivliliyi üçün bir zəmin yaradır. Birləşmiş Millətlər Təşkilatı sistemi və Hökumət arasında tərəfdaşlığı dərinləşdirməyə çalışmaqla yanaşı, daha sonra Azərbaycanda əhatəli şəkildə, bütün insanların ləyaqətlə, zəngin və təhlükəsiz yaşamasını təmin etməyə köməklik göstərilməsini də məqsəd kimi qarşıya qoyur. UNAPF ‘Azərbaycan-2020: gələcəyə baxış’ İnkişaf Konsepsiyasında müəyyən edilən milli prioritetlərə ümumi və inteqrasiya edilmiş bir cavab olaraq, bir daha BMT-nin fəaliyyətinin milli siyasətə və planlaşdırmaya tam şəkildə uyğunlaşdırıldığını təsdiqləyir. Bu prioritetlər Azərbaycan üçün son vaxtlarda baş verən sürətli sosial-iqtisadi inkişaf və meyillər nəticəsində yaranan vəziyyətə

yönəldilir və onlarda biliyə əsaslanan, diversifikasiya edilmiş və yüksək rəqabətin olduğu iqtisadiyyata keçid; tarazlaşdırılmış regional inkişaf; insan kapitalının inkişafı; daha effektiv sosial müdafiə xidmətlərini yaratma və mədəni irsin idarə olunmasına keçid vurğulanır.

UNAPF, həmçinin, Minilliyin İnkişaf Məqsədləri (MİM) və Minilliyin Bəyannaməsi üzərində qurulan daha geniş və dayanıqlı inkişafın sosial, iqtisadi və ətraf mühitlə bağlı aspektlərini irəliyə aparmaq üçün səyləri bir araya gətirən 2015-ci ildən sonrakı yeni qlobal Dayanıqlı İnkişaf Məqsədlərindəki (DİM) cəhdləri özündə əks etdirir. 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi 2015-ci ilin sentyabr ayında Nyu-Yorkda keçirilmiş yüksək səviyyəli xüsusi zirvə toplantısında qəbul edilmiş və o, ölkə səviyyəsində dayanıqlı inkişafa dəstəyin göstərilməsində və effektiv şəkildə həyata keçirilməsində BMT-nin İnkişaf Sisteminin məqsədəuyğun olmasını təmin etmək üçün yeni baxış və BMT Sisteminin vahid şəkildə fəaliyyət göstərməsini tələb edəcəkdir. DİM-lərin uğurlu milli məsuliyyət və öhdəlik götürməklə müəyyən ediləcək, milli siyasətin yeni məqsədlərinin təsbit edilməsi milli hədəf və göstəriciləri müəyyənləşdirmək və onların inkişafının izlənməsi üçün vacib olacaqdır. UNAPF növbəti dayanıqlı məqsədlərin milli siyasətə, qərarların qəbul edilməsinə, siyasətin əlaqələndirməsi və dayanıqlı inkişafa nailolma istiqamətində görülən tədbirlərə sirayət etməsini təmin etmək üçün bir vasitə qismində çıxış edəcəkdir. Azərbaycan Hökuməti inkişaf məsələləri üzrə tərəfdaşları və digər maraqlı tərəflərlə məsləhətləşmə aparılmaqla, milli prioritetlərə uyğunlaşdırılmış DİM-lərin əlaqələndirilməsi və uzlaşdırılması üçün əsas sahələri müəyyənləşdirməklə UNAPF-yə daxil ediləcəkdir.

Minilliyin inkişaf məqsədləri olaraq 8 əsas istiqamət, 18 hədəf və 48 göstərici müəyyən edilmişdir. Həmin istiqamətlərə aşağıdakıları aid etmək olar (https://www.az.undp.org/content/azerbaijan/az/home/mdgoverview.html, 2019):

- İfrat yoxsulluğun və aclığın aradan qaldırılması;
- Əhalinin bütün təbəqələrində ümumi ibtidai təhsilin təmin olunması;

- Gender bərabərliyinin və eləcə də qadınlara səlahiyyət verilməsinin təmin olunması;
- Uşaq ölümünün qarşısının alınması və yaxud da mümkün qədər azaldılmasının təmin olunması;
- Ana sağlamlığının yaxşılaşdırılmasının təmin olunması;
- Malyariya, AİDS və digər bu kimi ağır xəstəliklərə qarşı mübarizənin gücləndirilməsi;
- Ətraf mühitin davamlılığının təmin olunması;
- İnkişaf naminə qlobal tərəfdaşlığın inkişafının təmin olunması.

Bundan əlavə, UNAPF 2015-ci ildən sonrakı inkişafla bağlı milli məsləhətləşmələrdən əldə olunan tövsiyələri, habelə bir sıra beynəlxalq icmal proseslərinin yekunlarını əsas götürür; buraya Ümumi Dövri İcmal (ÜDİ), Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiya (CEDAW), Uşaq hüquqları haqqında Konvensiya (CRC), Əlilliyi olan insanların hüquqları haqqında Konvensiya (CRPD), Vətəndaşlığı olmayan şəxslər və qaçqınlarla bağlı beynəlxalq konvensiyalar, Məcburi köçkünlüklə bağlı rəhbər prinsiplər, Bütün miqrant fəhlələrin və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə Konvensiya, 2014-cü ildən sonrakı Əhali və İnkişaf üzrə Beynəlxalq Konfrans (ICPD), habelə BMT-nin 2012-ci ildəki Dayanıqlı İnkişaf üzrə Konfransı (Rio+20), BMT Baş Assambleyasının Qeyriyoluxucu xəstəliklərə dair Qətnaməsi (2011-ci il), 2020-ci il üçün Səhiyyə siyasəti, 2015-ci ilin mart ayında Yaponiyada Fəlakət riskinin azaldılması üzrə BMT-nin Ümumdünya Toplantısı, 2014-cü ildə Lima və 2015-ci ilin dekabr ayında Paris şəhərlərində keçirilmiş BMT-nin İqlim Dəyişikliyi üzrə Tərəflərin Konfransları aiddir.

Azərbaycan sərvətlərin bölüşdürülməsini inkişaf etdirən yüksək inkişaf və siyasətlər və proqramlar nəticəsində 2000-ci illərdə yoxsulluğun əsaslı surətdə azaldılmasına nail oldu. Neft gəlirlərindən yararlanan Azərbaycan əhali üçün məvaciblərin və sosial köçürmələrin artırılması üçün, eləcə də iqtisadiyyatın modernizasiyasına yönəlmiş institusional islahatları genişləndirmək üçün

genişhəcmli ictimai sektora aid sərmayə proqramları və bunu dəstəkləyəni siyasət həyata keçirməyə başladı (https://www.az.undp.org/content/azerbaijan/az/home/mdgoverview.html, 2019).

Bu cəhdlər əsaslı artım və yoxsulluğun azalması ilə nəticələnmişdir. Bununla da, artım əhalinin əksər hissəsi üçün məvaciblərin və gəlirlərin yüksəlməsi ilə müşahidə olunmuşdur. Həm artım, həm də geniş ictimai transfert proqramları vasitəsilə sərvətlərin təkmilləşdirilmiş bölüşdürülməsi əhalinin əksər hissəsin rifahının yaxşılaşdırılması yolunda böyük rol oynamışdır.

Buna baxmayaraq, məşğulluq göstəriciləri ürəkaçan deyildi. Azərbaycanın adambaşına düşən ÜDM göstəricisinə korbohidrogen ixracatı vasitəsilə əldə olunur və bu göstərici işləyən insanların yalnız 7 %-ni əhatə etdiyi halda ixracatın 90 %-dən çoxunu əhatə edir. Bununla yanaşı, Azərbaycanın uzunmüddətli strategiyasının əsas məqsədi ölkəni daha səmərəli və innovasiyaya aparacaq iqtisadi diversifikasiya və məhsuldar iş yerlərinin açılması olmalıdır.Bu öz növbəsində kənd təsərrüfatında hər işçiyə düşən əlavə gəlirin, hər işləyən şəxsə düşən ÜDM-un və hər vətəndaşın əldə etdiyi həqiqi gəlirin (ÜMG) göstəriciləri ilə OECD göstəriciləri arasındakı fərqliliyi azaldacaqdır.

Azərbaycanın qarşısında duran əsas çətinlik tamhüquqlu Yuxarı Orta-Gəlirli dövlət katoqoriyasına düşməkdir, bunun üçün isə dövlət yüksək korbohidrogen ixracatına aslılığı aradan qaldırmalıdır.

Azərbaycan deməк olar ki, ümumi ibtidai və orta təhsilə nail olub və qeydiyyat əmsalı yoxsul və qeyri-yoxsul uşaqlar arasında təxminən bərabər səviyyədədir. Lakin, ibtidai məktəbəqədər və universitet səviyyələrində formal təhsil spektrinin nəticələrinə görə dövlət yuxarı orta-gəlir ölkə statusu göstəricilərinə görə geridə qalır.

Təmin olunan təhsilin keyfiyyətinə baxarkən iki göstəricini nəzərdən keçirmək lazımdır: Birinci olaraq riyaziyyat üzrə Azərbaycan tələbələrinin orta göstəricisi zəngin ölkələrin göstəricisinə bərabərdir və ikincisi: standartlaşmış testlərdə xüsusilə, riyaziyyat üzrə test göstəricilərində kasıb və varlı təbəqədən

olan uşaqlar arasında cox az fərq vardır. Azərbaycan belə bir nailiyyəti ilə öyünən dövlətlərin sırasındadır.

Lakin, təhsil sistemi inkişaf edən bazar iqtisadiyyatına müvafiq cavab verməsi üçün bir-neçə çətinliklərlə üzləşir. Beynəlxalq testlərdə oxu üzrə aşağı bal göstəriciləri təhsil sisteminin yüksək keyfiyyətli tədris və öyrənmə üçün müvafiq mühitlə malik olmadığını göstərir. Azərbaycanda 15 yaşlılarının 79.4 %-ə qədəri minimum oxuma bacarıqları əldə etməmişdir və bu da öz növbəsində onların sonrakı təhsil mərhələsində hazırlığı ilə bağlı ciddi narahatlıqlar yaradır.

Ali təhsil qəbulu əmsalı aşağı səviyyədədir, eləcə də yoxsul və qeyri-yoxsul arasında böyük fərq mövcuddur. Bundan əlavə, təhsil sisteminin təklif etdiyi təlimlərlə dinamik və artan iqtisadiyyatın tələb etdiyi bacarıqlar arasında əhəmiyyətli uyğunsuzluq vardır.
(https://www.az.undp.org/content/azerbaijan/az/home/mdgoverview.html, 2019).

Hökumət bu çətinliklərdən xəbərdardır və bir neçə islahatlar həyata keçirməyə başlamışdır. Təhsil sistemini gücləndirmək üçün Azərbaycan Hökuməti şagirdlərə pulsuz dərsliklərin təmin olunması; daha çox dövlət məktəblərinin inşası və mövcud məktəblərin bərpası və onların müasir təhsil ləvazimatları ilə təmin olunması; təhsil sisteminin informasiya texnologiyaları ilə təkmilləşdirilməsi; xüsusi istedadlı gənclər üçün proqramların hazırlanması; gənclərin xaricdə təhsil alması və məktəbəqədərki təhsili canlandırmaq üçün dövlət proqramı daxil olmaqla bir neçə tədbirlər həyata keçirir.

Azərbaycan təhsil sahəsində gender qeyri-bərabərliyinin aradan qaldırılmasında yüksək irəliləyiş əldə etsə də, yuxarı orta gəlirli ölkələr səviyyəsindən geridə qaldığı üçün qanunvericilikdə gender bərabərliyinin təmin edilməsinə davamlı diqqət tələb olunur.

Azərbaycan qadınlarının təhsil səviyyəsi yüksəkdir (99.5 faiz), lakin son illərdə qızların məktəbləri erkən tərk etməsi tendensiyası müşahidə olunmuşdur. Ümumilikdə, Azərbaycanda ali təhsil təhlükəsiz gələcək üçün önəmli şərt kimi sayılır və ali təhsil səviyyəsində gender fərqliliyi minimal səviyyədədir(2011-ci

ildə 45.9% 54.1% qarşı). Lakin, doktorantura səviyyəsində qadın tələbələr cəmi 18 % təşkil edir.

Son on illikdə Azərbaycanda iqtisadi vəziyyət davamlı olaraq yaxşılaşır və yeni məşğulluq imkanları yaranmışdır. 2011-ci ildə qadınlar Azərbaycanda iqtisadi aktiv əhalinin 49.2 %-i təşkil etmişdir. Lakin, qadınlar hələ də iş yerlərində ç şaquli və üfüqi seqreqasiya (ayrı-seçkilik) ilə üzləşirlər. Qadınlar təhsil, sağlamlıq və sosial xidmətlər kimi "təbiətcə qadınlara aid olan" aşağı məvacibli işlərə cəlb olunurlar.

Gender müxtəlifliyinin kişilərlə müqayisədə qadınlara mənfi təsir göstərən sahələrindən biri də qanunvericilik prosesləridir. Bəzi müsbət hallar mövcud olsa da, qadınlar hələ də seçkili vəzifələrdə və yüksək qanunverici statuslu iş yerlərində az təmsil olunurlar. Misal üçün, qadınların Azərbaycan Milli Məclisindəki bölgüsü 11%-dən (2005-ci il) 16%-ə (2010-cü il) qədər genişlənmişdir.

Hökumətin icraedici orqanlarına gəldikdə, 39 nazir və dövlət komitə və agentliklərinin rəhbərlərindən cəmisi bir nəfəri qadındır. Nazir müavini səviyyəsində qadınlar yalnız 6% təmsil olunurlar.

Dövlət qulluğunda da qadınların və kişilərin nisbəti şaquli ayrı-seçkilik imicini yaradır - belə ki, vəzifə yüksəldikcə qadınların sayında azalma müşahidə olunur. Misal üçün, kişilərlə müqayisədə Şöbə Müdiri vəzifəsində qadınların kişilərə olan nisbəti 1-in 14-ə təşkil edir. Son 4 ildə gender üzrə iştirakçılıq dinamikasını yoxlayarkən yüksək vəzifələrdə qadınların sayının artmasında yüngül artım (2%) nəzərə çarpır.

Qadın və kişilərin iqtisadi, sosial və siyasi sahədə iştirak səviyyəsində müşahidə edilən bərabərsizliklər əsasən qadınların ailə və cəmiyyətdəki roluna olan patriarxal münasibət və stereotiplərlə izah edilir. Bu da hüquqi müddəaların tətbiqində nəzərə çarpan dərəcədə əngəl yaradır (https://president.az/articles/31679, 2019).

Uşaq ölüm halları 2002-ci ildəki 63.3/1000 sağlam doğuş göstəricisindən 2011-ci ildə 44.7-yə düşməsi və körpə ölüm əmsalının (KÖƏ) 38.5/1000 sağlam doğuş (Dünya Bankı) göstəricisi təşkil etməsi ilə son zamanlar davamlı irəliləyiş əldə olunmuşdur. Bu irəliləyişə baxmayaraq, Azərbaycanın KÖƏ-si yuxarı orta-gəlirli ölkələrin orta göstəricisindən iki dəfə çoxdur.

Doğuş zamanı ölüm halları tam ölüm hallarının yarısını təşkil edir. Bu uşaqların əksəriyyəti sağlam, lakin nəfəs almadan fərqli həyat simptomları ilə anadan olurlar və bu halda onlar sağlam doğuşla anadan olmuş sayılmır, eləcə də onlara sağ qalmaq üçün heç bir qayğı göstərilmir. Bunun səbəbləri ola bilsin ki, səhiyyə işçiləri arasında reanimasiya və doğuş zamanı qayğı bacarıqlarının, eləcə də yeni doğulanlara qayğı göstərmək üçün yetərli imkanların çatışmazlığı, cəzalanmadan qorxaraq çağa ölümlərini gizlətmək tendensiyası da daxildir.

Rəsmi statistikaya əsasən, ishal xəstəlikləri və şiddətli tənəffüs infeksiyaları körpə xəstəliyi və ölümün əsas səbəbləridir. Zəif qidalanma hər 10 körpədən birinin aşağı doğum çəkili və 5 yaşa qədər boy artımı zəif olan uşaqların 13%-nin pis qidalanma göstərici ilə uşaq ölümünün əsas səbəblərindən biridir. Körpələrdə zəif immunitet və xəstələnmə ilə müşahidə olunan vitamin A çatışmazlığı bu uşaqların 75 %-də müşahidə olunur. Anemiya geniş yayılmış və buna səbəb olan dəmir çatışmazlığı demək olar qadın və uşaqlar arasında bərabərdir.

Körpə və uşaq sağlamlığının təkmilləşdirilməsini davam etdirmək üçün doğuş zamanı xüsusi diqqət göstərməklə səhiyyə xidmətlərindən rahat istifadəni təkmilləşdirmək; tibb heyətinin bacarıqlarını inkişaf etdirməklə problemli hamiləliklərin, doğuşların və uşaq xəstəlikləri hallarını azaltmaq; uşağa qayğı göstərmə təcrübələri haqqında bilik və məlumatları verməklə ana və ailələrə səlahiyyətlər vermək lazımdır.

Azərbaycan ana ölümü səviyyəsinin aşağı salınmasında müsbət nəticələrə nail ola bilmişdir. Dünya Bankının məlumatlarına görə, Azərbaycanda 2000-ci ildə olan hər 100.000 doğumdan 65 ana ölümü parametrindən 2008-ci ildə təxminən yarı nisbətə qədər azalmışdır və 2010-cu il üzrə hər 100.000 nəfərə 43

ana ölümü parametrinə enmişdir. BMT/Dünya Bankının birlikdə araşdırmaları ölkəmizin MİM-lərdə orta irəliləyiş nümayiş etdirməklə, 1990-cı və 2008-ci illər arasında ana ölümündə illik 2.9 % azalmasını göstərir.

Əsas amillərin biri də ixtisaslı mütəxəssis və zəruri avadanlıqla təmin edilmiş doğuşdan əvvəl olan qayğı və doğuş ləvazimatlarına çıxış amilinin olmasıdır. Ən sonuncu Demoqrafik və Səhiyyə sorğusunda doğum hallarının böyük bir qismi (89 %) təlim keçən səhiyyə işçilərinin nəzarətinin altında və tibbi ləvazimatla təchiz edilir (78 %). Bu irəliləyişin olmasından xəbər versə belə, hələ də yüksək orta gəlirli ölkələrin ortalama göstəricilərindən (97 %) aşağı səviyyədədir.

Azərbaycan 2003-cü ildən bəri mərkəzləşmiş İnsan İmmunçatışmazlığı Virusu (İİV) epidemiyası olan ölkə kimi tanınır. İİV göstəricisi 2004-cü ildən bəri kəskin şəkildə artmaqdadır. Bu epidemiya kişilərin qadınların sayının dörd misli qədər yoluxması ilə əsaslı şəkildə gender yönlüdür. Bu epidemiya, xüsusilə narkotik istifadəsi ilə daha da geniş yayılır: demək olar ki, İİV-ə yoluxan Azərbaycan vətəndaşlarının üçdə ikisi virusu bu yolla əldə ediblər.

Azərbaycanda İİV epidemiyası ilə mübarizədə əhəmiyyətli dərəcədə irəliləyişə baxmayaraq, bu epidemiya ilə üzləşmə riski böyük olan insanlara virusdan qorunma, müalicə, qayğı və dəstəkləyici xidmətlər aşağı səviyyədədir və buna qarşı intensivləşmiş fəaliyyətə ehtiyac vardır. İİV-li insanlara qarşı damğa vurma və ayrı-seçkilik kimi fəaliyyətlər üstünlük təşkil edir, eləcə də gec diaqnoz və bunun ardınca erkən ölümlə nəticələnən gec tibbi tədbirlərlə (bura xüsusilə İİV məsləhətləşmələri və test edilməsi addir) müşahidə edilir.

İİV qoruyucu tədbirləri dövlət səhiyyə sisteminə inteqrasiya olunmamışdır və paytaxtda ixtisaslaşmış AİDS Mərkəzində cəmlənmişdir. Bunun nəticəsində səhiyyə işçiləri və peşəkarlar HİV-in səmərəli və elmi metodlarla qarşısının alınması və müalicəsindən əksər hallarda xəbərsiz olurlar.

Hal-hazırda, İİV/QİÇS-ə qarşı vahid milli əlaqələndirmə orqanı kimi Ölkə Əlaqələndirmə Mexanizmi yaradılır, lakin səmərəli əlaqələndirmə üçün

bacarıqların artırılmasına ehtiyac var ("Dayanıqlı inkişafı xarakterizə edən göstəricilər", 2018).

Azərbaycanda endemik xəstəlik olan malyariyaya gəldikdə isə, 1997-2011-ci illərdə geniş-miqyaslı epidemik nəzarət müdaxilələri nəticəsində epidemik vəziyyət aradan qaldırılmışdır və 2011-ci il ərzində 4 idxal olunmuş hallar da daxil olmaqla ölkə ərazisində 8 malyariya halı qeydə alınmışdır.

Azərbaycan aparıcı beynəlxalq müqavilələrə üzvdür, əhəmiyyətli milli ekoloji qanunlar qəbul edib və qlobal ekoloji narahatlıqları Azərbaycanın milli siyasət və proqramlarında əks etdirmişdir.

Ölkə özünün biomüxtəliflik resurslarını qorumaqda əhəmiyyətli irəliləyiş əldə etmişdir - ölkənin ümumi sahəsindəki qorunan ərazilərin sayı hissə etibarilə 2000-ci ildəki 5% göstəricidən iki dəfə artaraq 2011-ci ildə 10.2%-a çatmışdır. Meşələrin bərpa olunması və meşələşdirmə tədbirləri 0.4% meşə ilə əhatə olunan ərazilərin artması ilə nəticələndi. 2002-ci il ilə müqayisədə 15% artımla 2010-cu ildə əhalinin 82%-i əhaliyə təkmilləşdirilmiş obyektlərə giriş əldə etdi və bu göstərici yuxarı-orta-gəlirli dövlətlərin orta göstəricilərindən yüksəkdir.

Azərbaycanın hələ də ciddi ekoloji çətinlikləri mövcuddur. İki fenomen: ölkə ərazisinin 43%-nin eroziyaya və 20%-nin şoranlaşmaya məruz qalması səhralaşmaya yol açır və kənd təssərrüfatında məhsuldarlığı azaldır.

İçməli suyun əldə edilməsi əsas narahatlıq doğuran məsələlərdən biridir. Kənd əhalisinin içməli su mənbələrinə çıxışı 2002-ci ilin 62% göstəricisindən 2010-cu ilin 71 % göstəricisinə qalxsa da, bu yuxari orta gəlirli ölkələrin orta göstəricilərindən hələ də aşağıdır. Azərbaycan kənd yerlərinin inkişafına xüsusi diqqət yetirməklə mövcud su təchizatı sistemlərini müasirləşdirmə fəaliyyətini davam etməlidir (http://unazerbaijan.org/az/dayaniqli-inkisaf-m%C9%99qs%C9%99dl%C9%99ri/dayaniqliinkisafuzr%C9%992030cuilgund%C9%99liyi/, 2019).

Neft gəlirləri və sabit makro-iqtisadi siyasəti nəticəsində Azərbaycan inkişaf etmiş dünya ilə xarici yardım və borcların silinməsi üzərində qurulan asılılıq əlaqələrini qəbul etməyə heç də ehtiyac duymur. Azərbaycan hələ də Rəsmi

İnkişaf Yardımı (RİY) alsa da, artıq dövlət öz ictimai xərclərini qarşılamaq üçün xarici yardıma ehtiyac duymur.

Hətta, Azərbaycanın inkişaf etməkdə olan ölkələr üçün donor ola biləcək imkanları vardır. Bundan əlavə, Azərbaycanda MİM 8-ə qarşı fəaliyyəti digər inkişaf etməkdə olan ölkələrin fəaliyyətindən konseptual olaraq fərqli şəkildədir.

Azərbaycan qarşılıqlı olaraq yararlana biləcəyi inkişaf etmiş dünya ilə qarşılıqlı-aslılıq tərəfdaşlığına önəm verir. Azərbaycanın inkişaf etmiş dünyadan malların və xidmətlərin, kapital və əməyin azad axınından tam yararlanmaq şəraitinə ehtiyacı var ki, bu da qloballaşan dünyada müasir meyillər kimi ideal sayılır.

Azərbaycan özündə donorluq potensialını axtarır və bu tendensiya dövlətin təbii fəlakətləri aradan qaldırmaq üçün fondların səxavətli ianə verməsində və dünyanın bir neçə ölkəsində sülhməramlı qüvvələr saxlamasında, eləcə də beynəlxalq layihələrə ayrılan vəsaitlərin artırılmasında və 14 sentyabr 2011-ci ildə Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin yaradılması haqqında son qərarda öz əksini tapmışdır.

2015-ci ilin iyulunda BMT-nin üzv dövlətləri Qlobal Məqsədlərlə bağlı saziş bağladılar. Bu razılıq planetimizə heç bir ziyan vermədən, bütün səyləri yer üzündəki insanların yaxşı həyatlarının təminatına yönəltmək arzusu ilə bağlıdır. Dövlətlər yaxın 15 il (2015-ci ildən 2030-cu ilə qədər) müddətində bu məqsədlərə nail olmaq üçün iş aparacaqlar. Bu məqsədlər MİM-i əvəz edərək Dayanıqlı İnkişaf Məqsədləri (DİM) adı altında reallaşdırılır (http://unazerbaijan.org/az/dayaniqli-inkisaf-m%C9%99qs%C9%99dl%C9%99ri/dayaniqli-inkisaf-uzr%C9%99-2030-cu-il-gund%C9%99liyi/, 2019).

BMT-nin təşəbbüsü ilə açıq tərkibli İşçi Qrupu yaradıldı ki, bu tərkibə də 2013-2014-cü illərdə 13 iclas keçirən üzv dövlətlərin nümayəndələri daxildir. Təhsil, səhiyyə, iqlim dəyişikliyi və digər sahələrin texniki-mütəxəssis komandalarının iştirakı ilə bu qrup bütün insanların rastlaşdığı, həyatlarının və planetimizin yaxşılaşmasına mane olan ən zəruri problemləri müzakirə etdilər. Eyni zamanda dünyanın bütün guşələrində sadə insanlarla müzakirələr keçirildi və bu, onlara

Qlobal Məqsədlərin tərkibinə məhz nəyin əlavə edilməsi üçün öz fikirlərini demək imkanı verdi. Bu müzakirələrin nəticəsində açıq tərkibli İşçi Qrupu müxtəlif mövzuları geniş əhatə edən məqsəd və məqsəd göstəricilərini işləyib hazırladı. Məsələn, tematik sahələrdən bəziləri yoxsulluq və aclığın aradan qaldırılması, insan hüquqlarının təminatı, sülh və gender bərabərliyi, həmçinin təbii resursların və ətraf mühitin qorunmasının davamlı idarə olunmasını əhatə edir.

Açıq tərkibli İşçi Qrupunun məruzəsi dərc edildikdən sonra BMT-nin bütün üzv dövlətləri bu məsələni müzakirə etdilər. Onlar belə qənaətə gəldilər ki, açıq tərkibli İşçi Qrupu lazımlı, uzaqgörən bir siyahı hazırlayıb və beləliklə də, 17 Məqsədi qəbul etdilər. Onlar bu məqsədlərlə, verilmiş məqsədlərin təcrübədə necə həyata keçirilməsi və yaxın 15 ildə onların reallaşmasının gedişinə necə nəzarət olunacağı ilə bağlı bəzi mülahizələrlə dünya ictimaiyyətini tanış etmək üçün yazılı Bəyannamə ilə çıxış etdilər. Nəhayət, 2015-ci ilin avqustunda BMT-nin üzv dövlətləri Dayanaqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə dair hər şeyi əhatə edən gündəliyi təsdiqləyərək 25 sentyabr 2015-ci ildə BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında təntənəli surətdə qəbul edilməsinə hazırladılar.

Qəbul olunan gündəlik özündə 17 dayanıqlı inkişaf məqsədini, 169 hədəfi və bu gedişatın müşahidəsi üçün 232 göstəricini özündə birləşdirirdi.

Dayanıqlı İnkişaf Məqsədləri özündə 2030-cu ilədək nail olunması planlaşdırılan 17 qlobal məqsədi ehtiva edir. Bu məqsədlər aşağıdakılardır:

- Hər yerdə yoxsulluğun bütün şəkillərinə son qoymaq;
- Yaşından asılı olmamaqla hamının sağlam yaşamasını təmin eləmək və rifah hallarını yaxşılaşdırmaq;
- Aclığa son qoymaq, qida təhlükəsizliyinə və yaxşı qidalanmağa nail olmaq və davamlı kənd təsərrüfatına təşviq etmək;
- Gender bərabərliyinə nail olunması, bütün qadınların səlahiyyətləndirilməsi;
- Hamı üçün keyfiyyətli və inklüziv təhsilin təmin edilməsi və ömür boyu təhsilin təşviqi;

- Hər kəsə suyun və kanalizasiya xidmətlərinin çatmasını təmin etmək;
- Hamının etibarlı, sərfəli, dayanıqlı və yeni enerji mənbələrini əldə etməsini təmin eləmək;
- Möhkəm infrastruktur formalaşdırmaq, innovasiyaların inkişafına dəstək vermək, dayanıqlı və inklüziv sənayeləşməni həvəsləndirmək
- İnklüziv və dayanıqlı iqtisadi inkişafı, hər kəs üçün layiqli əmək məşğulluğu təşviq eləmək.
- Ölkə daxilində və beynəlxalq bərabərsizliyin azaldılması
- Şəhər və yaşayış məntəqələrinin davamlılığını, açıqlığını, ekoloji dayanıqlılığını və təhlükəsizliyini təmin etmək
- İqlim dəyişiklikləri və onun təsirinə qarşı mübarizə aparmaq yolunda təxirəsalınmaz tədbirlər həyata keçirmək
- Dayanıqlı istehsal və istehlak modellərinə keçidi təmin eləmək
- Okeanlar, dənizlər və digər dəniz ehtiyatlarının qorunması və onlardan effektiv istifadə
- Meşələri dayanıqlı formada idarə etmək, səhralaşma probleminə qarşı mübarizə etmək, torpaqların deqradasiyasına son qoymaqla onları bərpa etməkdən ötrü tədbirlər görmək və bioloji müxtəlifliklərin məhv olmasının qarşısını almaq
- Dayanıqlı inkişaf istiqamətində qlobal əməkdaşlığı sürətləndirmək
- Sülhsevər, ədalətli və açıq cəmiyyət formalarını təşviq eləmək

Azərbaycan da Dayanıqlı İnkişaf Məqsədlərini prioritetlərindən biri olaraq qəbul etmişdir və Cənab Prezident İlham Əliyevin 6 oktyabr 2016-cı il tarixli fərmanına əsasən dövlət proqramlarının və strategiyalarının Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmasının təmin edilməsi, eləcə də Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması ilə əlaqədar illik hesabatların tərtib edilməsi üçün Azərbaycan Respublikasında Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır.

### 1.3. Məqsədlər üzrə görülmüş işlər və əldə olunmuş nailiyyətlər

Azərbaycan dövləti bu il artıq özünün müstəqil fəaliyyətinin 29-cu il dönümünü qeyd edəcəkdir. Belə ki, 18 oktyabr 1991-ci ildə özünün müstəqilliyini elan edən Azərbaycan Respublikası ötən 28 il ərzində həm iqtisadiyyatda, həm də digər sahələrdə kifayət qədər inkişafa nail olmuşdur. Məhz bunun məntiqi nəticəsidir ki, 2019-cu ilin "İnsan inkişafı indeksində" Azərbaycan dövləti 87-ci pillədə qərarlaşmışdır (http://hdr.undp.org/en/2019-report).

Azərbaycan iqtisadiyyatının inkişafı hələ Sovet dönəmində Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, 1969-1982-ci illər ərzində Azərbaycan dövləti özünün müstəqil iqtisadi inkişafında bir çox iqtisadi uğurlar və nailiyyətlər əldə olunmuşdur. Qeyd olunan dövrdə Azərbaycanın milli gəliri 2.6 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi 2.3 dəfə, sənayenin həcmi isə 2.7 dəfə artmışdır. Bu dövrdə müstəqil iqtisadiyyatın yaranıb formalaşmasını xarakterizə edən əsas cəhətlərdən biri də 243 sənaye müəssisəsinin yaradılmasıdır (Ələkbərov Ə., 2019).

Lakin 18 oktyabr 1991-ci ildə Azərbaycan dövləti özünün ikinci dəfə müstəqilliyini elan edəndə iqtisadi tarazlıq demək olar ki, yox səviyyəsində idi. Məhsul qıtlığı, inflyasiya, işsizlik və digər iqtisadi kateqoriyalar özlərinin ən maksimum səviyyəsinə çatmışdı. Lakin ötən 28 il ərzində aparılmış uğurlu islahatların nəticəsi olaraq bu gün Azərbaycan Respublikası bazar iqtisadiyyatına uğurla keçmiş, dünya bazarında öz sözünü demiş və bir çox dövlətlə azad rəqabətə daxil olmaq səviyyəsinə çatmışdır.

Azərbaycanda iqtisadiyyatın inkişafına şərait yaradan əsas nailiyyətlərdən biri də 1994-cü ilin 20 sentyabrında bağlanmış "Əsrin müqaviləsi"dir. Ümummilli lider Heydər Əliyevin böyük səyləri nəticəsində Türkiyə, ABŞ, Norveç, Rusiya, Böyük Britaniya, Yaponiya və Səudiyyə Ərəbistanı ilə bağlanılan bu müqavilə iqtisadiyyatı çökmüş Azərbaycan dövlətinin inkişaf rüşeymlərinin formalaşmasında mühim rol oynamış oldu.

2003-cü ildən etibarən isə ümummilli lider Heydər Əliyevin davamlı iqtisadi inkişaf modeli Cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Belə ki, Cənab Prezident İlham Əliyevin başçılığı ilə 2003-2018-ci illər ərzində Azərbaycan iqtisadiyyatı real ifadədə 3.3 dəfə artım tempinə nail oldu. 15 il ərzində əldə edilmiş bu uğurlu rəqəm dünyada rekord göstəricidir. Dünyanın ən inkişaf etmiş ölkələri belə 15 illik müddət ərzində həyata keçirtmiş olduqları iqtisadi islahatlarla dövlət iqtisadiyyatını real ifadədə 3.2 dəfə inkişaf etdirə bilməmişlər (Ələkbərov Ə., 2019).

2003-2018-ci illər ərzində aparılmış uğurlu iqtisadi islahatlar nəticəsində sənaye istehsalı 2.6 dəfə, valyuta ehtiyatları 24 dəfə, ixrac həcmi isə 4.7 dəfə artmışdır. Bu 15 il ərzində Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşlarının həcmi 250 milyard ABŞ dollarını ötüb keçmişdir (https://president.az/articles/31679).

Belə ki, 2006-cı ilin "Doing Business" hesabatında Azərbaycan Respublikası 98-ci pillədə qərarlaşmışdırsa, 2019-cu ildə artıq sürətli yüksəliş nümayiş olunaraq 25-ci pilləyə qədər irəliləməyi bacarmışdır. "Doing business-2020" hesabatında isə Azərbaycan artıq iqtisadi islahatları uğurla həyata keçirən 20 ölkə sırasındadır. Bu hesabata görə Azərbaycanda davamlı iqtisadi inkişafı təmin edən əsas islahatları 4 əsas qrupda birləşdirmək olar. Həmin islahat qrupları isə aşağıdakılardan ibarətdir (https://www.doingbusiness.org/, 2019):

- əmlak qeydiyyatı;
- kreditlərin alınması;
- müqavilələrin icrasının təmin edilməsi;
- azsaylı investorların hüquqlarının müdafiəsinin təmin olunması.

Ölkədə dayanıqlı iqtisadi inkişafı təmin etmək məqsədilə regionların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirilməkdədir. Bu tədbirlərə misal olaraq üç dövrü əhatə edən "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı göstərmək olar. Sözügedən proqram aşağıdakı üç mərhələdən ibarətdir:

- 2004-2008-ci illər;

- 2009-2013-cü illər;
- 2014-2018-ci illər.

Regionların sosial iqtisadi inkişafını təmin etmək məqsədilə yaradılmış və icra edilmiş bu dövlət proqramı iqtisadiyyatın davamlı inkişafının təmin olunmasında müstəsna rol oynayır. Bu səbəbdən də respublikamızda 2004-2018-ci illər ərzində 2 milyona yaxın yeni iş yerləri açılmışdır. İqtisadi inkişafın davamlı fəaliyyətinə xidmət edən bu proqramın dördüncü mərhələsinə artıq 2019-cu ildən başlanılmışdır. Belə ki, 2019-2023-cü illəri əhatə edən bu dövlət proqramı regionlarda məşğulluğun artırılması, əhalinin sosial-iqtisadi vəziyyətinin yüksəldilməsinə xidmət edəcəkdir ("2014-2018-ci illərdə Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı").

Azərbaycan Respublikasında dayanıqlı iqtisadi inkişafın təmin olunması sahəsində həyata keçirilmiş əsas tədbirlərdən biri də ailə biznesinə dəstəyin verilməsi ilə əlaqədardır. Belə ki, bunun üçün yaradılmış Ailə Biznesinə Asan Dəstək- ABAD mərkəzi fəaliyyət göstərməkdədir. ABAD Mərkəzləri ASAN xidmətin əas qollarından biri hesab olunmaqla ASAN Xidmətə bağlı şəkildə fəaliyyət göstərir və öz təsərrüfatlarını inkişaf etdirmək iqtidarında olmayan ailələrə dövlət hesabına yardımın göstərilməsini təmin edir. Hal-hazırda Azərbaycanda 15 ASAN Xidmət mərkəzi fəaliyyət göstərir ki, bunlardan 5-i 2019-cu ildə öz fəaliyyətinə başlamışdır.

Beynəlxalq maliyyə institutları 2019-cu və 2020-ci illər üzrə Azərbaycan iqtisadiyyatının vəziyyətinə dair özlərinin proqnozlarının vermişlər. Belə ki, üç əsas maliyyə təşkilatı 2020-ci ildə Azərbaycanda iqtisadiyyatın dayanıqlı inkişafının davam edəcəyini proqnozlaşdırmışlar. Həmin maliyyə institutları isə Dünya Bankı, Asiya İnkişaf Bankı və Beynəlxalq Valyuta Fondudur. İllik iqtisadi hesabatlarına istinadən, Azərbaycanın 2020-ci il üçün ÜDM artımı proqnozlarını Dünya Bankı 2.3%, Asiya İnkişaf Bankı 2.4%, Beynəlxalq Valyuta Fondu isə 2.1% olaraq proqnozlaşdırıb (https://www.adb.org/publications/asian-development-outlook-2019-update, ).

DSK DİM-lər üzrə işçi qrupları ilə birlikdə ilkin olaraq DİM göstəricilərinə dair hesabat vermə imkanlarını nəzərdən keçirmiş və 17 məqsəd üzrə təxminən 110

hədəfi əhatə edən göstərici üzrə hesabat verilə biləcəyini bildirmişdir. Lakin hal-hazırda bu istiqamətdə beynəlxalq və yerli ekspertlərlə müzakirələr davam etməkdədir. BMT-nin MAPS missiyasının "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün inteqrasiya, sürətləndirmə və siyasətə dəstək" hesabatında da bu məsələyə dair verilmiş şəkildən də göründüyü kimi bu istiqamətdə işlərin gücləndirilməsinə ciddi ehtiyac vardır.

**Şəkil 2: Azərbaycanın DİM-lər üzrə icra cədvəli (BMTİP metodologiyası)**




**Mənbə:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"nin icrası ilə əlaqədar Azərbaycanda görülən işlər və əldə Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək üçün olunan nailiyyətlər haqqında 2016-2017-ci illər üzrə YEKUN HESABAT (http://sdg.az/storage/app/uploads/public/5b8/7d0/ae0/5b87d0ae05e51242626787.pdf,2018: s.28)

Aparılan müzakirələr və araşdırmalar göstərir ki, ölkədə DİM-lər üzrə milli məlumat sistemlərinin maddi-texniki və kadr potensialını və proqram təminatını gücləndirməklə əhatəliliyinin və dərinliyinin artırılmasına və əlaqələndirilməsinin yaxşılaşdırılmasına, təhlil və qiymətləndirmə üzrə potensialın inkişaf etdirilməsinə ehtiyac vardır. Bu istiqamətlərdə görüləcək işlərə aşağıdakıları aid etmək olar: - göstəricilərin müəyyən olunması və məlumat toplama: milli prioritetlərə uyğun hədəf və göstəricilərin, onlar üçün baza illərinin və başlanğıc vəziyyətinə dair məlumatların müəyyənləşdirilməsi; - təfsilatlı məlumatlar: "heç kəsi arxada buraxmamaq" və DİM-lərdə bərabərsizliyə və ayrı-seçkiliyə yol verməmək öhdəliyi səylərin ortasəviyyəli təbəqələrdən ən təcrid olunmuş əhali qruplarına doğru

yönləndirilməsini tələb edir. Bunun üçün “heç kəsi arxada buraxmamaq” prinsipinə uyğun olaraq cins, yaş, gəlir (rifah), yerləşmə, etnik mənsubiyyət, əlilliyi olmaq, qaçqın və məcburi köçkün olmaq və digər səciyyəvi sosial-iqtisadi xüsusiyyətlərə görə məlumatların təfsilatlandırılması (dezaqriqasiya olunması) tələb olunur; - monitorinq və hesabat vermə sistemləri: mövcud məlumatlarla və məlumatların özlərinə dair hesabat vermə sistemləri ilə işləmək və informasiya mübadilələri, o cümlədən, əsas göstəricilərə dair hesabat vermə və həm üfüqi, həm də şaquli əlaqələndirməyə imkanlar yaratmaq üçün onlayn sistemlərinin yaradılmasını tələb edir; Hazırda qeyd olunan istiqamətlərdə müəyyən tədbirlər görülür. BMTİP də ölkədə DİM gündəliyinin icrasının dəstəklənməsi çərçivəsində bu istiqamətlərdə DSK-yə və əlaqədar qurumlara müəyyən dəstək göstərmək niyyətindədir (http://sdg.az/storage/app/uploads/public/5b8/7d0/ae0/5b87d0ae05e51242626787.pdf, 2018: s.28).

Dəstəklə bağlı aşağıdakılar daxil olmaqla, əlavə təhlillərin aparılmasına ehtiyac duyulur: - rəsmi və inzibati statistik məlumatlardan, xüsusilə “irihəcmli məlumat”lardan istifadə potensialının qiymətləndirilməsi. Bu təhlildə “iri həcmli məlumat”ların toplanılmasının və sorğuların necə aparıldığının öyrənilməsi əsasında onların tədricən DİM göstəricilərinə uyğunlaşdırılması üçün əlavə işlərin görülməli olduğu müəyyənləşdirilə bilər; - məlumat sistemlərini, o cümlədən onların avadanlıq və proqram təminatını yaxşılaşdırmaq üçün bu sahədə mövcud potensialın qiymətləndirilməsi və ehtiyacların müəyyənləşdirilməsi; Bu proseslərin ölkənin e-idarəçilik sistemləri üzrə əldə etdiyi nailiyyətlərlə əlaqələndirilmə imkanlarının nəzərdən keçirilməsi.

Hazırda DİMƏŞ Katiblik və işçi qruplarının köməyi ilə aşağıdakı istiqamətlərdə fəaliyyətləri gücləndirməyə səy göstərir: prosesdə maraqlı tərəflərin geniş və hərtərəfli iştirakının təmin edilməsi; qlobal DIM-lər, hədəflər və göstəricilərin milliləşdirilməsi, davamlı inkişaf üzrə milli prioritetlərin və boşluqların müəyyənləşdirilməsi, inklüziv və əsaslı milli strategiya və siyasətlərin formalaşdırılması, müxtəlif nazirliklər və digər hökumət qurumları arasında əməkdaşlığın əlaqələndirilməsi və təşviq edilməsi; inkişaf üzrə yerli və beynəlxalq

tərəfdaşlar arasında milli prioritetlər üzrə razılığın təmin edilməsi; milli monitorinq, qiymətləndirmə və hesabatlılıq mexanizmlərinin yaradılması, milli hesabatlılıq prosesinin müvafiq regional və qlobal proseslərlə əlaqələndirilməsi; DİM-lərin icrası ilə əlaqədar sahələrdə potensialın artırılması üçün ehtiyacların və imkanların müəyyənləşdirilməsi. Hesabat dövründə onların əsas vəzifələri öz istiqamətləri üzrə qlobal DİM-lər, onlarla əlaqədar hədəflər və göstəricilərin milliləşdirilməsi, prioritetləşdirilməsi, ölkənin inkişaf gündəliyi ilə əlaqələndirilməsi, icra mexanizmlərinin formalaşdırılması, ictimai maarifləndirilmə tədbirlərinin təşkili, monitorinq, qiymətləndirilmə və hesabatlılıq mexanizmlərinin yaradılması, Yüksək Səviyyəli Siyasi Forum üçün Könüllü milli icmalın və ölkə üzrə İllik hesabatın hazırlanmasında iştirak etməkdən ibarət olmuşdur. Baxılan dövrdə işçi qruplarının iştirakı ilə aşağıdakı kimi tədbirlər keçirilmiş və müvafiq işlər görülmüşdür (http://sdg.az/storage/app/uploads/public/5b8/7d0/ae0/5b87d0ae05e51242626787.pdf, 2018:, s.35):

• 2016-cı il 18 noyabr tarixində aidiyyəti dövlət qurumlarının iştirakı ilə BMT-nin Bakı ofisi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Bakı Biznes Mərkəzində seminar keçirilmişdir. Seminarda işçi qruplarının üzvlərinə mövcud siyasətlə DİM-lərin uyğunluğunun qiymətləndirilməsi üzrə təfsilatlı xəritəyə (Rapid Integrated Assessment (RIA) Matrix) dair ətraflı məlumat verilmiş, DİM-lər üzrə uyğunluq cədvəllərinin hədəflər və məsul institutlar daxil olmaqla doldurulması qaydaları göstərilmişdir.

• 2017-ci il 10-12 yanvar tarixində DİM-lər üzrə milli prioritetlərin və onlara dair göstəricilərin müəyyən edilməsi məqsədi ilə sahə işçi qruplarının iclasları keçirilmişdir. İclaslarda DİM-lər üzrə qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlərin və onlara dair göstəricilərin müəyyən edilməsi, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramlarının və strategiyaların Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılması üzrə geniş müzakirələr aparılmış və nəticə olaraq Azərbaycan Respublikası üçün məqsəd, hədəf və göstəricilərin ilkin layihəsi hazırlanmışdır.

• 2017-ci il 17 fevral tarixində texniki seminar keçirilmişdir. Seminarda BMT-nin NyuYork qərargahının eksperti, sahə işçi qrupları və milli ekspert iştirakı ilə tematik plana uyğun olaraq seçilmiş 6 DİM hədəf və göstəricilər üzrə Könüllü Milli Hesabatın hazırlanması prosesi ilə bağlı cari vəziyyət və yaranan suallar barədə geniş müzakirələr aparılmışdır.

DİM-lərə nail olunması baxımından ətraf mühitin və ekologiyanın mühafizəsi, bəşəriyyətin gələcəyi naminə təbii və intellektual resurslardan qənaətlə və səmərəli istifadə, insan və təbiət arasında münasibətlərdə ahəngdarlıq, əhalinin artımı və ərzaqla təchizat olunması, insan kapitalının inkişafı, o cümlədən həyat səviyyəsinin yüksəldilməsi, yaxşı səhiyyə və təhsil sistemlərinin yaradılması, elm və texnologiyaların inkişafı, qlobal səviyyədə sülh, rifah və sosial ədalət, demokratiyanın inkişafının davamlılığının təmin edilməsi böyük əhəmiyyət kəsb edir. Bu prosesdə dövlət, qeyri-hökumət təşkilatlarının, ictimai birliklərin, biznes strukturlarının, eləcə də təhsil müəssisələrinin üzərinə böyük vəzifələr düşür. Belə ki, məhz məqsədyönlü təhsil vasitəsilə dayanıqlı inkişafın məzmunu və mahiyyəti, məqsəd və hədəfləri, paradiqma və prioritetləri gənc nəsilə aşılanır və onların fəaliyyətlərində mühüm yer tutur.
(http://sdg.az/storage/app/uploads/public/5b8/7d0/ae0/5b87d0ae05e51242626787.pdf, 2018: s.23).

Təqdir olunmalıdır ki, bu gün Azərbaycan Respublikası xarici borclarının ÜDM-nin tərkibində tutduğu xüsusi çəkisinin az olması ilə seçilir. Beləliklə, qeyd olunanların məntiqi yekunu olaraq deyə bilərik ki, Azərbaycan dövlətinin həyata keçirmiş olduğu iqtisadi siyasətlər düzgün və hərtərəfli olmaqla Azərbaycanın davamlı iqtisadi inkişafını təmin edir. Ölkə başçısı cənab İlham Əliyevin yürütmüş olduğu davamlı inkişaf siyasəti ölkənin daxili və xarici siyasətində də öz əksini tapmaqla bu gün Azərbaycanın inkişafının təməlində dayanır.

# II FƏSİL. DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNƏ NAİL OLUNMASI YOLUNDA AZƏRBAYCAN MÜƏSSİSƏLƏRİNİN ROLU VƏ CARI VƏZİYYƏTİ

## 2.1. Ərzaq təhlükəsizliyinə nail olmaq yolunda kənd təsərrüfatı müəssisələrinin rolu və cari durumu

Ölkəmizin müasir ərzaq təhlükəsizliyi strategiyası və konsepsiyası, ilk öncə əhalinin uzunmüddətli olaraq mühüm ərzaq məhsulları ilə təmin olunmasına yönəldilmişdir. Bununla əlaqədar olaraq daimi şəkildə sistemləşdirilən və balanslaşdırılan iqtisadi siyasət reallaşdırılır, mühüm tədbirlər həyata keçirilir. Təsadüf deyildir ki, 2007-ci illərdən başlayan dünya maliyyə böhranının nəticələri Azərbaycan iqtisadi sisteminə və ərzaq təhlükəsizlik proqramlarına ciddi şəkildə öz təsirini göstərə bilməmişdir. İlkin məlumatlara əsasən 2018-ci ildə ölkə rezidentləri tərəfindən istehsal edilmiş ümumi daxili məhsul əvvəlki illə müqayisədə 1,4 faiz artaraq 79797,3 milyon manata çatmışdır. Əhalinin hər nəfəri üzə düşən ÜDM 8126,2 manat və yaxud 4780,1 ABŞ dolları təşkil etmişdir. Həmçinin Yola saldığımız ildə iqtisadiyyatın əsasən qeyri-neft sektorunda istehsal olunmuş əsas əlavə dəyər 1,8 faiz, bununla yanaşı neft sektorunda isə 0,6 faiz artmışdır.

**Qrafik 1: İqtisadiyyatın sahələri üzrə ümumi daxili məhsul, faktiki qiymətlərlə, (%-lə)**




* ilkin məlumat

**Mənbə:** Azərbaycan Respublika Dövlət Statistika Komitəsi, Azərbaycan Milli Hesabları - Statistik Məcmuə, Bakı 2019, s. 16. materiallarından istifadə edərək müəllif tərəfindən tərtib edilmişdir.

**Qrafik 2: Məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü, (%-lə)**




**Mənbə:** Azərbaycan Respublika Dövlət Statistika Komitəsi, Əmək bazarı - Statistik Məcmuə, Bakı 2019, s. 25-26. materiallarından istifadə edərək müəllif tərəfindən tərtib edilmişdir.

Yuxarıdakı qrafikdən də göründüyü kimi, bu sistemdə çox böyük uyğunsuzluq mövcuddur. Kənd təsərrüfatında intensiv inkişaf yolunun seçilməsi inkişaf etmiş ölkələrin təcrübəsindən də bilindiyi qədərilə resurslardan maksimum dərəcədə qənaətlə istifadə etməklə maksimum faydanı əldə etməyə yönəldilmişdir. Yəni intensiv kənd təsərrüfatının inkişafı ərzaq təhlükəsizliyinin inkişafı ilə düz mütənasib asılılıqdadır. İntensiv inkişaf xüsusiyyətləri olan aqrar siyasətin reallaşdırılması prosesi sürətləndirilməlidir. Bunun həyata keçirərkən isə sahələrarası və məşğulluq məsələlərin arasında olan tarazlığın qorunması üzrə strategiya hazırlanmalıdır.

İqtisadiyyatımızın dinamik inkişafının təmin olunması, artımı üçün yeni tədbirlərin görülməsi və burada qeyri-neft sektoru payının artırılmasında kənd təsərrüfatı sektorlarının və ASK-nın böyük əhəmiyyəti var. Məhz bu məsələlərin zəminində 2015-ci il Prezident İlham Əliyev tərəfindən Azərbaycanda "Kənd Təsərrüfatı ili" olaraq qeyd edilməsi sözügedən sahənin inkişafına müsbət yöndə təkan vermişdir.

Kənd təsərrüfatının sahələrinin və ASK-nın elmi əsaslarla, qabaqcıl texnologiyalardan istifadə eləməklə, dünya praktikasından yararlanmaqla inkişafı prioritet və strateji hədəflər olaraq qarşıya qoyulmuşdur. Azərbaycanda dənli bitki istehsalının genişləndirilməsinə, xüsusi ilə taxıl istehsalının artmasına ciddi önəm verilir. Ancaq, bu sahədə daha güvənli ərzaq ehtiyatı yaratmaqdan ötrü əlavə olaraq taxıl idxalı prosesi davam etdirilir. Azərbaycanda idxalın əmtəə strukturuna nəzər yetirsək, görərik ki, 2010-2018-ci illər üzrə taxılın idxalda xüsusi çəkisi 4,8%-dən 2,3%-ə qədər düşmüşdür. Ölkənin əlverişli iqlim qurşağında olması kənd təsərrüfatı məhsulunun istehsalının genişləndirilməsinə və çeşidin artırılmasına imkan yaradır. Kənd təsərrüfatından ötrü nəzərdə tutulan subsidiyalar və dotasiyalar ərzaq əlçatanlığını mühüm dərəcədə artırmışdır. Təkcə 2018 və 2019-cu illəri müqayisə etsək görərik ki, kənd təsərrüfatına ayrılan subsidiyaların həcmi 342824 min manatda 379423.2 min manata qədər artırılmışdır. Eləcə də aqrar sahədə subsidiya əldə etmək istəyən fermerlərə vahid mexanizm vasitəsilə subsidiyaların çatdırılma prosesinin başlanılması mənimsənilmə hadisələrinin aradan qaldırılmasında mühüm rol oynamışdır.

**Cədvəl 1: İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiya, milyon manatla**

| **İllər** | **Cəmi** | **o cümlədən** | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | **sənaye** | **kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | **tikinti** | **nəqliyyat və anbar təsərrüfatı** | **informasiya və rabitə** | **digər sahələr** |
| **2014** | 17618,6 | 7639,5 | 363,9 | 2221,7 | 2440,6 | 157,5 | 4795,4 |
| **2015** | 15957,0 | 8499,9 | 355,4 | 2123,5 | 2199,9 | 335,3 | 2443,0 |
| **2016** | 16772,8 | 9949,8 | 325,1 | 2831,8 | 1392,3 | 199,4 | 1074,4 |
| **2017** | 17430,3 | 10610,1 | 617,8 | 2746,0 | 1777,7 | 171,9 | 1506,8 |
| **2018** | 17244,9 | 8497,2 | 764,4 | 3721,4 | 1926,6 | 441,5 | 1893,8 |

**Mənbə:** Azərbaycan Respublika Dövlət Statistika Komitəsi https://azstat.org/statHtml/statHtml.do?orgId=994&tblId=DT_BE_007&vw_cd=MT_ATITLE&list_id=&scrId=&seqNo=&language=az&obj_var_id=&conn_path=I2&path= materialların təhlili nəticəsində müəllif tərəfindən tərtib edilmişdir.

İllər üzrə 2014-cü ildən 2018-ci ilə qədər kənd təsərrüfatı və onunla əlaqəli sahələrə qoyulan investisiyanın ikiqat dəyərdə artım göstərməsinə baxmayaraq bu

sahəyə ayrılan investisiyanın ümumi həcmdə çox aşağı səviyyədə qaldığı görülür. Ancaq kənd təsərrüfatı və informasiya sahələrində əsas kapitala yönəldilən investisiya həcmlərinin artımında əsas diqqət çəkən meyar bu sahələrin paralel şəkildə ASK-da qovuşmasıdır.

Makroiqtisadi göstəriciləri sabitləşdirməyə yönəldilmiş vergi rejimlərinin və dövlət proqramlarının təkmilləşmə xüsusiyyətləri iqtisadi artım və ərzaq əlçatanlığını stimullaşdırır. Bundan başqa, kənd təsərrüfatı və qida malları üçün nəzərdə tutulmuş xüsusi vergi və gömrük rüsumu qiymətlərin sabitliyində vacib rol oynayırlar. Proteksionist gömrük tədbirləri yerli istehsalçıların kənd təsərrüfatı məhsullarının istehsalını artırmağa və daha çox sərmayələr yatırmağa marağını artırıb. Kənd təsərrüfatı sahələrində sahibkarlıq sahələrinin inkişafına xüsusi önəm verilir, onlardan ötrü geniş potensiala malik struktur şəbəkəsi yaradılıb, yollar çəkilib, müasir su sistemləri istismara verilib. Kənd təsərrüfatı sistemində çalışanların texnika və gübrələrlə təmininə dövlət tərəfindən ciddi dəstəklər göstərilir, istehsal olunmuş məhsulların saxlanılması üçün anbar şəbəkəsi yaradılır və satışının təşkil olunması məqsədilə logistik mərkəzlər qurulur və s.

Ölkəmizdə ərzaq təhlükəsizliyi prosesinin daha düzgün, inkişaf məqsədlərinə və müvafiq normalara uyğun şəkildə tənzimlənməsi üçün Qida Təhlükəsizliyi Agentliyi yaradılmışdır. AR Prezidentinin 13 noyabr 2017-ci il Fərmanı ilə təsdiq olunmuş AR QTA-nın Əsasnaməsində Agentliyin fəaliyyət istiqaməti aşağıdakı kimi qeyd olunmuşdur:

- ərzaq təhlükəsizliyi sahəsində vahid dövlət siyasətinin tərtib olunmasında iştirak etməklə birlikdə, bu siyasətin reallaşdırılmasının təminedicisi rolunda çıxış edir;
- ərzaq təhlükəsizliyi sahəsində dövlət nəzarətini, dövlət tənzimləməsini və əlaqəni həyata keçirir;
- ərzaq təhlükəsizliyi sahəsində normayaratma fəaliyyətini, eləcə də qida məhsullarının təhlükəsizliyinə aid normativ tənzimləməni reallaşdırır;

- ölkədə qida məhsulları üzrə fəaliyyət göstərən subyektlər qida təhlükəsizliyi baxımından qeydiyyata alınır və dövlət reyestri aparılır;

- qida məhsulları, dövlət baytarlıq və fitosanitar nəzarətdə olan yüklərin istehlakçısının hüquqlarının müdafiəsi barəsində qanunvericiliyə riayət olunmasına dövlət nəzarətını həyata keçirir;

- fitosanitar, qida təhlükəsizliyi və baytarlıq üzrə sertifikatlar verir;

- ərzaq təhlükəsizliyi sahəsində inkişafı təmin edir.

Vahid nəzarət orqanı olan QTA-nın yaradılması ölkə ərazisində qida təhlükəsizliyinə nəzarətin təkmilləşdirilməsini təmin edəcək, bu sferada şəffaflığı artıracaq, pərakəndəlik və təkrarlanmaları aradan qaldırmaqda köməklik göstərəcək, eləcə də “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”-də qeyd olunan tədbirlərin uğurlu şəkildə həyata keçirilməsini təmin edəcək.

Birləşmiş Millətlər Təşkilatının Qida və Kənd Təsərrüfatı Təşkilatı (QKTT) və Azərbaycan hökuməti arasında 20 ildə kənd təsərrüfatı sahələrinin inkişafının genişləndirilməsi üzrə effektiv əməkdaşlıq sürətlə inkişaf etmişdir. Bu təşkilat Azərbaycana kənd təsərrüfatı sahələrinin inkişafı üzrə bir çox məsələlərdəməhsuldarlığın artırılması və aqrar islahatların həyata keçirilməsi şəklindəki problemlərin həllində çox yaxından dəstək verməkdədir. 2015-ci il may ayında BMT Baş Katibinin ölkəmizə səfəri zamanı, QKTT və hökuməti arasında imzalanan QKTT-Azərbaycan Əməkdaşlıq proqramına əsasən, kənd təsərrüfatının kooperativ inkişafına dəstək məqsədi ilə 10 milyon dollar həcmində vəsait ayrılmışdır. Bu proqramın reallaşdırılmasının nəticəsində Azərbaycanın kənd təsərrüfatının modernizasiyası gücləndiriləcək, yuxarı məhsuldarlıqla fərqlənən kənd təsərrüfatı sferalarının fəaliyyəti genişlənəcək və yaxın zamanda ölkəmizin regionun ən öndə kənd təsərrüfatı məhsulu istehsalçısı kimi güclənməsinə imkan verəcək. QKTT 2016-2020-ci illər ərzində Ölkə üzrə Proqramlaşdırma Sazişi çərçivəsində Azərbaycanın ərzaq sənayesi və kənd təsərrüfatının inkişafı üçün 6 böməyə diqqət yetirilməsini prioritet olaraq müəyyən etmişdir:

- Heyvanlar - mal-qara sağlamlığı və bitkilərin mühafizəsinin gücləndirilməsi, eləcə də insan sağlamlığı üçün təhlükəli halların qarşısının alınması, heyvanların və bitkilərin fərqli təhlükəli xəstəliklərdən qorunma tədbirlərinin səmərəliliyinin artırılması;
- Kənd təsərrüfatı bölmələrinin inkişafına və istehsal edilən mühüm ərzaq məhsulları çeşidinin, həcminin yüksəldilməsinə investisiya qoyuluşlarının artırılması, ərzaq təhlükəsizliyi meyarlarının qorunması, ərzaq məhsulunun əsasən istehsal olunduğu kənd rayonlarında sosial-iqtisadi inkişafın həlli yönündə tədbirlərin gücləndirilməsi;
- İnsan kapitalının inkişafının təmin olunması, o cümlədən, aqrar elminin inkişaf dərəcəsinin yüksəldilməsi, aqrar sektor üzrə təhsil-tədrisin gücləndirilməsi, aqrar problemlərə görə elmi-tədqiqat işlərinin genişləndirilməsi, müxtəlif sahələrdə elmi fəallıq səviyyəsinin artırılması;
- Kənd təsərrüfatına ayrılan ərazilərin və regionların iqtisadi inkişafın balanslaşdırılması yönündə dövlət iqtisadi siyasətinin gücləndirilməsi, yeni iqtisadi inkişaf proqramlarının hazırlanaraq icrasına başlanılması;
- Yüksəksəviyyəli məhsuldarlığa malik dənli bitki növlərinin yetişdirilməsi, yerli şəraitə uyğunlaşdırılma tədbirlərinin genişləndirilməsi, balıqçılıq məhsulları və heyvandarlıq məhsullarının güclü istehsal şəbəkəsinin formalaşdırılması;
- Ölkədə olan meşə, torpaq və su ehtiyatlarından cəmiyyətin və milli iqtisadiyyatın balanslı, dayanıqlı, eləcə də milli iqtisadi maraqların qorunması ilə istifadə edilməsinin effektivliyinin təmin olunması.

Prinsip etibarı ilə innovasiyalı sahibkarlıq fəaliyyətinin başlıca məqsədi kənd təsərüfatı sahəsinin istehsal və emal bölmələrində dövriyyəyə daha az maddi və maliyyə resursları, əmək cəlb etməklə həm keyfiyyətli məhsul istehsalında yeni bir səviyyəyə keçmək, həm də yüksək gəlirliliyə nail olmaqdır. Bundan başqa innovativ təsərrüfatçılıq sistemi ekoloji tələblərə cavab verdiyindən istehsal faktorlarının istifadəsində bir növ fasiləsizlik yaranır, lakin tətbiq ediləcək innovasiya nəticəsi istehsalçılar üçün əlverişli, təbiət üçün təhlükəlidirsə, o zaman bu fəaliyyət

beynəlxalq tələblərə cavab vermədiiyindən dərhal yekunlaşdırılmalıdır. Bunu adi bir misal ilə izah eləsək belə demək mümkündür ki, yeni bir preparatın sınaqdan keçirildiyi zaman təsir dairəsi geniş olarsa və ərazidəki bioloji varlıqların məhv edilməsinə səbəbiyyət verirsə, bu innovasiya yox, zərərdir. Müasir vəziyyəti nəzərə almaqla demək mümkündür ki, innovasiya prosesinin sürətlənməsi bu sahədə olan özəl müəssisələrlə birbaşa əlaqəlidir. Bunun əsas səbəbi də yenilikçi ideyalardır. Sahibkarlığın kökündə şəxsi maraqlar dayandığına görə istənilən sferanın inkişaf göstəriciləri yüksəlməyə istiqamətlənmişdir. Dünya təcrübəsindən də göründüyü qədərilə, inkişaf etmiş ölkələrdə aqrar sferanın aparıcı qurumları özəl müəssisələrdir və hökumət bu yöndə innovasiya tədbirlərinin reallaşdırılmasında dəstəkləyici mövqedə çıxış etməkdədir, daxili və xarici sərmayələrin bu sahəyə cəlb olunmasının artırılması üçün böyük təşəbbüslər göstərir. Məhz bu ölkələrin nəinki aqrar sfera üzrə, eləcə də digər sferalar üzrə reallaşdırdığı məqsədyönlü strategiya innovativ və yenilikçi ideyaların təkmilləşdirilməsi ideyaları üzərində qurulur. Bu sferanı dirçəltmək üçün hökumət öz idarəçiliyi altındakı müəssisələri müəyyən bir müddət ərzində yerli sahibkarlıq subyektlərinə özəlləşdirmə üçün vermək yaxud uğurlu nəticə əldə edən ölkələrin nümayəndələrinin məsləhətlərindən istifadə etməsi zəruri haldır.

Aparılan araşdırmalar, iqtisadi islahatlar və inkişaf prioritetlərinin xüsusiyyətləri, kənd təsərrüfatı sektorlarının inkişaf etdirilməsi üzrə dünya praktikası, dünyada mövcud ərzaq problemlərinin xüsusiyyəti, bu istiqamətdəki qlobal problem, tendensiya və çağırışlar ölkənin ərzaq təhlükəsizliyi səviyyəsinin gücləndirilməsi və əhalinin ərzaq məhsuluna fiziki əlçatanlığının təmin olunmasında dövlətin iqtisadi siyasətinin təkmilləşdirilməsi, obyektiv reallıqdan çıxış etməklə daha effektiv mexanizmlərin hazırlanmaqla tətbiq olunması müasir dövrdə mühüm şərtlər olaraq diqqət çəkir. Bu qeyd olunanlar nəzərə alınmaqla, dövlət tərəfindən ərzaq təhlükəsizliyinin təmin olunması və ərzaq əlçatanlığı ilə əlaqədar ardıcıl tədbirlərin həyata keçirilməsi yönündə davamlı işlər və siyasətin aparıldığı zaman iqtisadi inkişaf proseslərinin, eləcə də kənd təsərrüfatı sahələrinin inkişafının

sürətləndirilməsi mümkün olacaq, ərzaq təhlükəsizliyinin gücləndirilməsinə layiqli töhfə vermək üçün əlverişli mühit yaranacaqdır.

“Aqrar sahədə idarəetmənin inkişafı ilə bağlı əlavə tədbirlər haqda” AR Prezidentinin 14 yanvar 2019-cu il tarixli 467 saylı Fərmanı ilə aqrar sferada göstərilən dövlət xidmətlərinin optimallaşdrılması və effektivliyinin artırılması, bu dövlət xidmətlərinin daha səmərəli formada həyata keçirilməsi, dövlət resurslarına qənaət edilməklə bu sferada inzibati idarəçiliyin təkmilləşdirilməsi, xidmətlərin reallaşdırılmasında keyfiyyətə nəzarətin təşkil edilməsi, şəffaflığın artırılması, innovativ həllərin tətbiq edilməsi, elektron xidmətlərə keçid prosesinin sürətləndirilməsi və vətəndaşların məmnunluğunun artırılması məqsədilə ARKTN yanında olan Dövlət Fitosanitar Xidməti, Bitki Sortları Qeydiyyatı və Toxuma Nəzarət üzrə Dövlət Xidməti və Baş Dövlət Texnikı Nəzarət Xidməti, Baytarlıq Xidməti əsasında ARKTN yanında Aqrar Xidmətlər Agentliyi formalaşdırılmışdır. Azərbaycan Respublikası Prezidentinin 21 may 2019-cu il tarixli 701 saylı Fərmanı ilə “ARKTN yanında Aqrar Xidmətlər Agentliyi haqda Əsasnamə” təsdiq edilmişdir. “ARKTN tabeliyində olan Tərəvəzçilik Elmi Tədqiqat İnstitutunun fəaliyyətinin təkmilləşdirilməsi haqda” AR Prezidentinin 20 iyun 2019-cu il tarixindəki Fərmanı ilə KTN-in tabeliyində olan elmi-tədqiqat institutlarının fəaliyyətlərinin gücləndirilməsi, ölkə üzrə tərəvəzçilikdə tədqiqat ehtiyaclarının müəyyənləşdirilməsi, elmi araşdırmaların həyata keçirilməsi, araşdırma nəticələrinin tətbiqi və bu sferada digər xidmətlərin göstərilməsi ilə əlaqədar fəaliyyəti həyata keçirən infrastrukturun formalaşdırılması üçün qanuni baza yaratmaq məqsədi ilə Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu publık hüquqi şəxsə çevrilib. AR Prezidentinin 14 dekabr 2018-ci il tarixli 400 saylı Fərmanı ilə “Ərzaq məhsulunun tədarükü və təchizatı” ASC ləğv edilmişdir və Nazirliyin tabeliyində səhm payı dövlətə məxsus “Aqrar tədarük və təchizat” ASC yaradılmışdır. Qurumun fəaliyyətinin təmini məqsədi ilə “Aqrar tədarük və təchizat” ASC-nin Nizamnaməsinin təsdiq olunması barədə” AR Nazirlər Kabinetinin 4 iyul 2019-cu il tarixli Qərarı qəbul edilmişdir. İdarəçilik sistemində çeviklik və effektivliyin

artırılması məqsədi ilə KTN-in rayon bölmələri inzibati quruluşdan xidmət təşkilatları olan Aqrar İnkişaf Mərkəzlərinə (AİM) çevrilmişdir. AİM-lərdə "vahid pəncərə” prinsiplərinə uyğun fermerlərə 70-ə qədər xidmət göstərilməkdədir. Fermerlərin qayğıları və problemlərini daha yaxından dinləməkdən ötrü bütün rayonlar və Nazirlik aparatında Fermer Şurası, Aqrar Könüllülər Hərəkatı yaradılmış, aqrar sahədə 11 assosiasiya tərtib olunmuşdur. Kənd təsərrüfatı sahəsində işləyən fermerlərin təbii fəlakətlər və ya başqa səbəblərdən yaranan itkilərinin qarşısının alınması, gəlirlərin qorunması üçün aqrar siğorta mexanizminin təkmilləşdirilməsinə qərar verilmişdir və 27 iyun 2019-cu ildə “Aqrar siğorta haqqında” AR Qanununu qəbul edilmiş və aqrar siğorta sisteminin mərkəz institutu “Aqrar Siğorta Fondu” yaradılmışdır. 2020-ci il yanvar ayının 1-dən qüvvəyə minən yeni aqrar siğorta mexanizminin formalaşdırılması, ölkə ərazisində aqrar siğorta üzrə müqavilələrin bağalanmasının təmin olunması üçün hüquqi baza yaradılmışdır. Nazirlər Kabinetinin qərarları ilə “Aqrar siğorta üzrə təminat verilmiş risklərin tərkibi”, “Aqrar siğorta predmetinin tərkibi”, “Aqrar Siğorta Fondunun Nizamnaməsi”, “Siğorta haqqının dövlət büdcəsi vəsaitləri hesabına ödənilməli olan hissəsinin təmini üçün aqrar siğorta orqanının müraciətinə əlavə olunacaq sənədlərin siyahısı”, “Aqrar siğorta haqqının hər bir siğorta məhsulu üzrə dövlət büdcəsi vəsaiti hesabına ödənilməli olan hissə” təsdiq olunmuşdur. Beləliklə aqrar siğorta sisteminin tətbiq edilməsinin ilk mərhələsində ölkənin ərzaq təhlükəsizliyi, ixrac həcminin artırılması, eləcə də təsərrüfat təyinatı yönündən vacib əhəmiyyətə malik bir sıra amillər aqrar siğorta təminatına daxil olunmuş, siğorta risklərinin dairəsi konkretləşdirilmiş, aqrar siğorta sisteminin təşkili, inkişafı və dayanıqlılığını təmin eləmək məqsədi ilə yaradılan Aqrar Siğorta Fondunun fəaliyyətinin təmini üçün əsasnaməsi təsdiq olunmuşdur.

Təsərrüfatların intensiv istehsala keçməsi və iri təsərrüfat subyektlərinin yaradılmasının stimullaşdırılması məqsədi ilə istifadəsindəki 50 hektardan çox ərazidə aparılmış əkinə yaxud çoxillik əkinlərə görə rəsmi qeydiyyata düşmüş kənd təsərrüfatı koperativlərinə əkin subsidiyalarının 10 faiz artıq verilməsi nəzərdə

tutulmaqdadır. Kənd təsərrüfatı koperativlərinə verilən subsidiyalar əkin subsidiyaları ilə əlaqələndirilmişdir ki, o da subsidiyaların verilməsində eyniləşdirməyə, ölçüdən qənaətə və sonda, inzibati xərclərin azaldılmasına nail olmağa şərait yaradacaqdır. Yeni qaydalara əsasən bitkiçilik məhsulunun miqdarına görə subsidiyaların verilməsi davam etdiriləcək. Məhsulun miqdarına əsasən verilən subsidiyaların məbləği məhsuldarlığın artımıyla birbaşa əlaqəli olduğundan bu subsidiyalar istehsalın stimullaşdırılmasına əsaslı şəkildə təsir edir.

Yeni qaydalara əsasən subsidiyanın verilməsinin vahid təşkilati quruluşu formalaşdırılır. Belə quruluşun formalaşdırılması hazırkı dövrdə subsidiyanın verilməsinin təşkil edilməsində mövcud olan pərakəndəliliyi aradan qaldırmağa, bu prosesin peşəkar şəkildə tənzimlənməsinə şərait yaradacaqdır. Yeni qaydalarda Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin (EKTİS) aşağı sistemi kimi Subsidiya İnformasiya Sistemi (SİS) ilə subsidiyaların verilməsinin təşkil ediləmsi nəzərdə tutulur. SİS subsidiyanın verilməsinin təşkil olunması və monitorinqində yenilikçi və innovativ metodların tətbiq edilməsinə şərait yaradır. Bu cəhətdən, subsidiyanın alınması üçün istehsalçı tərəfindən elektron bəyannamənin verilməsi, SİS-də çarpaz monitorinqlərin aparılması, yerində yoxlamaların təşkil olunması və məsafədən zondlamanın tətbiqi subsidiya prosesində şəffaflıq və dəqiqliyin artırılmasına imkan verəcəkdir. Eləcə də SİS-dən istifadə etmək subsidiyanın verilməsi ilə əlaqədar sənədləşmə işinin, istifadə olunan kağız sərfiyyatının azalmasına, ödəniş üçün tələb edilən müddətin qısalmasına imkan yaradacaqdır.

Ölkənin iqlimi və relyefi, su və torpaq ehtiyatları nəzərə alınmaqla yüksəksəviyyəli məhsuldarlığa malik və fərqli konkret ərazilərin şəraitinə uyğun bitki sortlarının seçimi, hazırlanması, işlənməsi, toxum fondunun formalaşdırılması və istehsalının təşkil olunması tədbirləri kompleks və sistematik şəkildə həyata keçirilməlidir. ASK-ya daxil olan firmalar şəbəkəsinin müasir texnologiyalarla təmin edilməsi və rəqabətqabiliyyətli aqrar-sənaye müəssisələrinin formalaşdırılması prosesi sürətləndirilməlidir. Aqroparkların və başqa yüksək potensiallı aqrar komplekslərin, aqrar klasterin yaradılması hesabına bu sferanın sənaye potensialının

gücləndirilməsi təmin edilməlidir. Kənd təsərrüfatı müəssisələri, fermer təsərrüfatlarında xərcin optimallaşdırılması, xüsusilə enerjiyə xərclərin azaldılması məqsədi ilə daha ucuz enerji resurslarına çıxışın asan olması üçün alternativ enerji mənbələrindən istifadə olunmanıın təşkilinə ciddi önəm verilməlidir və bu tip enerji təchizat müəssisələrinin iri kənd təsərrüfatı müəssisələrinin yaxınlığında yaradılması prioritetliyinə baxılmalı və bu yöndə konkret tədbirlərin görülməsi prosesi intensivləşdirilməlidir. Eləcə də, aqrar sahədə olan digər bir problem isə məşğulluğun artırılması məsələsidir. Bu məqsədlə, "Aqrar Məşğulluğun Artırılması Layihəsi"-nə dövlət tərəfindən diqqət artırılmalı və layihənin cəlbediciliyi artırılmalıdır.

## 2.2. İnklüziv və dayanıqlı sənayeləşdirmənin inkişafında sənaye müəssisələrinin rolu və cari durumu

Ölkəmizdə təməli Ümummilli Heydər Əliyev tərəfindən qoyulan yeni inkişaf mərhələsində sənaye təşkilinin ən müasir formalarının tətbiqi prosesi sənayeləşmə siyasətinin prioritetlərindən hesab edilir. Məhz bu məqsədlə ölkəmizdə yenitipli sənaye müəssisələrinin, sənaye parklarının, elmi-tədqiqat mərkəzlərinin yaradılması müasir texnologiyalara əsaslanan iqtisadi sistemin inkişafını sürətləndirəcək, investorların sərmayə yatırımı prosesini stimullaşdıracaq, habelə rəqabətqabiliyyətli məhsul istehsalının formalaşmasına şərait yaradacaq və iqtisadiyyatın modernləşməsinə və innovativ iqtisadi sistemin formalaşmasına, qeyri-neft ixracı prosesinin artmasına müsbət yöndə təsir göstərəcəkdir.

Müstəqillik illərində bazar iqtisadiyyatı üçün səciyyəvi olan qanunvericilik bazasının formalaşdırılması istiqamətində islahatlar davam etdirilmişdir, dövlətin iqtisadi subyektlərin fəaliyyətinə müdaxiləsi minimuma endirilmişdir, özəl sektorun fəaliyyət göstərməsi üçün əlverişli şərait yaradılmışdır. Məhz bu səbəbdən də özünəməxsus milli iqtisadi inkişaf modeli olan ölkəmiz bir sıra mühüm uğurlara imza atmaqla nəinki regionda, hətta beynəlxalq aləmdə də söz sahibi ölkə vəziyyətinə gəlib çatmışdır.

Texnologiya və innovasiyalar olmadan sənayeləşmə baş verə bilməz, sənayeləşmə olmadan da inkişaf ola bilməz. Bu baxımdan, sənaye infrastrukturuna investisiya qoyuluşları dayanıqlı inkişafa nail olmaq üçün vacib şərtdir. Belə ki, yeni gəlir mənbələrinin əsas mənbəyi kimi inklüziv və dayanıqlı sənayeni inkişaf etdirməklə texnoloji irəliləyişə nail olaraq insanların həyat səviyyəsinin yaxşılaşdırılması mümkündür.

Dayanıqlı İnkişaf Məqsədləri milli inkişaf xüsusiyyətlərinə uyğun olaraq inklüziv və dayanıqlı sənayeləşməni, resurslardan səmərəli istifadəni təşviq etməklə, məşğulluqda və ümumi daxili məhsul istehsalında sənayenin payının xeyli yüksəldilməsini, ekoloji təmiz texnologiyaların daha geniş şəkildə tətbiq edilməsini, iqtisadi inkişafa və insan rifahına dəstək göstərmək məqsədilə dayanıqlı sənaye infrastrukturunun formalaşdırılmasını nəzərdə tutur. Bu da, öz növbəsində, sənaye sahəsində elmi tədqiqatların genişləndirilməsini, tədqiqatçıların sayının, habelə tələb olunan məsrəflərin və texniki imkanların əhəmiyyətli şəkildə artırılmasını, innovasiyaların stimullaşdırılmasını və möhkəm infrastrukturun yaradılmasını ön plana çəkir. Qeyd olunanlarla əlaqədar, texnologiyaların inkişafına, sənayenin inkişafı sahəsində tədqiqatlara və innovasiyalara dəstək artırılmalı, sənayenin şaxələndirilməsi üçün əlverişli siyasi mühit, sənaye müəssisələrinin müasir texnologiyalardan geniş istifadəsi, onların maliyyə xidmətlərinə çıxış imkanları, habelə bazarlara inteqrasiyası təmin edilməlidir.

2010-cu illərdə "Minilliyin İnkişaf Məqsədləri" başlığı ilə həyata keçirilən tədqiqatların hamısının yoxsul təbəqəyə yönəldildiyi bir vaxtda, yoxsul təbəqəyə yönəldilə bilinməyən bir konsensus, inteqrasiya olunmuş bir təhlilə ehtiyac duyaraq "inklüziv inkişaf" yanaşmasını irəli sürdü. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) görə inklüziv artım; əhalinin bütün təbəqələrinə rifah halının artırılması üçün fürsət yaradan böyümədir, lakin bütün pul və qeyri-pul rifah komponentlərini ədalətlə cəmiyyətə paylayır (OECD, 2018). Birləşmiş Millətlər Təşkilatının tərifinə uyğun inklüziv artım; Cəmiyyətin bütün təbəqələrinin həm prosesə töhfə verəcək imkanlara, həm də yaradılan faydanın bölüşdürülməsinə

zəmanət verən böyümə növüdür. Mənfi yaşayış şəraiti, əksər hallarda yoxsulların mənbələrə çıxışlarını məhdudlaşdırır. Bu səbəbdən böyüməni inklüziv etmək üçün yoxsulların faydalanmaq və yaratdığı üstünlüklərdən yararlanmaq imkanlarını aradan qaldıran əlverişsizliklər ən azı yumşaldılmalıdır (UNDP, 2018).

Rauniyar və Kanbur kasıb və inklüziv böyüməni kəskin şəkildə ayırarkən "yoxsulluğun böyümə elastikliyindən" faydalandılar. Bunu edərkən, vahid gəlir artımının vahid yoxsulluğa görə dəyişməsini hesabladılar və bu dəyəri "böyümənin daxil edilməsi dərəcəsi" olaraq istifadə etdilər. Əgər böyümə bütün gəlir paylanmasını yaxşılaşdırarsa, bu həm daxil, həm də yoxsul təbəqədir. Digər tərəfdən, artım gəlir bölgüsünün pisləşməsi ilə müşayiət olunursa, bu artımın daxil deyil, yoxsul təbəqə olduğunu iddia edirlər, çünki böyümə təsiri gəlirlərin pisləşməsinə hakim olmaqla yoxsulluğu azaldacaqdır. Buna görə, həm böyümə, həm də inkişaf yanaşmalarında daxil olan şeyin də yoxsul təbəqə olması, lakin yoxsul tərəfli proseslərin də daxil olmadığı tezisinə çatırlar (Rauniyar G, Kanbur R, 2010).

Makkinley yaratdığı indeksləri mürəkkəb konteyner artım indeksi adlandırdı. Makkinleyin bu indeksin qurulması üçün istifadə etdiyi dəyişənlər dörd alt qrupda belədir; artım, məhsuldar məşğulluq və iqtisadi infrastruktur göstəriciləri; gəlir və gender bərabərliyi göstəriciləri; insan kapitalı və sosial təminat göstəriciləri. Mckinley deyir ki, bu indeks inklüziv böyümənin iki aspektini vurğulayır. Diqqəti cəlb edən inklüziv böyümənin ilk xüsusiyyəti; davamlı iqtisadi inkişafla yeni iqtisadi imkanlar yaratmaq və mövcud imkanları yaxşılaşdırmaq (McKinley T., 2010).

Hal-hazırda yoxsullarla zənginlərin arasındakı yüksək fərq hər yerdə yaranır. Məsələn, İƏİT ölkələrində 30 ilində bu göstəricilər ən yüksəkdir. Dünya Bankının araşdırmasına əsasən, gəlirlərin bir faiz artımı aşağı bərabərsizliyə malik ölkələrdə yoxsulluğun 4,3% azaldılmasına, yüksək qeyri-bərabərliyə malik olan ölkələrdə isə yalnız 0,6% azadılmasına səbəb olur.

Ölkəmizdə sənayeləşmə strategiyasının həyata keçirilməsi və bu məqsədlərin mümkün tənzimlənməsi ilə bağlı ictimai məsləhətləşmələr aparılır. Qeyd etmək vacibdir ki, bu hədəflərə əsasən meyarlar hazırlanmışdır.

Bu strategiyanın fərqli bir xüsusiyyəti strateji məqsədlərin həyata keçirilməsinin iki mərhələyə bölünməsidir:

2016-2020-ci illər. Burada təməl məqsəd iqtisadiyyatın quruluş və institusional transformasiyalar əsasında, balanslaşdırılan inkişafa keçid, yaşıl iqtisadi sistemin prinsiplərini, yüksək texnalogiyalı sənaye bölmələrinin prioritetlərini nəzərə alaraq, ölkənin rəqabətqabiliyyətliliyini və əhalinin sosial rifahını artırmaq olacaq.

2021-2030-cu illər. Əsas məqsəd insan kapitalının inkişafının yüksək keyfiyyətinə və mənəvi dəyərlərin artmasına nail olmağa, elmi-tədqiqat müəssisələrinin və xidmət sahələrinin sürətlə inkişafının təmin edilməsinə, sabit inkişafın təmin olunmasina yönəldilmişdir.

Yuxarıdakı mərhələlərdən də gördüyümüz kimi, bizim əsas diqqət yetirməli olduğumuz sahə yüksək texnologiyalar üzrə ixtisaslaşan sənaye müəssisələri və birbaşa yaxud dolayı yolla həmin müəssisələrin əlaqədə olduğu yüksək texnologiyalar parkları, sənaye məhəllələridir.

Yerli müəssisələr və iqtisadiyyatın rəqabətə davamlılığının təkmilləşdirilməsi məqsədi ilə Azərbaycanın istehsal və innovasiya texnologiyasının tətbiqində başqa aparıcı ölkələrdən geridə qalmasını minimuma endirmək əsas məqsədlərdən biri olaraq qarşıya qoyulmuşdur. Bunun da nəticəsində innovasiya fəaliyyətinin inkişafının stimullaşdırılmasına yönəldilən müxtəlif tədbirlər həyata keçirilməkdədir.

Azərbaycan sənayesində texnoloji innovasiyaya çəkilən xərclər 2018-ci il üçün 34353 min manat olmuşdur ki, bunun da 23298 min manatı məhsul innovasiyalarına, 11054 min manatı da proses innovasiyalarına ayrılmışdır. Bunu aşağıdakı cədvəldən də görə bilərik.

**Cədvəl 2: İnnovasiyaların tiplərinə görə sənayedə texnoloji innovasiyalara çəkilən xərclər, min manat**

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| **Bütün sənaye** | 21534,1 | 35179,1 | 27929,0 | 16135,7 | 34353,6 |
| məhsul innovasiyaları | 13510,4 | 13685,2 | 20313,8 | 10439,6 | 23298,7 |
| proses innovasiyaları | 8023,7 | 21493,9 | 7615,2 | 5696,1 | 11054,9 |
| **Mədənçıxarma sənayesi** | 4133,5 | 2671,5 | 179,6 | 31,7 | 1386,0 |
| **Emal sənayesi** | 17383,6 | 32492,5 | 27744,4 | 16104,0 | 32967,6 |

**Mənbə:** Azərbaycan Respublika Dövlət Statistika Komitəsi, Azərbaycanın sənayesi - Statistik Məcmuə, Bakı 2019, s. 54-55 materiallarından istifadə edərək müəllif tərəfindən tərtib edilmişdir.

Ölkəmizdə innovativ və yüksək texnologiyaların əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı istiqamətində münbit şərait yaratmaq, bu sferada sahibkarlığa dəstək vermək, qeyri-neft sektorunun dayanıqlı inkişafını təmin eləmək və əhalinin emal sənayesində məşğulluğunu artırmaq məqsədi ilə olkəmizdə sənaye və yüksək texnologiyalar parkları yaradılır.

**Cədvəl 3: Sənaye istehsalının sahə strukturu, ümumi yekuna nisbətən, müvafiq illərin faktiki qiymətləri əsasında, faizlə**

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| **Bütün sənaye** | 100 | 100 | 100 | 100 | 100 |
| **Mədənçıxarma sənayesi** | 68,5 | 62,1 | 65,6 | 70,3 | 73,3 |
| **Emal sənayesi*)** | 25,1 | 29,9 | 27,6 | 24,4 | 21,9 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | 5,7 | 7,1 | 6 | 4,6 | 4,1 |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | 0,7 | 0,9 | 0,8 | 0,7 | 0,7 |

*) emal sənayesinə daxil olan iqtisadi fəaliyyət növləri üzrə məlumatlar ev təsərrüfatlarında sənaye məhsulu istehsalı nəzərə alınmaqla dəqiqləşdirilmişdir.

**Mənbə:** Azərbaycan Respublika Dövlət Statistika Komitəsi, Azərbaycan sənayesi - Statistik Məcmuə, Bakı 2019, s. 30-31 materiallarından istifadə edərək müəllif tərəfindən tərtib edilmişdir.

Ölkəmizdə sənayenin iqtisadiyyatdakı xüsusi çəkisi dünyadakı orta göstəricini - 30,5% - təxminən iki dəfəyə qədər üstələməkdədir (Qasımlı: 2014, s.63). Sənayenin quruluşuna nəzər salanda belə bir mənzərəylə qarşılaşırıq: mədənçıxarma

sənayesinin payı 2014-cü ildə 68,5 % təşkil etib. Hazırki vəziyyətdə isə durum biraz da gərginləşmiş və bu göstərici 73,3 %-ə qədər artım göstərmişdir. Dəmir filizlərinin hasilatı 0,2%, qum, daş, duz, çınqıl və digər məhsulların hasilatı 0,2 %, eləcə də mədənçıxarma sənayesinə xidmətlərin göstərilməsi 3% paya sahibdir. Emal sənayesi 2018-ci ildə sənayenin quruluşunda 21,9 %, qaz, buxar və elektrik enerjisi istehsalı, bölümü və təchizi 4,1 %, su təchizi, tullantıların təmizlənməsi və təkraremalı isə 0,7 % paya malik olub. Burada isə emal sənayesində son illərdə ümumi pay hesabında azalmanın olduğu müşahidə edilir.

Milli iqtisadiyyatda sənayenin payı 2018-ci ildə ümumi mənfəətdə 51,8% olmuşdur. Neft-qaz hasilatı sənayedə əsas yeri tutsa da, ölkəmizdə əczaçılıq, kimya, rezin və plasmas məmulatları, tikinti materialları, neft məhsulları, hazır metal məmulatları, metallurgiya, kompyuter və digər avadanlıqlar, maşın, elektrik avadanlıqları istehsalı, elektrik enerjisi, buxar istehsalı, bölümü və təchizi, su təchizi, tullantılardan istifadə və emalı, eləcə də kosmik sənaye kimi sferaların inkişaf potensialı var.

Ölkəmizdə sənaye sahəsinin inkişaf prosesi əsasən XX əsrin 70-ci illərinə təsadüf etmişdir. Azərbaycan müstəqillik əldə eəndən sonra yeni iqtisadi quruluşa keçid dövrü ilə əlaqəli bütün sahələrdə olduğu kimi sənayedə də çox çətin vəziyyət yaranmışdır, müəssisələr fəaliyyətlərini dayandırmaq məcburiyyətində qalmışlar. Ölkənin sonrakı inkişaf sürətinə uyğun olaraq 21-ci yüzilliyin iqtisadi sistemi - informasiya iqtisadi sisteminə keçidlə əlaqədar məqsədyönlü tədbirlər həyata keçirilmiş, elmi yeniliklərin sənaye sahələrinə tətbiqi, istehsalda son texnoloji yeniliklərin imkanlarından istifadə və müasir standartlara uyğunlaşan məhsulların istehsal edilməsi kimi problemlərin həllinə səy göstərilmişdir. Bu məsələlərin həlli üçün əsas göstərici və vasitələrdən olan sənaye məhəllələrinin, aqroparkların yaradılmasına və inkişaf etməsinə xüsusi fikir verilən bu sahədə lazımi işlər görülmüşdür.

Azərbaycanda elmtutumlu texnologiya və məhsulların işlənilməsi və tətbiq olunması üçün texnopark və innovasiya zonaları yaradılmışdır.

Qonşu ölkəmiz olan Türkiyədə 2023-cü il hədəfləri çərçivəsində, eləcə də texnoloji inkişafı dəstəkləmək üçün bir sıra uğurlu layihələrə imza atılmışdır. Bu cür layihələrə dəstək vermək və bir mərkəzdən idarənin mümkün olması üçün isə TÜBİTAK qurulmuşdur. Bizdə mövcud olan "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasına görə ölkədə elmi tədqiqatların və texnika və texnoloji məmulatların inkişafı üçün lazımi addımlar atılır. Bu məqsədlə sənaye texnoparkları, sənaye parkları, məhəllə və klasterləri kimi qurumların inkişaf etməsinə xüsusi fikir verilir. Yəni, Azərbaycanda qurulan və fəaliyyət göstərmiş sənaye parklarında sahibkarlara aşağıda göstərilən güzəştlər təklif olunmuşdur:

1) 7 il müddət mənfəət vergisindən azad olunma;

2) Əmlak və Torpaq vergilərindən azad olunma;

3) ƏDV-dən azad olunma;

4) sahibkarlıq xidmətləri;

5) İstedad və elmi dairələrə çıxma imkanı.

Həmçinin bu zamanlarda "Gömrük tarifi haqqında" qanununa edilmiş dəyişikliyə görə, müvafiq icra hakimiyyət orqanının müəyyənləşdirdiyi qaydada investisiya təşviqləri sənədini alan hüquqi şəxs və fərdi sahibkarlar tərəfindən icra hakimiyyət orqanlarının təsdiqedici sənədi ilə texnikanın, texniki avadanlıq və qurğuların idxalı investisiya təşviq sənədinin alındığı tarixdən yeddi il müddətinə gömrük rüsumundan azad edilmişdir.

Göründüyü qədərilə Azərbaycanda texnoparklar və bu qəbildən olan strukturun inkişafı üçün lazımi qanunvericilik bazası hazırlanıb və müvafiq addımlar atılmağa başlanmışdır. Ölkəmizdə Türkiyənin bu sahədə praktikasından yararlanmaq istiqamətində də tədbirlərin görülməsi çox sevindirici haldır. Yəni, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (EİF) ilə TÜBİTAK arasında elm və texnoloji sahədə əməkdaşlıq barəsində beynəlxalq sazişin imzalanması bu yöndə yaxın gələcəkdə uğurlu planların həyata keçiriləcəyinin göstəricisidir. Türk dünyasının başqa ölkələrinin də bu cür layihələrdə iştirakı çox effektiv nəticələr verə bilər. Türk ölkələri arasında ticari əlaqələrin səmərəli təşkili

məqsədilə Xəzər dənizi üzərindən tranzit dəhlizin formalaşdırılması bu yöndə də uğurlu işlərin aparılmasına qapı aça bilər.

Müasir dünyada iqtisadi tərəqqinin əsas parametrlərindən biri istehsalda müasir innovativ yeniliklərdən və texnologiyalardan istifadədir. Bu, məhsulların keyfiyyətli və ucuz istehsal olunmasına imkan verir. Hazırda dünya bazarlarında məhsul satışlarında güclü rəqabət vardır - kimlər ki bazara daha üstünkeyfiyyətli və sərfəli qiyməti olan məhsul çıxararsa, o da qazanar.

Texnopark bir araşdırma müəssisəsi və ya universitet və ya Araşdırma və İnkişaf mərkəzli (R&D) və innovasıya əsasında formalaşan firmaları nəzdində saxlamış, rəhbər yaxud idarəçi şirkət tərəfindən idarə olunan və qanunvericilikdə nəzərdə tutulan müəyyən dəstək mexanizmlərini özündə birləşdirir.

**Şəkil 3: Ümumi olaraq Texnopark**




**Mənbə:** GOEL, Sachin ve SIVAM, Alpana. "Social Dimensions In The Sustainability Debate. 2015, p.41

Nümunə olaraq qeyd edə bilərik ki, Sumqayıt Texnoparkında fəaliyyət göstərən müəssisələrin çəkisində xüsusi yeri informasiya texnologiya müəssisələri təşkil etməkdədir.

Ölkəmizdə dayanıqlı iqtisadi inkişaf yönündən neftdən asılılığın minimuma endirilməsi və qeyri-neft sferasının inkişafı strateji əhəmiyyətə malikdir. Bunun üçün də real sektora qoyulmuş investisiyaların artırılması və yenitipli müəssisələrin inşa edilməsi labüd məsələdir. Çünki real sektorun inkişaf etməsi ölkə iqtisadiyyatının canlanmasına və ÜDM həcminin artması ilə nəticələnir. Bu da özlüyündə ölkənin xarici komponentlərdən asılılıq problemini aradan qaldırır, ixrac portfelini şaxələrə ayırır, büdcə gəlirləri və məşğulluq səviyyəsini maksimuma çatdırır. Yüksək Sıxlıqlı Polietilen və Polipropilen zavodu da bu məqsədlərlə inşa edilmiş və ölkəmizin prioritet hədəflərinə xidmət edən ən önəmli layihələr hesab edilir. Müasir dövrdə neft-kimya sferası neft sektoru ilə müqayisə olunduqda daha sürətlə təkmilləşir. Sadəcə yüksəksıxlıqlı polietilen məhsullarına olan tələbat 2014-2019-cu illərdə hər il 10% artım göstərmişdir və növbəti 5 il ərzində 5,5% artma ehtimalının olması proqnozlaşdırılır. Bunun da səbəbi neft sektorundan fərqli şəkildə neft-kimya sferasında yüksək dalğalanmaların müşahidə edilməməsidir. Həmçinin xam neft emal olunaraq neft-kimya məhsuluna çevrilərkən onun əlavə dəyəri bir-neçə dəfəyə qədər artım göstərir. Məsəl üçün, 175 kq xam neftdən 100 kq yüksəksıxlıqlı polietilen məhsulun əldə olunması mümkündür. Digər bir sözlə, xam neftdən yüksəksıxlıqlı polietilen məhsulu əldə olunduqda onun xalis dəyər göstəricisi 3 dəfəyə qədər arta bilir. Məhz bu tipli perspektivli və gəlirli bir sektora sərmayə qoymaqla Azərbaycan uzunmüddətli dividendlər qazanmaqla birlikdə davamlı inkişafını təmin etmək yolunda mühüm addım atmış olacaq.

Sumqayıt ərazisində inşa edilən polimer zavodu ölkənin biznes portfelini şaxələndirməklə birlikdə neft gəlirlərindən asılılığı azaldır. Son dövrlərdə neft qiymətlərində azalmanın müşahidə olunması bu layihənin strateji əhəmiyyətini bir daha ortaya çıxarır. Yəni, polietilen məhsulunun əsas xammalı neft olaraq qəbul olunur. Neftin qiymətlərində azalmanın müşahidə olunması zamanı xammal daha ucuz təmin olunur, bu da mənfəətin marjasının artması ilə nəticələnir. Beləliklə, bir baxımdan neft qiymətlərinin düşməsi ilə azalan gəlirləri, yüksəksıxlıqlı polietilen kimi məhsulların hesabına kompensasiya olunur.

2019-cu ilin sonuna qədər polietilen zavodlarında təxminən, 108000 ton polipropilen və yüksəksıxlıqlı polietilen məhsulu istehsal olunub ki, bunun da 81000 tonu Çin, Rusiya və Türkiyə kimi ölkələrə ixrac olunmuşdur. Yüksək sıxlıqlı polietilen yüngül və ağır sənaye sahələrində, eləcə də tekstil, inşaat, kənd təsərrüfatı, səhiyyə, oyuncaq və s. kimi bir çox sferalarda xammal olaraq geniş istifadə oluna bilər. Belə məhsullardan qablar, plastik borular, oyuncaqlar, mətbəx əşyaları, paletlər və s. məhsulların hazırlanması mümkündür. “SOCAR Polymer” zavodundan əvvəl bu məhsulların əksəriyyəti Azərbaycana idxal olunurdu. Amma zavod tam gücü ilə fəaliyyət göstərməyə başladıqdan sonra milli bazarın tələbatı tamamilə ödənilə biləcək. Layihə ölkədə KOS-un inkişafına töhfə verdiyinə görə, multiplikator effekti məşğulluğun səviyyəsinə və ölkə iqtisadiyyatının inkişafına təsiri çox böyük olacaq. İstehsal olunan məhsulların 75%-i xarici bazara ixrac olunacaq, bu da il ərzində təxminən 350 milyon ABŞ dolları gəlir deməkdir. Beləliklə, idxal-ixrac prosesləri nəzərə alındıqda “SOCAR Polymer”-in il ərzində ölkəmizin xarici ticarət saldosuna 480 milyon ABŞ dollarına qədər müsbət təsir göstərəcəyi ehtimal olunur. Proqnozlara görə “SOCAR Polymer” zavodu ölkənin qeyri-neft sferası üzrə ixrac gəlirini 15%, Abşeron İqtisadi rayonu üzrə ÜDM həcmini 14% artırmaq gücündədir.

Regional iqtisadi inkişafda vacib amillərdən biri də yatırılan investisiyadır. Hazırki şəraitdə “SOCAR Polymer” zavodunun Sumqayıt Kimya Sənaye Parkının daxilində qurulması, bəlkə də, son dövrlərdə həyata keçirilən ən inqilabi tədbirlərdən biridir. Bildiyimiz kimi Azərbaycan hazır plastik məhsula olan tələbini idxal hesabına ödəyirdi. Bu isə istənilən neft ölkəsi üçün çox böyük mənfi göstərici hesab olunmalıdır. Belə bir müəssisənin sənaye parkının içərisində qurulması da ayrı bir üstün cəhətdir. Bazar sahəsində artım gözlənilən yerlərin Sumqayıtdan çox ölkənin digər bölgələrində sıxlaşması ticari proseslərin yerlıdən beynəlxalq aləmə daşınmasının bir parametri, texnologiyaların İEÖ-dən inkişafda olan ölkələrə axım prosesini da sürətləndirərək inkişafa müsbət yöndə təsir edir. Ölkəmizdə yerləşən texnoparklarda fəaliyyət göstərən firmalarin 77%-nin Araşdirma-inkişaf etdirmə

fəaliyyətləri nəticəsində investisiya etmə güclərinin olması, investisiya edəcək firmaların 71%-nin investisiya yeri olaraq Sumqayıt texnoparkını göstərmələri Sumqayıt üçün bir inkişaf və regional inkişafa töhfə verəcək bir amil kimi ortaya çıxmmaqdadır. İnvestisiya yeri olaraq Sumqayıtdan kənarı seçən firmalar da yarı nisbətdədir, bu da yerli müəssisələrin istər regional, istərsə də qlobal sistemə daxil olma istəklərinin bir nəticəsi olaraq görülməkdədir.

Texnoparkların daxilində fəaliyyət göstərən firmalarin ticariləşdirdiyi Araşdirma-İnkişaf etdirmə fəaliyyətlərindən meydana gələn gəlir artimina baxdıqda öz layihəsini ticariləşdirmiş müəssisələrin Texnopark daxilində illik dövriyyəsi öyrənilmiş, 250 min manatdan az olan 35%, 250-500 min manat arasında 14,7% olmuşdur. Bu hal Texnoparkın yeni qurulmuş şirkətlərdən formalaşdığını göstərməkdədir. Firmaların Texnopark üzrə xarici illik dövriyyəsi öyrənilmiş, burada aydın olmuşdur ki, xarici dövriyyəsi 2 milyon manatdan çox olan müəssisələrin sayı hər il artmaqdadır. Bu vəziyyət texnoparkın yeni qurulmuş şirkətlərdən meydana gəlsə də, onların tez bir zamanda böyüyəcəyi və bunun da Texnopark sayəsində olacağını göstərir.

Ölkəmizdə müasir texnikalar və texnologiyalarla məhsullar istehsal edən texnoparklar və sənaye məhəllələrinin formalaşdırılmasında da məqsəd bazara rəqabətədavamlı məhsulların çıxarılmasıdır. Fəaliyyətdə olan texnoparklarımızın məhsullarının xarici ölkə bazarlarında satılması seçilmiş yolun doğru olmasını sübut edir. Son zamanlar neft sektorunda, xüsusilə də, tədqiqat işinin aparılması üçün obyekt olaraq seçilən “SOCAR Polymer” zavodunda həyata keçirilən işlər göz önündə olsa belə, tükənən enerji mənbələrinin istifadəsini məhdudlaşdırmaq kifayət qədər məqsədəuyğun olardı. Çünki neftin qiymətinin belə aşağı səviyyədə olması istər xam neftin satışında, istərsə də neft məhsullarının emalından alınan məhsulların satışında mənfəətin çox aşağı olmasına gətirib çıxarır. Burada söhbət maya dəyərinin belə ödənilə bilinməməsindən gedir. Xam neftin qiymətinin aşağı olmasının polietilen istehsalında maya dəyəri baxımından müsbət təsir yaratdığını yuxarıda

qeyd etmişdik, amma 2020-ci ilin aprel ayında neft qiymətlərində yaranan vəziyyət problemin çox böyük olduğunu deməyə əsas verir.

### 2.3. Dayanıqlı inkişaf məqsədlərinə nail olunması yolunda tam və səmərəli məşğulluğun və hamı üçün layiqli əmək imkanlarının təşviqi

Layiqli iş, əsas iş şəraiti, işçilərin sağlamlığı və təhlükəsizlik şəraiti, sosial təminat imkanları, məcburi əmək və uşaq əməyi olmadan, işlərinin qarşılığında layiq olduqları əmək haqqını ala biləcək, üçtərəfli konsensus çərçivəsində hökumət, işçi və işəgötürən (BƏT, 1999) hüquq və prinsiplərin reallaşması kimi ifadə olunur. BƏT konfransında ilk dəfə təqdim olunan hesabatda Somavia BƏT-in əsas məqsədinin insan ləyaqətini, təhlükəsizlik, bərabərlik və azadlıq çərçivəsində lazımi iş yerlərini təmin etmək olduğunu bildirdi.

Hamını düzgün işlə təmin etmək üçün ölkələr üçün dörd əsas hədəf müəyyənləşdirilmiş və başlanğıc nöqtəsi təmin edilmişdir:

1. İş yerində əsas hüquq, prinsip və standartların həyata keçirilməsi;

2. Qadınlara və kişilərə uyğun iş və gəlir əldə etmək üçün daha çox imkan yaratmaq;

3. Hər kəs üçün sosial müdafiənin əhatə dairəsinin və effektivliyinin artırılması;

4. Sosial dialoqun və üçlü iştirakın gücləndirilməsi.

Bu dörd əsas məqsədə çatdıqda və ya bu istiqamətdə işlər görüldükdə layiqli işin təmin edilməsinə əhəmiyyətli töhfə vermək mümkündür. Layiqli iş yuxarıda göstərilən əsas çərçivədə müəyyənləşdirilsə də, hər bir cəmiyyət və ya ölkə üçün hər iş həyatında layiqli işin təmin edilməsi həmin ölkənin və ya cəmiyyətin iqtisadi, sosial və mədəni xüsusiyyətlərindən asılıdır. Buna görə də, beynəlxalq konvensiyalarla müəyyən edilmiş əsas hüquq və prinsiplər çərçivəsində hər bir ölkə iqtisadi, mədəni və sosial mənşəyinə uyğun olaraq müvafiq iş yerləri yaratmağa və ya lazımi iş yerləri yaratmağa yönəldilməlidir. Bir çox ölkələr tərəfindən təsdiqlənən və qəbul edilən əhəmiyyətli beynəlxalq konvensiya və bəyannamələr, layiqli iş üçün zəruri olan əsas prinsip və standartları quraraq alt struktur yaratmışdır; İnsan

Hüquqlarının Ümumdünya Bəyannaməsi (1948), Avropa Sosial Əsas Qanunu (1965), Beynəlxalq İqtisadi, Sosial və Mədəni Hüquqlar Konvensiyası (1966), Sosial İnkişafın Ümumdünya Sammiti (1995) və BƏT-in Əsas Hüquq və Prinsipləri Bəyannaməsi (1998) kimi.

Ölkədə əmək ehtiyatlarından effektiv istifadə, əhalinin sahibkarlıq və məşğulluq imkanlarının genişləndirilməsi, layiqli əmək formalarının dəstəklənməsi, işçi qüvvəsinin rəqabət qabiliyyətliyinin artırılması və əmək məhsuldarlığının yüksəldilməsinin hesabına iqtisadi inkişafın təmin ounması AR Prezidentinin 6 dekabr 2016-cı il tarixli 1138 saylı Fərmanı ilə təsdiq olunmuş milli iqtisadiyyat və onun əsas sektorlarında strateji yol xəritələrində əsas məqsədlər olaraq müəyyən edilmişdir. Bu baxımdan Azərbaycan Respublikasında mövcud demoqrafik meyillərə və inkişaf formalarına, müəyyən olunmuş iqtisadi prioritetlərə əsaslanmaqla effektiv məşğulluğun təmin olunmasına yönəldilmiş uzunmüddətli dövlətin məşğulluq siyasətinin formalaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 30 oktyabr 2018-ci il tarixli Sərəncamı vasitəsilə “2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası” qəbul edilmişdir.

Strategiyanın təməl məqsədi məşğulluq siyasəti üzrə ekstensiv inkişafdan intensiv inkişaf xüsusiyyətli məşğulluğa keçidi təmin eləmək, əhalinin məşğulluq səviyyəsində artıma nail olmaq, tam məşğulluğu təmin eləmək, layiqli əməyə dəstək vermək və əmək məhsuldarlığını yüksəltməkdir. Strategiyanın həyata keçirilməsi çərçivəsində gənclər arasında işsizliyin minimum səviyyəyə endirilməsi, əmək bazarında yaxud təhsildə olmayan gənclərın (15-24 yaş) xüsusi çəkisinin 2030-cu ilədək 15%-ə endirilməsi, 2025-ci ilə qədər bütün əhali qrupları (əsasən əlilliyi olan şəxslər, qadınlar və gənclər) üçün effektiv məşğulluğa və layiqli əməyə nail olunması əsas hədəflər kimi müəyyən edilmişdir. Gənclərin peşə təhsili formasından əmək bazarına inteqrasiyası prosesini gücləndirmək məqsədi ilə karyera (peşə) - məsləhət və karyera-planlaşdırma xidmətlərinin inkişaf etdirilməsi, eləcə də

rəqəmsal texnologiyadan geniş istifadəyə keçid prosesinin təmin olunması Strategiyanın prioritet istiqaməti kimi müəyyən edilib (Atakişiyev M.C., 2012: s.18).

Sosial- iqtisadi tədbirlər əsasında yaşayış səviyyəsi yaxşılaşdırılıb, bu, pensiyaların 8, faiz əmək haqlarının isə 7 faiz artımı ilə müşahidə olunur. "Əmək pensiyalarının sığorta indeksləşdirilməsi" və "Minimum əmək haqqının artırılması" haqqında 2017-cı il 21 yanvarında sərəncamlar da bu məqsədlə qəbul edilmişdir (The Inclusive Growth and Development Report 2017).

Rəsmi statistikaya görə, 2010-cu ildən ötən dövr ərzində məşğulluq xidməti orqanlarında rəsmi işsiz statusu verilmiş şəxslərdən işsizlik müavinəti alanların sayındakı artım əvvəlki illərlə müqayisədə 2018-ci ildə daha az olmuşdur. Nəticədə, ölkə üzrə işsizlik müavinəti alan işsiz əhalinin sayı son 8 ildə 15 dəfəyə qədər artaraq 1117 nəfərə çatmışdır ki, bunlardan da kişilərin 20,02 faizi, qadınların isə 17,54 faizi işsizlik müavinəti alan işsiz əhali kimi müəyyən edilmişdir. Hesablamalar göstərir ki, məşğulluq xidmətləri orqanlarında işsiz statusu alan şəxslərin sayı mütləq ifadədə 485 nəfər (kişilər üzrə 2517 nəfər artım, qadınlar üzrə 3002 nəfər azalma) azalsa da, işsiz statusu alan şəxslər arasında işsizliyə görə müavinət alanların sayı 6887 nəfər artaraq 2017-ci ilin sonuna 6974 nəfərə çatmışdır. Ancaq burada meyar olaraq BƏT-in meyarların və işsizlikdən siğorta ödənişi alanları götürdükdə 2018-ci il üçün 1117 nəfər qalır. Beləliklə, 2018-ci ilin əvvəlinə məşğulluq xidmətləri orqanlarında işsiz statusu almış 253,8 min nəfər əhalidən 20088 nəfərinə məşğulluq xidməti orqanlarında rəsmi işsiz statusu verilmişdir. Ölkəmizdə 2006-cı il yanvarın 1-dən həyata keçirilən müasir pensiya-sığorta sistemi bazar iqtisadiyyatı olan ölkələrdə vətəndaşların pensiya ilə təmin olunma hüquqlarının müdafiəsi üçün hər ildə əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsini ön planda tutur. Bunun nəticəsi olaraq istehlak qiymət indeksinin illik səviyyəsinə, yəni inflyasiyaya əsasən indeksləşdirmə aparmağın nəticısindəil-ildən əmək pensiyalarının artımı müşahidə olunur.

**Cədvəl 4: Əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri**

| | 2010 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| Əhalinin orta illik sayı - min nəfər | 9054,3 | 9649,3 | 9757,8 | 9854,0 | 9939,8 |
| İqtisadi fəal əhalinin sayı - min nəfər[1)] | 4587,4 | 4915,3 | 5012,7 | 5073,8 | 5133,1 |
| Məşğul əhalinin sayı - min nəfər | 4329,1 | 4671,6 | 4759,9 | 4822,1 | 4879,3 |
| o cümlədən mülkiyyət növləri üzrə: | | | | | |
| dövlət | 1142,7 | 1176,1 | 1171,4 | 1158,4 | 1154,9 |
| qeyri-dövlət | 3186,4 | 3495,5 | 3588,5 | 3663,7 | 3724,4 |
| İşsiz əhalinin sayı, min nəfər[2)] | 258,3 | 243,7 | 252,8 | 251,7 | 253,8 |
| Məşğulluq xidməti orqanlarında rəsmi işsiz statusu verilmiş şəxslər, nəfər | 38966 | 28877 | 32972 | 38481 | 20088 |
| onlardan işsizliyə görə müavinət alanlar | 87 | 1543 | 1857 | 6974 | 1117[3)] |
| İqtisadiyyatda məşğul olan qadınların sayı - min nəfər | 2101,7 | 2263,4 | 2294,2 | 2319,3 | 2349,9 |
| İqtisadiyyatda muzdla işləyənlərin sayı[4)] - min nəfər | 1382,9 | 1502,5 | 1514,3 | 1525,0 | 1551,7 |
| Muzdla çalışan işçilərin orta aylıq əməkhaqqı - manat | 331,5 | 466,9 | 499,8 | 528,5 | 544,6 |
| Kadrların peşə hazırlığı, nəfər | 4792 | 7453 | 4815 | 4502 | 5629 |
| İxtisaslarını artırmış rəhbər işçi və mütəxəssislərin sayı - nəfər | 22326 | 13045 | 14429 | 11499 | 17676 |

1) 2005-2018-ci illərdə Beynəlxalq Əmək Təşkilatının metodologiyasına əsasən bütün işsizlər nəzərə alınmaqla hesablanmışdır.
2) Beynəlxalq Əmək Təşkilatının metodologiyasına əsasən (rəsmi işsiz statusu verilmiş şəxslər də daxildir).
3) İşsizlikdən sığorta ödənişi alanlar
4) İlin sonuna

**Mənbə:** Azərbaycan Respublika Dövlət Statistika Komitəsi, Əmək bazarı - Statistik Məcmuə, Bakı 2019, s. 16 materiallarından istifadə edərək müəllif tərəfindən tərtib edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti əmək pensiyalarının sığorta indeksləşdirilməsi ilə əlaqədar 11 sərəncam imzalayıb ki, həmin sərəncamların nəticəsiolaraq pensiyalarda davamlı olaraq artımlar müşahidə olunur. Sosial təminat da inklüziv artım indeksində əsas yer tutur.Azərbaycanda etibarlı sosial müdafiəni təmin etmək məqsədi ilə“2009-2015-ci illərdə Azərbaycan Respublikasında pensiya-sığorta sisteminin inkişafına dair Dövlət Proqramı” pensiya-sığorta sisteminin inkişafı üçün məqsədyönlü tədbirlərin həyata keçirilir. Gələcəkdə pensiya-sığorta sisteminin daha da inkişaf etməsi məqsədi ilə 2016-2020-ci illər yeni Dövlət Proqramı hazırlanacaq. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq pensiya-

sığorta sistemi getdikcə daha çox inkişaf edəcək, könüllü sosial sığortaların tətbiqi ilə əlaqədar məsələlər öz həllini tapacaqdır.Sosial təminatın Azərbaycandakı cari vəziyyətini statistik göstəricilər əsasında cədvəl şəkilində göstərilmişdir (Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı):

**Cədvəl 5: Pensiya alanlar (min nəfər)**

| Göstərici | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|
| Pensiyaçıların sayı (min nəfər) | 1272.0 | 1277.0 | 1291.0 | 1299.9 | 1315.2 | 1318.4 | 1295.4 |

**Mənbə:** Azərbaycan Respublika Dövlət Statistika Komitəsi https://www.azstat.org/portal/tblInfo/TblInfoList.do# materiallarından istifadə edərək müəllif tərəfindən tərtib edilmişdir.

Onu da qeyd edək ki, pensiyaçıların sayının azalması sosial pensiyaçıların sosial müavinətlələrlə əvəz edilməsi ilə əlaqədardir.

Həyata keçirilən məqsədəyönlü tədbirlərin nəticəsində Azərbaycanda əhalinin sosial müdafiəsinin təminatı və ailə gəlirlərinin artırılması halları müşahidə olunur. Bu da öz növbəsində yoxsulluğun azadılmasında öz əksini tapır. Bundan əlavə, inklüziv artım indeksində ön planda olan səhiyyənin inkişafına da xüsusi diqqət yetirilib. 2004-cü ildənbu günümüzə qədər altı yüzdən çox tikilmiş və yaxud təmir olunmuş tibb olacaqları buna bir nümunədir. Azərbaycanda davamlı inkişafa nail olmanın cari vəziyyətini daha ətraflı araşdıraraq öyrənmək üçün inklüziv artım indeksindəki göstəricilərin statistik məlumatlarına nəzər salaq. Əhalinin sosial müdafiəsi prosesinin gücləndirilməsində, məşğulluq səviyyəsinin yüksəldilməsində, layiqli əməyin təmin olunmasında və işçi qüvvəsi keyfiyyətinin yüksəldilməsində sosial tərəfdaşlıq və dialoq həlledici rol oynamaqdadır. Buna görə də işaxtaran, işsiz və məşğul əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi istqamətində sosial dialoqun inkişafı əsas məqsədlərdən biri olmaqla, daima diqqət mərkəzində saxlanılmalıdır.

**Cədvəl 6: Ölkə üzrə gəlirlər (ayda adambaşına, manatla) və əhalinin yaşayış səviyyəsi üzrə göstəricilər**

| Göstəricilər | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Sahibkarlıq fəaliyyətindın gələn gəlirlər (manat) | 61.2 | 63.9 | 66.7 | 67.6 | 69.3 |
| Kənd təsərrüfatından gəlirlər (manat) | 30.6 | 32.1 | 33.9 | 34.7 | 36.1 |
| Sosial yardımlar və müavinət (manat) | 3.8 | 3.9 | 4.1 | 4.3 | 4.2 |
| Digər gəlirlər (manat) | 24.5 | 26.0 | 27.8 | 28.4 | 29.7 |

**Mənbə:** Azərbaycan Respublika Dövlət Statistika Komitəsi, https://www.azstat.org/portal/tblInfo/TblInfoList.do# materiallarından istifadə edərək müəllif tərəfindən tərtib edilmişdir.

Bu cədvəldən göründüyü kimi həm kənd təsərrüfatından, həm də, sahibkarlıq fəaliyyətindən gələn gəlirlər, eləcə də insanların yaşaması üçün yardım məqsədi ilə verilən müavinət, sosial yardımlar və digər gəlirlərin artımı baş verib. Bu göstəricilərin nəticəsi olaraq qeyd edim ki, Azərbaycanda inklüziv artım indeksində başlıca yer tutan yoxsulluq aradan qaldırılır. İnklüziv artım indeksində əsas yerlərdən birini də səfalətin, aclığın aradan qaldırılmasıdır.Yəni təbii resurların, hər kəsin təlabatı olan ərzaqların, hər kəs üçün əlçatan olması önəmlidir.Hər bir ölkənin,bölgənin ərzaq təhlükəsizliyi ilə təmin olunması aclığın, səfalətin aradan qaldırılmasına müsbət təsir edir. Yuxarıda qeyd edildiyi kimi, inklüziv artım indeksində səhiyyənin inkişafına da xüsusi diqqət yetirilib.

Hazırda Azərbaycanda əmək ehtiyatlarının keyfiyyət göstəricilərinin yüksəldilməsi, davamlı inkişaf edən iqtisadiyyatın və əmək bazarının tələblərinə uyğunlaşdırılması, ümumilikdə əmək bazarında işçi qüvvəsinin nəzdində effektivliyin artırılması istiqamətində məsələlərin həlli ümumdünya və milli əmək bazarı tələblərinə cavab verəcək peşə və ixtisas standartlarının, onların təməlində isə təlim, tədris və təhsil proqramlarının hazırlanması və tətbiq olunması ilə həyata keçirilir. Səriştə əsasında hazırlanan peşə standartlarının tətbiq olunması milli işçi qüvvəsinin rəqabət gücünün artırılması və onun dünya əmək bazarına inteqrasiya

olunması üçün təməl alətdir (Xalq qəzeti, oktyabr 2018). Ölkəmizdə əmək bazarında hazırki vəziyyətin dəqiq qiymətləndirilməsi və gələcək dövrə olan meyillərin müəyyən eilməsi üçün məlumatlara əsaslanmış proqnoz sistemi (əhalinin iqtisadi fəallığının müayinə olunması, ev təsərrüfatlarının müayinə olunması), ekspert rəyi və hesablamaları əsasında keyfiyyət təhlili, orta ixtisas, peşə və ali təhsilli məzunlar arasında mütəmadi sorğuların aparılması, vakansiya bazasının və əmək ehtiyatları balansında əldə olunmuş məlumatların bir-biri ilə əlaqələndirilən təhlili, uzlaşdırılma və monitorinq nəticəsində müvafiq effektiv idarəetmə qərarlarının qəbul olunması məqsədilə AR-da Əmək Bazarı üzrə Milli Observatoriyanın formalaşdırılması imkanları nəzərdən keçiriləcək. Bununla belə, əhalinin sosial müdafiəsi üzrə tədbirlərin aparılmasında, məşğulluq səviyyəsinin artrılmasında, layiqli əməyin təmin olunmasında və işçi qüvvəsinin keyfiyyətinin yüksəldilməsində sosial dialoq və tərəfdaşlığın səviyyəsinin artırılması üçün işlər görülməlidir.

# III FƏSİL. AZƏRBAYCAN MÜƏSSİSƏLƏRİNİN STRATEJİ İNKİŞAF PERSPEKTİVLƏRİ

## 3.1. Dayanıqlı inkişaf məqsədlərinə nail olunmaq vasitəsi kimi Azərbaycan müəssisələrinin strateji inkişaf perspektivlərinin yüksəldilməsi

Müasir dünyada texnika və texnologiyalar nisbətən tez dəyişir. Belə hallarda məhsul və prosesləri yerli şəraitə uyğunlaşdırmaq və məhsuldarlığı və xərcləri artırmaq lazımdır. Bu dəyişikliklərin çoxu tədqiqat laboratoriyalarında deyil, iş yerlərində həyata keçirilir. Məhsuldakı kiçik dəyişikliklərin və ölkə iqtisadiyyatındakı proseslərin ümumi təsiri bir çox hallarda yeni texnologiyadan daha böyük ola bilər. Bu baxımdan mövcud texnologiyaların yerli şəraitə uyğunlaşdırılması yeniliklər qədər məhsuldar ola bilər. İnkişaf etməkdə olan ölkələr səylərini elmi araşdırmalara və təcrübə qurma çalışmalarına yönəltməlidirlər. Bununla yanaşı, hökumət xaricdən texnologiya gətirmək, mənimsəmək, uyğunlaşdırmaq və inkişaf etdirmək üçün vasitəçilik funksiyasını yerinə yetirməlidir və bu səylərə kömək etməlidir (Hacızadə, 2002, 98). Azərbaycanın dayanıqllı inkişaf konsepsiyasında deyildiyi kimi, yerli xammal əsasında müasir sənaye müəssisələrinin keyfiyyət səviyyəsində yeni müəssisələrin yaradılması tədbirlərinin həyata keçirilməsi çox vacibdir. 2020-ci ilə qədər ölkədə polad, neft-qaz emalı və neft-kimya kompleksləri, gübrə, gəmiqayırma və sement fabrikləri, alüminium sənayesinin inkişafı, ilkin alüminium istehsalı, texnoloji inkişaf, əlaqələrin yaradılması, bu sektorun ixrac potensialının artırılması ilə bağlı planlar hazırlanmışdır. Eyni zamanda, bölgələrdə sənaye şəhər infrastrukturunun formalaşması dövlət investisiya siyasətinin qeyri-neft emalı sənayesinin inkişafına yönəldilməsinə imkan verəcəkdir.

Ölkədə innovativ və yüksək texnoloji rəqabətli istehsalın inkişafı üçün əlverişli şərait yaradılmasından ötrü imzalanmış “Sumqayıt Kimya Sənaye Parkı”nın və 28 dekabr 2011-ci il tarixdə “Bakıda Balaxanı Sənaye Parkının yaradılması haqqında Fərman”ın icrası üçün sistematik tədbirlərin tətbiqi məqsədi ilə lazımi işlər

görülmüşdür. Bununla yanaşı, qeyd etmək lazımdır ki, elmi müəssisələrin potensialı ölkənin əksər bölgələrində kifayət qədər istifadə edilmir. Bunun əsas səbəblərindən biri elmi tədqiqat məhsullarının hər zaman rəqabət qabiliyyətli məhsul olmamasıdır. Elmi təşkilatların müəssisələrlə əlaqələrini pozması, demək olar ki, hər yerdə elm və istehsalın ayrılmasına səbəb oldu. Bütün mövcud çatışmazlıqları aradan qaldırmaq və regional innovasiya fəaliyyətlərini genişləndirmək üçün regional innovasiya strategiyasının hazırlanmasına ehtiyac vardır. Neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsi iqtisadi bölgələrin inkişafını maliyyələşdirmək üçün lazımi mənbələri təmin etmişdir. Bu çərçivədə bölgələrin inkişafı istiqamətində fəaliyyətini davam etdirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli qərarı ilə 2009-2013-cü illər arasında Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı təsdiq edilmişdir. Bu proqramın məqsədi ölkədə qeyri-neft sektorunun inkişafını sürətləndirmək, iqtisadiyyatın şaxələndirilməsi, tarazlaşdırılmış regional və sosial-iqtisadi inkişafın təmin edilməsi və əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasıdır. Dövlət Proqramında göstərilən məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələr nəzərdə tutulurdu:

• Ölkənin təbii və əmək potensialından səmərəli istifadə edərək qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək;

• İnfrastruktur təchizatının yaxşılaşdırılması üçün tədbirlərin davam etdirilməsi;

• İş mühitini yaxşılaşdırmaq və sahibkarlığın inkişafını sürətləndirmək üçün məqsədyönlü tədbirlər görmək;

• İqtisadiyyatın inkişafına davam edən investisiya;

• İxrac yönümlü məhsulun təşviqi;

Bu vəzifələri yerinə yetirmək üçün ilk öncə iqtisadi rayonlarda innovasiya və investisiya fəaliyyətlərinin maliyyələşdirmə mexanizmi təkmilləşdirildi və bununla da proqramın icrası uğurlu şəkildə nəticləndi.

Mehdiyevə görə (2015, 89), insan kapitalına qoyulan investisiyalar iqtisadiyyatın davamlı inkişafında mühüm rol oynayır. Nəticədə insan kapitalının keyfiyyətinin artması vətəndaşların gəlirlərinin artmasına, əmək məhsuldarlığının və innovativ fəaliyyətin yaxşılaşdırılmasına şərait yaradır. Qeyd edək ki, 2014-2018-ci illər planlarında genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi nəzərdə tutulur. Əsas su mənbələrinin xaricdə qurulduğunu nəzərə alsaq, taxta körpü çox vacib bir layihədir. Bu layihədə tətbiq oluna bilən su çənləri çox vacib bir layihə kimi təqdirəlayiqdir. Bu layihənin həyata keçirilməsi su qıtlığının qarşısını almağa imkan verəcəkdir. Digər tərəfdən, Şəmkirçay su anbarının təmirinin başa çatması su təminatının həm yaxşılaşdırılmasına, həm də davamlı içməli suyun cəmiyyətə verilməsinə imkan verəcəkdir. Bu iki nadir layihənin həyata keçirilməsinin Azərbaycanın kənd təsərrüfatında onilliklər ərzində dayanıqlığını təmin edəcəyi düşünülür. Son illərdə ölkədə ən yeni texnologiyaların və xarici təcrübələrin tətbiqi ilə alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması xüsusilə diqqət cəlb edir.

Bu səbəbdən Qobustandakı günəş və külək enerjisi üzərində işləyən alternativ enerji təcrübə-sınaq mərkəzini bu istiqamətdə həyata keçirilən ən vacib layihələrdən biri hesab etmək olar. Bundan əlavə, 24 aprel 2012-ci ildə Sumqayıtda günəş modulları və LED lampaları istehsal edən Azguntex zavodu istifadəyə verildi. Diqqəti cəlb edən məqamlardan biri ən müasir alternativ və bərpa olunan enerji texnologiyalarının istifadəsi ilə yaradılan bu fabrikin tam kompüterləşməsidir. Bu zavodda beynəlxalq standartlara uyğun olaraq hər biri 42-250 vatt olan 60 fotoelement günəş panelinin hazırlanması və beləliklə daim elektrik enerjisi istehsalçısı olması nəzərdə tutulur. Ayrıca panellərin istehsalının texnoloji prosesinin tamamilə avtomatik olduğunu da qeyd etmək lazımdır. Yuxarıda göstərilənlərə əlavə olaraq Sumqayıtda uzunömürlülüyü ilə seçilən yeni nəsil yüksək texnoloji LED lampaların istehsalı üçün xüsusi bir obyektin inşası planlaşdırılır. Ümumiyyətlə, yaxın illərdə Sumqayıtda yüksək texnoloji parkın yaradılması planlaşdırılır. Bu parkda alternativ və bərpa olunan enerji və enerji qənaət

texnologiyasına əsaslanan 15 obyektin inşası tətbiq ediləcəkdir. Hal-hazırda ölkədə geniş çeşidli neft və elektrik avadanlığı, müxtəlif diametrli metal və kompozit materiallardan olan borular, kimya sənayesi məhsulları üçün tikinti materialları və s. istehsal olunur. Həm də avtomobil və yük maşını istehsalına başlandı. Digər tərəfdən, hazırda Azərbaycanda yüksək keyfiyyətli, müasir sənaye standartlarına və qida məhsullarına ixrac olunan xarici alıcılara böyük tələbat var. Tədqiqatlar göstərir ki, metallurgiya sənayesinin texniki və texnoloji cəhətdən yenidən qurulmasına böyük ehtiyac var. Baku Steel Company istisna olmaqla, digər müəssisələrin maddi bazası çox köhnəlmişdir. Buna görə də bu baxımdan mövcud müəssisələrin yenidən qurulması və ya dəyişdirilməsi tədbirləri böyük əhəmiyyət kəsb edir.

Əlvan metallurgiyada innovasiya siyasətinin həyata keçirilməsi müasir dünya standartlarına cavab verən müasir texnologiyalara əsaslanan nəhəng bir zavodun inşası və Sumqayıt alüminium zavodunun və Gəncə gil sahəsinin yenidən qurulması ilə əlaqədardır.

Müasir standartlara əsaslanaraq, Daşkəsən Filiz Saflaşdırma Zavodunun yenidən qurulması və ekoloji tələblərə cavab verən yeni bir metallurgiya zavodunun inşası qara metallurgiya sənayesində innovasiya layihələrinin həyata keçirilməsində mühüm addım olacaqdır. Milli innovasiya sistemi yeni məlumatların və texnologiyaların istehsalında və yayılmasında iştirak edənlərin hamısının, habelə ağlabatan bir müddətdə aralarındakı münasibətlərin müxtəlifliyini ifadə edir. Milli innovasiya sisteminin qurulmasının səbəbi bazar iqtisadiyyatının hər cəhətdən mükəmməl olmamasıdır. Bu, iqtisadi fəaliyyətin səmərəliliyinin biznes və ya iqtisadi fəaliyyət riskinin kifayət qədər mənimsənilməməsi ilə əlaqədardır. Eyni zamanda, ümumiyyətlə xaricdən texnologiyanın köçürülməsi və gətirilməsi gəlir. Bir çox ölkələrdə olduğu kimi, respublikamızda da yeni texnologiyaların seçilməsi, yerli şəraitə uyğunlaşma, idxal olunan texnologiyaların təmiri daxildir. Qeyd etmək lazımdır ki, bu mərhələdə əldə olunan texnoloji imkanlar yeni texnologiyaların, məhsulların və istehsal sistemlərinin yaradılmasında əsas rol oynayır. Buna nail olmaq üçün dövlət kiçik və orta sahibkarlığa dəstək verməlidir. Dövlət innovasiya

sahəsində prioritetlərini, siyasətinin məqsəd və prinsiplərini təşkil edir. Bu zaman elmi-texniki və innovasiya siyasətini fərqləndirmək lazımdır. Birinci halda dövlət yeni elmi məlumat yaratmaq və istifadə etmək məqsədini, ikinci halda, fərdi və ictimai ehtiyaclar üçün pul ödəyən yenilikləri yaratma və istifadə hədəfini idarə etməkdədir.

Dövlət innovasiya siyasəti dövlətlərin elm və texnologiyada fəaliyyət formalarını, istiqamətlərini, dövlət orqanlarının məqsədlərini və dövlətin innovasiya fəaliyyətinə münasibətini göstərən sosial-iqtisadi siyasətin vacib hissəsidir. Bu siyasət ölkənin sosial-iqtisadi inkişafını təmin etmək və cəmiyyət ehtiyaclarını ödəmək üçün innovasiyanın səmərəliliyini artıran tədbirlər məcmusudur.

Azərbaycanın neft və qaz sənayesindəki biznes strategiyası kimi müxtəlif strategiyaların birləşməsi təklif olunur. Beləliklə, sahənin iqtisadi inkişaf strategiyası bazara çıxarılır, planlaşdırma, nəzarət, təşviq, marketinq və xarici bazarlara çıxış təmin edilir. Bunların hamısı Azərbaycanın neft strategiyasında praktik bir həll tapır. Azərbaycanın neft strategiyası ərazinin həm yaxın, həm də uzaq iqtisadi fəaliyyətinin məqsəd və strategiyasını əks etdirir. Sahənin məqsədi iqtisadi inkişafın əsas istiqamət konsepsiyasını müəyyən etməkdir. Strategiya qarşıya qoyulmuş məqsədə çatmaq üçün tədbirlər və proqramların hazırlanmasını nəzərdə tutur. Bu vəziyyətdə sahənin elmi və texniki potensialı və istehsal və satış imkanları nəzərə alınır. Buna görə də, neft-qaz sənayesinin iş strategiyasının hazırlanmasına aşağıdakılar daxildir:

• Neft və qaz sənayesinin və onun ayrı-ayrı strukturlarının strateji məqsəd və vəzifələrini müəyyənləşdirmək və təsdiqləmək;

• Neft və qaz sənayesinin iqtisadi fəaliyyətində güclü (müsbət) və zəif (qüsurlu) tərəflərin müəyyənləşdirilməsi və araşdırılması;

• Neft və qaz sənayesinin cari və gələcək istehsal fəaliyyətlərinin yekun nəticələrinin qiymətləndirilməsi;

• Neft və qaz sənayesinin mikro və makro göstəricilərinin təhlili, tədqiqi və istifadəsi;

• Neft və qaz sənayesində istehsal fəaliyyəti üçün inkişaf alternativlərinin müəyyən edilməsi;

• Neft və qaz sənayesinin illik büdcəsinin hazırlanması.

ARDNŞ-a neft-qaz sənayesinə investisiya qoymaq və yeni texnologiyalar cəlb etmək, xarici neft şirkətləri ilə müqavilələr bağlamaq tapşırılmışdır. Danışıqlar qrupunun aparıcı neft və beynəlxalq əlaqələr üzrə mütəxəssisləri var. Bu qrupda İlham Əliyev, Natiq Əliyev və Xoşbəxt Yusifzadənin rolu xüsusilə təsirli idi və Azərbaycanın maraqlarına tam cavab verən saziş şərtləri yerinə yetirilmişdi.

Neft-qaz sənayesində təşkilati innovasiya fəaliyyəti elmi, texniki və intellektual potensialı stimullaşdıran, daha optimal və daimi məhsuldarlığı təşviq edən tədbirləri əhatə edir. Neft və qaz sənayesində yeniliklər məhsuldar, sınaqdan keçmiş və tələbatlıdır. Burada innovasiya fəaliyyətinin inkişafı elmi-texniki potensial sahəsinin vəziyyəti, əsas kvadrat və kəmiyyət parametrləri ilə xarakterizə olunur. İşlənmiş və dinamik, neft-qaz sənayesindəki yenilik həm texnoloji, həm də idarəetmə baxımından əsas əhəmiyyətini tam şəkildə nümayiş etdirir. Həm də Xəzər dənizi neft yataqlarının inkişafı üçün texnoloji və iqtisadi strategiyanın innovasiya fəaliyyəti sahəsindədir. Bildiyiniz kimi, bütün mənbələrdən ən yaxşısı insan qaynağıdır. Ancaq zamanla öz əlləri ilə sivilizasiya qura bilməz. Buna görə də ona kapital və empirik nailiyyətlər lazımdır. Bu çərçivədə, fikrimizcə, gözlənilən neft ehtiyatlarını yalnız insan resursları ilə əvəz etmək lazımdır. Buna görə müasir sivilizasiyanın vacib göstəricisi kimi insan kapitalının inkişafına diqqət və qayğı olmalıdır.

## 3.2. Dayanıqlı inkişafın sosial və ekoloji aspektlərinin təkmilləşdirilməsi məsələləri

Müstəqillik əldə etdikdən sonra keçid dövrü ilə bağlı beynəlxalq iqtisadi münasibətlər pozulduğundan bir-neçə sənaye müəssisələrinin və obyektlərinin fəaliyyəti dayanıb, müəyyən bir qismi isə istehsal gücünün 10-20% həcmi üzrə fəaliyyət göstərirlər. Ümumiyyətlə, müəssisələrdə quraşdırılmış qaz-toz tutucu qurğuların əksər qismi istifadə üçün yararlı deyil. Fəaliyyətini dayandıran

müəssisələr təkrar istehsal prosesində iştiraka başlasalar, respublikamızın havası mühiti böyük təbii ekoloji problemlə üz-üzə qalacaq. Nəqliyyat xidmətində son illər ərzində baş vermiş hadisələr xüsusilə narahatçılıq yaradır. Beləliklə də, böyük sərinişin avtobusları özünün istismar müddətini başa vurandan sonra onların yerinə kiçik avtobuslar xəttə buraxılır ki, bu da yollarda tıxacın yaranmasına və atmosferə buraxılmış zərərli qazlar, toksinlərin miqdarında azlmaya səbəb olur. Göstərilmiş problemlərin öz həllini tapması yolunda aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- müəssisələr və obyektlərdə qeyd olunan qurğuların yenisi ilə əvəzlənməsi və ya onların cari və əsaslı təmiri

- nəqliyyat sferasında qurğuşunsuz benzindən istifadə olunmaya tam şəkildə keçilməsi

-bugünki tələblər və standartlara cavab verməyən vasitələrin utilizasiyası

-ekoloji baxımdan təmiz avtobusların tətbiqi və piyada keçidlərinin daha da genişləndirilmə prosesi

- ölkəyə idxal olunmuş nəqliyyat vasitələri mühərriklərinin Avropa ölkələri üçün qəbul olunmuş normalara unifikasiyasının əldə edilməsi.

Növbəti olaraq barəsində danışacağımız sfera torpaq ehtiyatlarıdır. Ölkəmiz mühüm əhəmiyyətliliyi olan ekoloji problemlərdən biri də əkinəyararlı torpaq ehtiyatlarının istifadəyə yararsız hala düşməsi və istismardan çıxmasıdır. Torpağın deqradasiya məsələsində ən pis vəziyyət Abşeron yarımadasında müşahidə olunur. Neft quyusunun qazılması neftin intensiv hasili ilə bağlı olaraq torpaqda çirklənmə və aşınma prosesi güclənmişdir. Qarşııza çıxan problemin həlli qarışıq, böyük həcmdə investisiya tələb edən dövrünə daxil olmuşuq. Belə ki, mövcud problemi həll etmək məqsədilə hökumətimiz tərəfindən yardımlar həyata keçirilməlidir. Əks halda əkinəyararlı sahələrin istismardan çıxması, habelə kənd təsərrüfatı bölmələrinin inkişafı yolunda mövcud imkanları məhdudlaşdırmaqla ekoloji vəziyyət həddindən artıq problemli hala gələ bilər. Bu probemin qarşısının alınmasından ötrü aşağıdakı tədbirlərin reallaşdırılması məqsədəuyğundur:

- məhsul istehsal edə bilən torpaq sahələrinin qorunması və onun münbitliyinin yüksəldilməsi üçün ölkədaxili fəaliyyət proqramının tərtib edilmıəsi;

- torpaqda gedən eroziya proseslərinin qarşısının alınması məqsədilə meloriasia və irriqasiya sistemlərinin tətbiq olunması;

- neft hasilatı zamanı çirklənmiş sahələrinn rekultivasiyasını həyata keçirmək və torpağı qatqılardan təmizləmək yolundamüvafiq qurğu və avadanlıqlardan istifadə edilmsinə üstünlük verilməsi;

- kollektor-drenaj şəbəkəsinın texniki istismar parametrlərinin yaxşılaşdırılması;

- görülən işlər zamanı münbitliyi pozulan və deqradasiyaya məruz qalan sahələrin dövri şəkildə ekoloji monitorinqlə yoxlanılması keçirilməsi;

- respublikamızın iri sənaye mərkəzləri olan şəhərlərdə zərərli tullantıların ekologiyaya vurduğu ziyanın qarşısının alınması məqsədilə çoxşaxəli tədbirlərin reallaşdırılması;

- təsərrüfat fəaliyyəti nəticəsində yaranan süni gölməçələr və bataqlıqların qurudulması və bu sahələrin münbit vəziyyətə gətirilməsi.

Məlumdur ki, ölkəmizin ərazisinin sadəcə 11%-i meşə resursları ilə zəngindir. Son dövrlərdə meşəsalma və meşə bərpa tədbirlərinin yerinə yetirilməsi, ekoloji mühafızə tədbırlərının genışləndırılməsı, eləcə də, qanunsuz formada ağac kəsmə hallarının qarşısının alınmasıyla meşə ilə örtülü ərazilərin artmasına nail olunub. Belə strateji tədbirlərin sayəsində hazırda ölkəmizin 11.8%-i meşə resursları ilə örtülüdür. Respublıkamızda davam etdirilən ekoloji modernləşmə və siyasət yönündə görülən tədbirlərin bariz nümunəsidir ki, dünya arenasında ölkəmiz 180 ölkənin içərisində 31- ci yeri, MDB ölkələrinin sırasında isə 1-ci yeri tutmuşdur (AR DSK 2020).

Diqqət mərkəzində saxlamaq lazımdır ki, axır zamanlar təşəkkül tapmış iqtisadi inkişaf modeli böyük həcmdə strateji əhəmiyyəti olan valyuta ehtiyatlarının yaranmasına mühüm imkanlar açmışdır ki, o da öz-özlüyündə iqtisadiyyatımızın rastlaşdığı potensıal riskli halların absorbsiya edilməsinə, eləcə də gələcək iqtisadi

təkamülün maliyyə təminatının yaxşılaşdırılmasına mühüm çağırış kimi qəbul olunmuşdur.

Doğuş anından etibarən insan ilə ətraf-aləm arasında sıx bir qarşılıqlı əlaqə başlayır. Bu qarşılıqlı təsirlə insanlar həm ətrafdan təsirlənir, həm də ətrafa təsir edir. Bu qarşılıqlı əlaqə prosesi həmişə ətraf mühitin xeyrinə olmamışdır. İnsanlar bilərəkdən və ya bilmədən yaşadıqları mühitə zərər verirlər. Başlanğıcda ətraf mühitə vurulan zərər əhəmiyyətli səviyyədə olmasa da, sənayeləşmə, şəhərləşmə, yanacaqdan istifadə xeyli dərəcədə artmışdır və xüsusilə XX əsrin ikinci yarısında yaşanan sənayeləşmə ilə birlikdə bu proses fəlakət kimi qəbul olunmağa başlanmışdır.

Dayanıqlılığın ekoloji ölçüsü ətraf mühitə sırf iqtisadi narahatlıqla yanaşmır. Bu çərçivədə ekologiya alt mühitlərin dayanıqlılığı qanunlarını araşdırarkən, ekologiya bütün sistemlərdən kənarda geniş çərçivəyə daha çox diqqət yetirir. Məsələn, təmiz havanın əvəzedicisi yoxdur. Bundan əlavə, su ehtiyatları nəinki iqtisadi bir qaynaqdır, hətta yaşayış şərtidir. Bir çox alt sistem və digər canlı sistemlərlə əlaqəli bir ətraf mühit elementidir. Bu çərçivədə ekoloji dayanıqlılığı fiziki mühitdə qiymətləndirilən şeyləri və ya keyfiyyətləri qorumaq kimi təyin etmək olar (Sutton P., 2004: p.11).

Daha geniş bir təriflə, ekoloji dayanıqlılıq, mövcud və gələcək nəsillərin qaynaq və xidmət ehtiyaclarını qarşılayarkən ekosistemlərin sağlamlığına zərər verməməyə diqqət yetirməkdir. Ətraf mühitin dayanıqlılığının ən geniş tərifi insanların ehtiyaclarını ödəmələrini təmin edən və biomüxtəlifliyi azaltmayan ekosistemlərin dayanıqlıq, çeviklik və bağlılıq prinsiplərini nəzərə alan hərəkətlərdir (Morelli J., 2011: 6).

Bu məzmunda ekoloji dayanıqlıq, insan iqtisadi alt sisteminin miqyasını, ümumi ekosistemin biofiziki hüdudlarında saxlamaq mənasına gəlməkdədir və davamlı istehsal və istehlaka ehtiyac duyur (Goodland, 1995: 3). Davamlılığın ekoloji ölçüsü ilə əlaqəli beş əsas kateqoriyadan bəhs edilə bilər ki, bu da ekosistemlərin

təməl prinsiplərinə əhəmiyyət verir, məsələn, dayanıqlıq, elastiklik, özünü böyütmə, daşıyıcı güc və müxtəliflik. Bu kateqoriyalar cədvəldə ümumiləşdirilməyə çalışılır.

**Cədvəl 7: Ekoloji Dayanıqlılıq kateqoriyaları**

| Ekoloji dayanıqlılıq kateqoriyası | İzahat/ Nümunə |
|---|---|
| Sosial ehtiyaclar | Gələcək nəsillərin diqqətli olmasını tələb edən istehsal proseslərindən qaçınmaq. Yerli işçi qüvvəsinə dəstək. Ədalətli ticarəti təşviq etmək. Ətraf mühitin dayanıqlığının təmin edilməsi yeni xidmət və məhsul istehsalında əsas amildir. |
| Biomüxtəlifliyin qorunması | Biomüxtəlifliyi qoruyan xammala üstünlük. Enerji səmərəliliyi və davamlı enerji mənbələrinə investisiya qoyuluşu |
| Yeniləmə həcmi | Bərpa olunan mənbələrdən istifadə. Bərpa olunmayan resurs axını sürətini bərpa olunan resurs axınından daha az saxlamağa çalışmaq. |
| Təkrar istehsal | Yenidən istifadə edilə bilən və / və ya təkrar istifadə edilə bilən dizaynların edilməsi. İstehsal və iş proseslərinin qapalı dövrə sistemi kimi layihələndirilməsi, tullantıların azaldılması |
| Bərpa olunmayan mənbələrin miqdarının və tullantıların azaldılması | Ekosistemə ən az təsir edəcək nəqliyyat sistemlərinin inkişafı. Son tullantıya qədər bütün istehsal proseslərində istehsal olunan məhsulun ətraf mühitə təsirinin hesablanması. Gələcək nəsillərin mühitlərinin gücünə diqqət yetirərək bu qəbul mühitlərindən bəhrələnmək imkanlarını nəzərə almaq. |

**Mənbə**: Morelli J, 2011: 5-6.

Ətraf mühitin dayanıqlılığı təbii resurslar və qorunma anlayışlarını vurğulayan bir yanaşma kimi də qəbul edilə bilər. Bu çərçivədə təbii resurslar insanların təbii mühitini və ya ətraf mühitin verdiyi bütün aktivləri (torpaq, meşə, su, atmosfer və s.) özündə cəmləşdirir, qorunma anlayışı isə ətraf mühit aktivlərinin qorunmasına və ya heç olmasa tükənməməsinə aid edilir (Goodland R. and Daly H., 1996: p.1005). Goodland (1998: 38), ekoloji dayanıqlığı təmin etmək üçün dörd əsas şərtə əməl edilməli olduğunu iddia edir. Bu şərtlər Şimal ölkələrinin həddindən artıq istehlakını və ətraf mühit ehtiyatlarından istifadəni azaldır; Şimal ölkələrinin əhalisinin balanslı olmasını təmin etmək; Bu inkişaf etməkdə olan ölkələrin böyüməsini təmin etmək, lakin inkişafdan əvvəl rifahın aşağı düşməsinin qarşısını almaq və ya daşıma qabiliyyətini aşmaq və inkişaf etməkdə olan ölkələrin əhalisini tarazlıqda saxlamaq kimi ifadə edilə bilər (Goodland R., 1998: p.38). Ətraf mühitin dayanıqlılığının dörd dərəcə olduğunu, yəni zəif, orta, güclü və son dərəcə güclü olduğunu söyləmək olar.

Zəif ekoloji dayanıqlılıq təbii, texnoloji, sosial və humanitar, kapitalın dörd növü arasında fərq qoymur. Bu mənada zəif ekoloji dayanıqlıq dünyanın təbii kapitalının hamısının və ya çoxunun texnoloji kapitala və ya işlərə çevrilə biləcəyi fikrini qəbul edir. Orta ekoloji dayanıqlılıq bu kapitalın tərkibinə, təbii, süni və insan olub-olmadığını, ümumi kapitalın sabitliyini təmin etməyə çalışarkən tələb olunur. Güclü ekoloji dayanıqlılıq, fərqli kapital ehtiyatlarının ayrıca qorunması lazım olduğunu göstərir. Bu, təbii və süni kapitalın həqiqətən əvəzedicilər deyil, əksər istehsal funksiyalarını tamamlayan bir şey olduğunu düşünür. Həddindən artıq güclü ekoloji dayanıqlılıq heç bir şeyin istehlak olunmamasının tərəfdarıdır. Ətraf mühitin dayanıqlılığının bu səviyyəsi bərpa olunmayan mənbələrdən heç bir şəkildə istifadə edilməməyi müdafiə edir, halbuki qida mənbələrindən yalnız illik xalis artım templərindən istifadə edilə bilər (Goodland R., and Daly H, 1996: p.1006). Xülasə, davamlı inkişafın ekoloji ölçüsü ekosistemlərin və biomüxtəlifliyin daşıyıcı gücünə toxunur və təbii kapital ehtiyatının gələcək nəsillərə ötürülməsini nəzərdən keçirir.

Dayanıqlı inkişaf konsepsiyasının ekoloji mühafizədəki rolunun əhali tərəfindən anlaşılması, onun müddəalarına uyğun olaraq öz fəaliyyətlərini effektiv şəkildə təşkil etməsi, eləcə də əhalinin sağlamlığına dəymiş zərərin minimuma endirilməsi məqsədi ilə ictimaiyyəti sözügedən konsepsiya barədə məlumatlandırmaq üçün mediada ona geniş yer verilməsi, informasiya xarakterli braşür və bukletlərin əhaliyə çatdırılması və s. kimi tədbirlərlə reallaşdırıla bilər.

Dayanıqlılıq tədqiqatlarına hər zaman iqtisadi və texnoloji yanaşmaların nəzdində baxılsa da, cəmiyyət və şəxslərlə əlaqəli mövzunun ölçüsü məsələlərə sosial baxımdan yanaşmağın vacibliyini ortaya qoyur. Başqa sözlə, yalnız iqtisadi və texnoloji inkişaflarla deyil, sosial dəyişiklik və inkişaflarla əlaqəli olan dayanıqlılığın sosial ölçüsünü təhlil etmək lazımdır.

Dayanıqlı inkişafın sosial yönümü cəmiyyətin əsas ehtiyaclarının ödənilməsi məsələsini vurğulayır. Sosial cəhətdən dayanıqlı cəmiyyət öz mənbələrini qorumaq və inkişaf etdirmək, gələcəkdə problemlərin qarşısını almaq və ya həll etmək üçün çevikliyə sahib olmalıdır. Bu çərçivədə, sosial dayanıqlılığı insanların yaşadığı və

işlədiyi yerlərdən insanların ehtiyac duyduğunu anlamağı və dərk etməsini təmin edən davamlı, uğurlu yerlərin yaradılması prosesi kimi qəbul edilə bilər. Başqa sözlə, sosial dayanıqlığı, sosial həssaslığı və sosial rifahı dəstəkləyən fiziki, mədəni və sosial məkanların yaradılması bu yerlərdə yaşayan insanlarla qarşılıqlı təsir prosesini əhatə edir. Bu mənada sosial dayanıqlılıq fiziki məkan dizaynının (sosial və mədəni həyatı, sosial imkanları, insanların iştirakı və inkişafını dəstəkləyən infrastruktur və məkan inkişafını təmin edən sahələr kimi) sosial məkan dizaynı ilə birləşdirilməsini təmin etmək kimi görülə. Bu izahatlara uyğun olaraq, sosial dayanıqlı inkişaf insan hüquqları, əmək hüquqları və korporativ idarəetmə sahələrini əhatə edir və gələcək nəsillərin indiki nəsillər qədər sosial mənbələrə daxil olmasına təmin olunması/mane olunmaması kimi qəbul edilə bilər (Mak M., və Peacock C., 2011: 4).

Yəni, sosial dayanıqlılıq cəmiyyətlərin keyfiyyətidir (Littig B., and Griebler E., 2005: p.72). Dayanıqlılığın sosial yönümünün "dayanıqlılığı yaxşılaşdırmaq", "dayanıqlılığa qoşulma" və "dayanıqlılığın davamlılığı" kimi üç mərhələsi var. Dayanıqlılığın artırılması sosial kapital, ədalət, bərabərlik və davamlılığa bağlanma kimi əsas ehtiyacların təmin edilməsi; ətraf mühit hədəflərinə çatmaq üçün davranış dəyişikliklərini və davamlılığını qorumaq; dəyişikliklər qarşısında sosial-mədəni xüsusiyyətlərin qorunmasını ifadə edir (Vallance S., 2011: 342). Bir cəmiyyətin sosial davamlı olması üçün iki mənbəyə ehtiyac var. Bu mənbələr fərdi / insan və sosial / cəmiyyət kimi təsvir edilə bilər. Fərdi və ya sosial ölçü həyat keyfiyyətini yaxşılaşdırmaq və bu inkişafların davamlılığını təmin etmək üçün kollektiv fəaliyyətə kömək edən münasibətlər, şəbəkələr və normalar kimi müəyyən edilə bilər, fərdi və ya insan qabiliyyəti, insanın öz rifahına və cəmiyyətin rifahına, məsələn təhsil, liderlik qabiliyyəti kimi töhfə verə biləcək keyfiyyət və qaynaqlara aiddir. Effektiv və dayanıqlı bir cəmiyyət qurmaq üçün bir tərəfdən bərabərlik, ictimailəşmə və qarşılıqlı əlaqə, təhlükəsizlik və uyğunlaşma kontekstində fərdi və sosial qaynaqlar inkişaf etdirilməlidir (Vancouver, 2005: 3). Bu məzmunda, sosial dayanıqlığı təmin etmək üçün müxtəlif sərmayələrin edilməli olduğunu söyləmək

olar. Bu investisiyalar müxtəlif sosial müavinətlərin alınmasında əlçatanlığın və bərabərliyin təmin edilməsi; əsas sağlamlıq, təhsil, enerji, mənzil və oxşar hüquqları əldə etmək; fərdlərin, qrupların və icmaların dolanışıqları korlanmır və məcburi yaşayış yerləri dəyişdirilmir; Təhlükəsiz və sağlam iş şəraitini təmin etmək və məcburi əməyin və ya uşaq əməyinin qarşısını almaq kimi ümumiləşdirmək olar (Birləşmiş Millətlər Təşkilatı, 2012: s.26).

Bu nöqtədə qeyd etmək lazımdır ki, sosial dayanıqlılıq, əsas xidmətlərə çıxışda güclü sosial birlik və bərabərlik ilə fərqlənən müsbət bir vəziyyətdir (McKenzie S., 2004: 15). Dayanıqlı inkişafın sosial ölçüsünü təmin etmək üçün demək olar ki, hökumətlər, müxtəlif ianələr verməyə hazır olan qeyri-hökumət təşkilatları və özəl sektor birlikdə işləməlidirlər. Sosial dayanıqlı bir cəmiyyət yaratmaq üçün beş əsas prinsipdən bəhs etmək olar. Bu prinsiplər (McKenzie S., 2004: 18-19):

• Bərabərlik: Cəmiyyətin bütün üzvləri, xüsusən maddi cəhətdən zəif və həssas olanlar üçün bərabər imkanlar təmin edilməlidir

• Müxtəliflik: cəmiyyət müxtəlifliyi təşviq etməlidir.

• Öhdəlik: Cəmiyyət daxilində və xaricində rəsmi, qeyri-rəsmi və institusional səviyyədə qarşılıqlı əlaqə yaratmağa imkan verən sistemlər və quruluşlar təşviq edilməli və lazımi səviyyədə təmin edilməlidir;

• Həyat keyfiyyəti: fərdi ehtiyaclar, qrup və cəmiyyət səviyyəsində bütün üzvlər üçün təməl ehtiyacların ödənilməsini və yaxşı bir həyat keyfiyyətinin inkişaf etdirilməsini təmin etmək;

• Demokratiya və idarəetmə: cəmiyyət üçün demokratik proseslər, şəffaf və hesabatlı idarəetmə quruluşları təmin edilməlidir.

Qeyd etmək lazımdır ki, sosial və ekoloji dayanıqlığa nail olmaq yolunda yuxarıda göstərilən prinsiplərə nail olmaq üçün konkret, bağlılıq və müxtəliflik düşüncələrin mövcudluğunu təmin etmək lazımdır. Dayanıqlılıq tədqiqatlarına hər zaman iqtisadi və texnoloji yanaşmaların nəzdində baxılsa da, cəmiyyət və şəxslərlə əlaqəli mövzunun ölçüsü məsələlərə sosial baxımdan yanaşmağın vacibliyini göstərir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dayanıqlı inkişaf hər bir ölkənin milli strategiya və hədəflərin müəyyənləşdirilməsini və bunun müqabilində əhalinin rifah halının yaxşılaşdırılmasını tələb edir. Dayanıqlı inkişaf milli inkişaf xüsusiyyətlərinə uyğun şəkildə inklüziv və dayanıqlı sənayeləşmənin həyata keçirilməsini dəstəkləyir. Resurslardan effektiv istifadəni təşviq etməklə məşğulluqda və ÜDM istehsalında sənayenin payının xeyli yüksəldilməsi, müasir texnologiyaların daha geniş şəkildə tətbiq edilməsi, iqtisadi inkişaf və əhalinin rifahının yaxşılaşdırılması dayanıqlı sənaye infrastrukturunun yaradılmasının təməl məqsədlərindəndir.

DİM-ə nail olunma yolunda Azərbaycan müəssisələrinin strateji inkişaf perspektivlərinin öyrənilməsi tədqiqat işinin əsasını təşkil edir. Azərbaycanda inklüziv artım indeksində başlıca yer tutan yoxsulluq aradan qaldırılır. İnklüziv artım indeksində əsas yerlərdən birini də səfalətin, aclığın aradan qaldırılmasıdır. Yəni təbii resurların, hər kəsin təlabatı olan ərzaqların, hər kəs üçün əlçatan olması önəmlidir.

Tədqiqat işində "SOCAR Polymer" müəssisəsinin dayanıqlı inkişaf yolunda strateji inkişaf məqsədlərinin araşdırılması, prioritetlərin təyin olunması, ölkəmizdə rəqabətqabiliyyətli məhsul istehsalı yollunda son dövrlər atılan addımların perspektivlilik göstəricilərinin təhlili aparılmışdır. "SOCAR Polymer" müəssisənin istehsal etdiyi hazır məhsullar əsasında müxtəlif profilli zavod və fabriklərin qurulma ehtimalının olması məşğulluq sahəsində müsbət hal kimi hesab edilə bilər. Bu, eyni zamanda sahibkarlara əlavə qazanc gətirəcək və ölkənin ixrac məhsulu daha baha qiymətə xaricə ixrac ediləcəkdir. Belə olmadığı təqdirdə, "SOCAR Polymer"in hazır məhsulları ancaq xammal olaraq xaricə satıla biləcəkdir. Bu hal da istər beynəlxalq rəqabət reytinqi baxımından, istərsə də, dayanıqlı inkişaf baxımından mənfi hal kimi qarşılanır.

Hazırda Azərbaycanda əmək ehtiyatlarının keyfiyyətinin yüksəldilməsi, əmək bazarının və davamlı inkişaf edən iqtisadiyyatın tələblərinə uyğunlaşdırılması,

bütövlükdə əmək bazarında işçi qüvvəsinin istifadəsində səmərəliliyin artırılması sahəsində məsələlərin həlli beynəlxalq və milli əmək bazarının tələblərinə cavab verən peşə və ixtisas (kvalifikasiya) standartlarının, onların əsasında isə təlim, təhsil və tədris proqramlarının hazırlanması və tətbiqi vasitəsilə həyata keçirilir.

Aparılan tədqiqatların nəticəsi olaraq aşağıdakı təklifləri verə bilərik:

- Milli iqtisadiyyatın ancaq biristiqamətli yox, çoxşaxəli inkişafına nail olmaq, habelə neft sektoru ilə birgə, qeyri-neft sektor sahələrinin də təkmilləşdirilməsi, müvafiq iş yerinin açılması dayanıqlı inkişafın vacib məqsədlərindən olan ölkə əhalisinin həyat səviyyəsinin yüksəlməsinə mühit yaradacaqdır.
- Dayanıqlı inkişafın ərzaq təhlükəsizliyi baxımından təkmilləşdirilməsi üçün ölkədə ərzaq məhsulları ilə təchizatın dayanıqlılığı yolunda risklərin qiymətləndirilməsi məqsədi ilə mütəmadi monitorinqlərin həyata keçirilməsi məqsədəuyğun addım olar.
- Ərzaq məhsullarının idxalı, istehsalı, ehtiyatları və ticarət axınları üzrə vahid elektron informasiya portalının yaradılması dayanıqlı inkişafın təmin olunmasında mühüm addım ola bilər.
- Kənd təsərrüfatı sahəsində olan fəaliyyətlər qlobal iqlimdə baş verən dəyişikliklərə adaptasiya olunmalıdır. Temperaturda olan yüksəklik, yağışın xarakterinin dəyişməsi, ekstremal şəkildə yaranan hava şəraiti (quraqlıqlar və d.) kimi iqlim dəyişikliklərinin bitkiçilik və heyvandarlıq sahələrində məhsuldarlıq səviyyəsinin aşağı düşməsinə səbəb olması nəzərə alınmalı, bu dəyişikliklərə uyğunlaşdırılan bitki sortları və heyvan cinslərinin tətbiqinin genişləndirilməsi və "iqlim əsaslı ağıllı kənd təsərrüfatı"nın təkmilləşdirilməsi təşviq edilməlidir.
- İstehsalın intensivləşdirilməsinin zəruri şərti kimi kənd təsərrüfatı torpaqlarının konsolidasiyası prosesi də, dayanıqlı kənd inkişafı və təbii resursların səmərəli idarəedilməsi siyasətinin tərkibi kimi, kənd təsərrüfatı sahəsində müşahidə edilən qlobal bir meyil olmaqla, hökumətin dayanıqlı inkişaf strategiyasında önəmli yeri tutmalıdır.

- Aqrar sahədə olan digər bir problem isə məşğulluğun artırılması məsələsidir. Bu məqsədlə, "Aqrar Məşğulluğun Artırılması Layihəsi"-nə dövlət tərəfindən diqqət artırılmalı və layihənin cəlbediciliyi artırılmalıdır.

- Texnologiyaların inkişafına, sənayenin inkişafı sahəsində tədqiqatlara və innovasiyalara dəstək artırılmalı, sənayenin şaxələndirilməsi üçün effektiv siyasi mühit, sənaye müəssisələrinin müasir texnologiyadan geniş istifadəsi, onların maliyyə xidməti istifadəsinə çıxış imkanları, habelə bazarlara inteqrasiyası təmin edilməlidir.

- Əhalinin sosial müdafiəsinin gücləndirilməsində, məşğulluq səviyyəsinin artırılmasında, layiqli əməyin təmin edilməsində və işçi qüvvəsinin keyfiyyətinin yüksəldilməsində sosial dialoq və tərəfdaşlığın səviyyəsinin artırılması üçün işlər görülməlidir.

- Son zamanlar neft sektorunda, xüsusilə də, tədqiqat işinin aparılması üçün obyekt olaraq seçilən “SOCAR Polymer” zavodunda həyata keçirilən işlər göz önündə olsa belə, tükənən enerji mənbələrinin istifadəsini məhdudlaşdırmaq kifayət qədər məqsədəuyğun olardı. Çünki neftin qiymətinin belə aşağı səviyyədə olması istər xam neftin satışında, istərsə də neft məhsullarının emalından alınan məhsulların satışında mənfəətin çox aşağı olmasına gətirib çıxarır. Burada söhbət maya dəyərinin belə ödənilə bilinməməsindən gedir.

- Dayanıqlılıq tədqiqatlarına hər zaman iqtisadi və texnoloji yanaşmaların nəzdində baxılsa da, cəmiyyət və şəxslərlə əlaqəli mövzunun ölçüsü məsələlərə sosial baxımdan yanaşmağın vacibliyini göstərir.

- Dayanıqlı inkişaf konsepsiyasının ekoloji mühafizədəki rolunun əhali tərəfindən anlaşılması, onun müddəalarına uyğun olaraq öz fəaliyyətlərini effektiv şəkildə təşkil etməsi, eləcə də əhalinin sağlamlığına dəymiş zərərin minimuma endirilməsi məqsədi ilə ictimaiyyəti sözügedən konsepsiya barədə məlumatlandırmaq üçün mediada ona geniş yer verilməsi, informasiya xarakterli braşür və bukletlərin əhaliyə çatdırılması və s. kimi tədbirlərlə reallaşdırıla bilər.

- Azərbaycanın ümumi enerji təchizatında ətraf-aləm üçün zərərsiz alternativ enerji mənbələri hissəsinə daxil edilən külək və günəş enerjisinin payının artırılmasına nail olmaq məqsədəuyğun hesab olunmalıdır.
- Alternativ enerji mənbələrindən istifadə və inkişaf sahəsində mütərəqqi yerli qanunvericilik bazasının qəbulu və mövcud milli proqramın əhatə dairəsinin genişləndirilməsi məsləhət olunur.
- İqtisadiyyat Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşəbbüsləri ilə icra hakimiyyət orqanları nəzdində cəmiyyətin ekoloji biliklərinin artırılması, fərdlərin ətraf mühitin idarə olunmasındaki misilsiz rolunun diqqət mərkəzində saxlanılması məqsədilə “Cəmiyyətin dayanıqlı inkişafında ekoloji problemlərin əlaqələndirilməsi” bölməsinin yaradılması məqsədəuyğundur.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. “2004-2008-ci illərdə Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”.

2. “2009-2013-cü illərdə Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”.

3. “2014-2018-ci illərdə Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”.

4. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış “Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi”nin icrası ilə əlaqədar Azərbaycanda görülən işlər və əldə olunan nailiyyətlər haqqında 2016-2017-ci illər üzrə YEKUN HESABAT http://sdg.az/storage/app/uploads/public/5b8/7d0/ae0/5b87d0ae05e51242626787.pdf

6. “Dayanıqlı inkişafı xarakterizə edən göstəricilər”. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlar toplusu. Bakı-2018

7. Abbasov İ. D., (2011). “Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqamətləri”. Bakı. “Elm və Təhsil”, 452 səh.

8. Alıyev İ.H, Məmmədov Y.Ə., (2014) “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının tətbiqi Azərbaycan Respublikasında qeyri-neft sənayesinin inkişaf proqramı Bakı, “Avropa”, 134 səh.

9. Alıyev İ.H. və Soltanlı İ.Q. (2013), “Milli iqtisadi inkişaf modelinin formalaşmasının qanunauyğunluqları və xüsusiyyətləri. Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya. III Beynəlxalq konqres”. Bakı, 15-17 oktyabr.

10. Aslanzadə İ. A. (2013). Dövlət innovasiya siyasətinin formalaşdırılması və sənaye sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri. İqtisad elmləri doktoru. dissertasiyasının avtoreferatı. AMEA, İqtisadiyyat İnstitutu. Bakı.

11. Atakişiyev M.C. Azərbaycan 2020: milli iqtisadi inkişaf və səmərəli yüksəlişin problemləri // Azərbaycanın vergi jurnalı, № 4, 2012. səh., 135-146.

12. Əhmədov B.S. "Milli iqtisadiyyatda investisiya qərarlarının qəbulu mexanizmi və ona təsir edən amillər" / "İqtisad elmləri: nəzəriyyə və praktika" jurnalı, 2010, № 2. səh. 5-8

13. Ələkbərov Əvəz. "Azərbaycanın davamlı inkişaf modeli qələbəmizin rəhnidir". 18 oktyabr 2019-cu il, Xalq qazeti

14. İsrafilov H.A., (2010). Q"loballaşma şəraitində istehlak kooperasiyasının inkişaf perspektivləri". Bakı, "Şərq və Qərb", 417 səh.

15. Mahmudova İ.M., Mahmudov M.M.. (2011). "Regionların sosoial-iqtisadi inkisafının tənzimlənməsi". Bakı. "Elm və Təhsil". 265 səh.

16. Mehdiyev R. (2015). "İkili standartların dünya nizamı və müasir Azərbaycan". Bakı. "Apastrof" 389 səh.

17. Muradov A.N.. və b. (2008), "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf istiqamətləri. *(kolloktiv monoqrafiya)* Bakı. "Elm" 524 səh.

18. Nuriyev Ə.(2011). Regional siyasət və idarəetmənin əsasları. Bakı., 298 səh.

19. Rzayev İ., (2010). "Azərbaycan Respublikası regionlarının davamlı sosial-iqtisadi inkişafı: mövcud vəziyyət və gələcək perspektivlər". "Şərq və Qərb" Bakı. 415 səh.

20. Sərdarov T.Ə., (2009). "Bazar münasibətləri şəraitində Azərbaycan Respublikasında əhalinin və məşğulluğun formalaşması", Bakı. "Azərnəşr" 368 səh.

**İngilis dilində**

1. CITY OF VANCOUVER (2005). "City Of Vancouver Policy Report Social" Development, http://council.vancouver.ca/ 20050524/documents/p1.pdf.

2. GOEL, Sachin ve SIVAM, Alpana (2015). "Social Dimensions In The Sustainability Debate: The Impact Of Social Behaviour In Choosing Sustainable

Practices In Daily Life”, International Journal of Urban Sustainable Development, 7(1), 61-71.

3. Goodland R., (1995). “The Concept of Environmental Sustainability”, Annual Review of Ecology and Systematics, 26, 1-24.

4. Goodland R., (1998). “The Urgent Need for Ecosystem Integrity and Ethics to Support Environmental Sustainability”, Global Bioethics, 11(1-4), 29-46.

5. Goodland R., (2002). “Sustainability: Human, Social, Economic and Environmental”, Ted Munn (Ed.), Encyclopedia of Global Environmental Change, içinde (1-3), John Wiley&Sons Ltd. GOODLAND, Robert ve DALY, Herman (1996). “Environmental Sustainability: Universal And Non-Negotiable”, Ecological Applications, 6(4), 1002-1017.

6. Hueting R., (2011), “The future of environmentally sustainable national income: Indispensable Information for Attaining Environmental Sustainability”, University of Amsterdam,100 p..

7. Ianchovichina, E., Lundstrom, S. (2009). “Inclusive Growth Analytics: Framework and Application.” Policy Research Working Paper, No(4851), Washington, World Bank.

8. Julian Barnes. “Levels of life”. 9th Edition. 2015

9. Lıttıg B., and Grıebler E., (2005). “Social Sustainability: A Catchword between Political Pragmatism and Social Theory”, International Journal of Sustainable Development, 8(1/2), 65-79.

10. Michael, Y. ve Peacock C., (2011). “Social Sustainability: A Comparison of Case Studies in UK, USA and Australia”, 17th Pacific Rim Real Estate Society Conference 16-19 January, Gold Coast-Australia, 1-14.

11. Mckenzıe S., (2004). “Social Sustainability: Towards Some Definitions”, Hawke Research Institute Working Paper Series No 27, Hawke Research Institute University Of South Australia Magill, South Australia 2004.

12. McKinley T., (2010). Inclusive Growth Criteria and Indicators: An Inclusive Growth Index for Diagnosis of Country Progress. ADB Sustainable Development Working Paper Series, No(14), Philippines, Asian Development Bank

13. Morellı J., (2011). "Environmental Sustainability: A Definition for Environmental Professionals", Journal of Environmental Sustainability, 1(1), 1-9.

14. OECD. Inclusive Growth. http://www.oecd.org/inclusive-growth/.

15. Rauniyar, G., Kanbur, R. (2010). Inclusive Development: Two Papers on Conceptualization, Application, and the ADB Perspective. Philippines, Asian Development Bank.

16. Strategic road maps for the national economy and main economic sectors (2020)

17. Sutton P., (2004). A Perspective on Environmental Sustainability? A Paper for the Victorian Commissioner for Environmental Sustainability, http://www.green-innovations.asn.au/A-Perspective-on-Environmental-Sustainability.pdf.

18. The Inclusive Growth and Development Report 2017

19. UNDP. What is Inclusive Growth. http://www.ipc-undp.org/whatinclusive-growth.

20. UNITED NATIONS (2012). A Framework for Advancing Environmental and Social Sustainability in The United Nations System, Environment Management Group, 2012, United Nations, Geneva.

21. Vallance S., (2011). "What Is Social Sustainability? A Clarification of Concepts", Geoforum, 42, 342-348.

22. Woodcraft S., (2011). Design For Social Sustainability A Framework For Creating Thriving New Communities.

## İnternet resursları


1. //www.adb.org/publications/asian-development-outlook-2019-update Asian Development Outlook (ADO) 2019 Update: Fostering Growth and Inclusion in Asia's Cities https:

2. http://hdr.undp.org/sites/default/files/hdr2019.pdf, - Human Development Report 2019

3. https://president.az/articles/31679 - Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunları

4. http://unazerbaijan.org/az/dayaniqli-inkisaf-m%C9%99qs%C9%99dl%C9%99ri/dayaniqli-inkisaf-uzr%C9%99-2030-cu-il-gund%C9%99liyi/ - Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyi

5. https://www.doingbusiness.org/ - Doing Business Reports

6. https://www.worldbank.org/en/publication/global-economic-prospects - Global Economic Prospects World Bank

7. https://www.az.undp.org/content/azerbaijan/az/home/mdgoverview.html - Minilliyin İnkişaf Məqsədləri. 2015-ci il üçün səkkiz məqsəd.

8. «World Population Prospects». http://www.un.org/. - UN Department of Economic and Social Affairs Population Division,

9. https://www.imf.org/en/Publications/WEO/Issues/2019/07/18/WEOupdateJuly2019 - World Economic Outlook IMF

10. https://azstat.org/statHtml/statHtml.do?orgId=994&tblId=DT_BE_007&vw_cd=MT_ATITLE&list_id=&scrId=&seqNo=&language=az&obj_var_id=&conn_path=I2&path=

11. https://www.azstat.org/portal/tblInfo/TblInfoList.do#

## Cədvəllərin siyahısı

**Cədvəl 1**: İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiya, milyon manatla ......36

**Cədvəl 2:** İnnovasiyaların tiplərinə görə sənayedə texnoloji innovasiyalara çəkilən xərclər, min manat ........................................................................................................................48

**Cədvəl 3:** Sənaye istehsalının sahə strukturu, ümumi yekuna nisbətən, müvafiq illərin faktiki qiymətləri əsasında, faizlə..........................................................................................48

**Cədvəl 4**: Əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri.................................... ...................58

**Cədvəl 5:** Pensiya alanlar (min nəfər) ...........................................................................59

**Cədvəl 6:** Ölkə gəlirlər (ayda adambaşına, manatla) və əhalinin yaşayış səviyyəsi üzrə göstəricilər..........................................................................................................60

**Cədvəl 7**: Ekoloji Dayanıqlılıq kateqoriyaları...................................................................71

## Sxemlərin siyahısı

**Sxem 1:** Həyat səviyyəsinin göstəricilər sistemi..........................................................13

## Şəkillər Siyahısı

**Şəkil 1:** "İnsanın inkişaf indeksi"nin dünya ölkələri üzrə bölgüsü...............................................15

**Şəkil 2:** Azərbaycanın DİM-lər üzrə icra cədvəli (BMTİP metodologiyası)................................30

**Şəkil 3:** Ümumi olaraq Texnopark..................................................................................51